ƏRƏSTUN  BAXŞƏLİYEV
QƏRİBƏ  RƏHİMOVA

# "Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji problemləri"

**( psixoloji oçerklər)**

**BAKI-2019**

**Elmi redaktor:** Pedaqogika üzrə elmlər doktoru, professor
Ş.Q.Əliyeva

**Rəyçilər:** p.ü.f.d.dosent S.N.Heydərova
p.ü.f.d.G.Əlixanova

Professor Ə.T. Baxşəliyev, dosent Q.V.Rəhimova" "Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji problemləri"( psixoloji oçerklər). ADPU-nəşriyyatı. Bakı-2019. 155 Səh

ISBN 978-9952-37-292-2

Kitabda gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri şərh olunmaqla, mədəni davranış və adətlərin mahiyyəti açıqlanır və onların formalaşmasının psixoloji pedaqoji mexanizmləri konkret faktlarla şərh edilir. Kitabdan müəllimlər, valideynlər, gənclər, magistrlar, pedaqoq və psixoloqlar geniş istifadə edə bilərlər.

# Mündəricat

Giriş.................................................................................4
Fəsil 1. Problemin nəzəri-tarixi məsələləri
1.1 Azərbaycanlı gənclərdə mədəni davranış və adətlərin formalaşdırılmasını öyrənməyin mahiyyəti və əsas tədqiqat istiqamətləri.........................................................7
1.2 Gənclərdə mədəni davranışın adətlərin genezisi........21
1.3 Mədəni davranış və adətlər haqqında aqillərin fikirləri.................................................................36
1.4 Davranışın mədəniyyət kontekstində şərhi…............68
1.5 Tədqiqatın metodikası..............................................79
NƏTİCƏ.........................................................................86
ƏDƏBİYYAT..................................................................87
Fəsil 2.Azərbaycanlı gənclərdə mədəni davranış və adətlərin təzahür formaları və inkişafına təsir edən sosial-psixoloji amillər..................................................92
2.1 Gənclərdə mədəni davranışın təzahür formaları.............................................................................92
2.2Mədəni və asosial davranışların müqayısəli təhlili.............................................................................103
2.3 Mədəni davranış və asosial davranışlara gənclərin münasibəti.........................................................................111
2.4Sadəlik və təvəzökarlıq mədəni davranışın təzahür forması kimi.....................................................................113
2.5Gənclərdə mədəni davranış və adətlərin formalaşmasında ailə mədəniyyətinin rolu...................132
ƏDƏBİYYAT...............................................................145

# GİRİŞ

İnsanlar davranış mədəniyyətini həmişə yüksək qiymətləndirmişlər. Davranış mədəniyyəti sözün geniş mənasında bəşəriyyətin inkişafının gedişi ilə ortaya çıxan problemlərə aiddir. Hər bir dövr üçün spesifik olan sosial-iqtisadi və mədəni inkişaf məsələlərinə uyğun olaraq davranış mədəniyyətinin formalaşdırılması zərurətini diktə edir. Müasir cəmiyyətimizdə cərəyan edən sosial-iqtisadi proseslər Azərbaycanın gələcəyi, onun gənclərinin davranış mədəniyyəti haqqında düşünməyə vadar edir. Tələbə gənclərin mədəni davranışının formalaşdırılması problemini aktuallaşdıran səbəblər aşağıdakılardır:

Birincisi, cəmiyyətimizin genış, savadlı, yüksək mənəviyyatlı, təkcə biliklərə deyil, həmçinin gözəl davranış mədəniyyətinə malik olan insanlara ehtiyacı var. Azərbaycanın dinamik inkişaf etməsi üçün təhsil sistemi yüksək ümumi mədəniyyət səviyyəsinə, seçdikləri sahədə dərin peşə biliklərinə malik mütəxəssis yetişdirməlidir. Amma bu işdə hər şey daha çox onların öz ölkəsinin necə vətəndaşları olacaqlarından, onlar üçün hansı dəyərlərin prioritet təşkil etməsindən asılı olacaqdır. Buna görə də əsas vəzifələrdən biri tələbə gənclərə davranış mədəniyyətinin mahiyyətini, onların məzmununu izah etmək, bunun əsasında da onların mədəni davranışını formalaşdırmaqdır.

İkincisi, müasir dünyada insana təkcə pozitiv deyil, həm də neqativ xarakterli mənbələr təsir göstərir. Bu mənbələr tələbə gənclərin hələ möhkəmlənməmiş intellektinə və hisslərinə, formalaşmaqda olan mədəni davranış sferasına təzyiq göstərir.

Üçüncüsü, öz-özlüyündə təhsil tələbə gənclərin davranış mədəniyyətinin formalaşdırılmasına zəmanət verir, çünki mədəni davranış insanın tanış insanlara hörmətə əsaslanan münasibətini şərtləndirir. K.D.Uşinskİ yazırdı ki: "Mədəni davranış tərbiyənin başlıca vəzifəsidir".

Tədqiqat zamanı müasir tələbə gənclərin şüurunda bəzi ziddiyyətlər də aşkar etmişik. Bir tərəfdən, onlar ictimai faydalı əməyə, ehtiyacı olanlara yardım göstərməyə hazır olduqlarını nümayiş etdirirdilər. Lakin bu hazır olma psixoloqlar tərəfindən heç də həmişə dəstəklənmir ki, bu da gələcəkdə tələbə gənclərdə apatiyanın, biganəliyin inkişafına səbəb ola bilir. Digər tərəfdən, öz həyat problemlərinin həllində valideynlərə arxalanan tələbə gənclərin da sayı az deyildir. Bir tərəfdən müasir həyatın hadisə və proseslərinin qiymətləndirilməsində praqmatizm və praktisizm gözə çarpırsa, digər tərəfdən infantilizm, gələcəkdə uğurun şərti ola biləcək hər hansı bir addıma bu gün cəhd göstərmək meylinin olmaması qeydə alınır.

Mədəni davranış normalarının liberallaşdırılması tələbə gənclərə toxunur. Bu gün gənclər avaraçılığa, tərbiyəsiz ifadələrə, davranış normalarını pozuntularına kifayət qədər indefferent münasibət bəsləyir.

Dördüncüsü, davranış mədəniyyəti normaları haqqında biliklərlə silahlanmasının əhəmiyyəti həm də onunla bağlıdır ki, onlar həm də tələbə gənclərə müasir cəmiyyətdə hamılıqla təsdiq olunmuş normalar haqqında məlumat verir, həm də onlarla bu normaların pozulmasının nəticələri haqqında təsəvvürləri formalaşdırır. Bir sıra tədqiqatçılar öz əsərlərində tələbə gənclərin davranış mədəniyyətinə hazırlığı problemini işıqlandırırlar ( M.M. Qey, A.A.Qoronidze, A.A.Kalyujni, T.F.Lisenko və s.)

Ümumtəhsil müəssisələri qarşısında baş verən hadisələri sərbəst qiymətləndirməyə və öz fəaliyyətini ətrafdakı insanların maraqlarına uyğun qurmağa qadir olan, yüksək davranış mədəniyyətinə malik olan gənc yetişdirmək vəzifəsi qoyulur. Bu vəzifənin həlli tələbə gəncin davranış mədəniyyətinin formalaşması ilə bağlıdır. Araşdırdırılan problem A.M.Arxangelskinin, N.M.Boldirevın, A.S.Makarenkonun, İ.F.Xarlamovun və b. fundamental əsərlərində öz əksini tapmışdır. Bu əsərlərdə dav ranış mədəniyyəti nəzəriyyəsinin əsasları üzə çıxarılır.

## Fəsil 1. Problemin nəzəri-tarixi məsələləri
## Azərbaycanlı gənclərdə mədəni davranış və adətlərin formalaşdırılmasını öyrənməyin mahiyyəti və əsas tədqiqat istiqamətləri

Ulularımız həmişə insan zəkasına, ağlına yüksək qiymət vermişlər. Çünki ağıllı insan həyatda qorxulu olmur. Ağıl, təfəkkür sahibləri sadə və təvazökar olurlar. Müstəqillik, hadisələrə tənqidi münasibət bəsləmək, problemli situsiyalardan baş çıxarmaq yüksək mədəni davranışa sahib olan insanlara xasdır. Ulularımız daim gəncləri ləyaqətə, təmizliyə, təvazökarlığa, xeyirxahlığa, əxlaqi gözəlliyə, hörmət və dostluq hisslərinə, kamil şəxsiyyət anlayışına, milli etnik xüsusiyyətlərə səsləmişlər. Mədəni hisslər geniş anlayışıdır. Buraya səmimilik, sadəlik, hörmətcillik, dostluq və yoldaşlığı, xeyirxahlığı, humanizmi, vətənə, anaya, ailəyə sonsuz sədaqəti, təmiz və pak vicdanı, ləyaqəti, milli qüruru, torpağa, elə-obaya bağlılığı və s. daxildir. Torpalarımızın 20%-dən artığının işğal olunduğu, bir milyondan artıq soydaşlarımızın məcburi qaçqın və köçkün olduğu müasir şəraitdə vətənpərvərlik hissi önə çəkilməlidir.

Vətənpərvərlik hissi eyni zamanda, düşmənə nifrətdə özünü biruzə verməlidir. Gənclərimiz ermənilərin azərbaycanlıların başına gətirdikləri tarixi müsibətləri dərk etməlidirlər. Onlar bilməlidirlər ki, ermənilər tarixin ayrı-ayrı məqamlarında nə kimi faciələr yaratmışlar.

Vətənpərvərlik hissi milli zəminə-İslam dininin mənəvi sərvətlərinə, ümumbəşəri dəyərlərə əsaslanan fəal hissdir. Taleyin bizə bəxş etdiyi murdar qonşuların millətimizə qarşı törətdikləri soyqırım dərslərini heç bir dövrdə “qan yaddaşımızdan” silməməliyik.

Unudulmaz Mübariz İbrahimovun 45 erməni əskərini təkbaşına bir göz qırpımında yox etməsi, Fərid Əhmədovun qəhrəmanlığı, Abbasov Sabir, Alimov Ramis, Babayev Fuad, Əliyev Rüstəm, Həmzəyev Balahüseyn, Kərimov İlqar digər onlarla belə qəhrəmanlarımızın cəsarət və mərdlikləri ilə yaxından tanış olmalıdırlar.

Hər bir vətənpərvər olmaq istəyən şəxsdə-gəncdə bu hissi daşımaq üçün bilik, bacarıq, qabiliyyət və vərdişlər də olmalıdır. Vətənə, doğma torpağa, mənsub olduğu xalqa, dövlətin atributlarına, onun siyasi və elm xadimlərinə, bütün vətəndaşlara hörmət hissi aşılamaq lazımdır.

Möhtərəm prezidentimiz İlham Heydər oğlu Əliyevin idman sahəsinə göstərdiyi diqqət nəticəsində idmançılarımız Vətənimizi müxtəlif ölkələrdə layiqli təmsil edirlər. Dünya üzrə keçirilən Olimpiya oyunlarında qalib gələn idmançılarımız Hüseynov Nazim (1992), Meftəhəddinova Zemfira (2000), Abdullayev Namiq (2000), Mansurov Fərid (2004), Məmmədov Ağası (2004), Aşumova İradə (2004), Məmmədli Elnur (2008), Bayramov Rövşən (2008), Rəhimov Vitali (2008), Şərif Şərifov (2012), Mariya Stadnik (2012), Xetaq Qazyumov (2012) və başqa çempionlarımızın adını qeyd etmək olar.

İnsanın inkişafını, fərd kimi mövcudluğunu, cəmiyyətdə fəal həyat mövqeyi tutub şəxsiyyətə çevrilməsini davranış mədəniyyəti olmadan təsəvvür etmək mümkün deyil. Tarixi təcrübə və gündəlik həyat sübut edir ki, cəmiyyətdən tam təcrid olma, adamlarla münasibətdən tam təcrid olma insani keyfiyyətlərin, sosial normaların itirilməsinə gətirib çıxarır. Bioloji varlıq kimi insanın mövcudluğunda hava nə qədər əhəmiyyətlidirsə, ictimai varlıq,

şəxsiyyət kimi mövcud olmasında davranış mədəniyyətinin rolu bir o qədər böyükdür.

İzahli lüğətlərdə davranış mədəniyyətinə-insanların qarşılıqlı anlaşmaları, işgüzar və dostluq əlaqələri tərifi verilmişdir.

Ümumiyyətlə, davranış mədəniyyətinin mahiyyəti haqqında fikirlər müxtəlif, rəngarəngdir. Bu, problemin mürəkkəbliyi və çoxaspektliyi ilə bağlıdır. İlk növbədə davranış mədəniyyətinin mahiyyəti asan, hamıya tanış olan görünsə də, bu əslində belə deyil. İnsanlararası münasibətlər sahəsində son dövrdə aparılan tədqiqatlar sübut etdi ki, problem fəlsəfi, psixoloji, pedaqoji, sosioloji, linqvistik, semiotik, etik, estetik, ekoloji və s. baxımdan konkret araşdırmalar tələb edir.

Qeyd etmək lazımdır ki, gənclərdə davranış mədəniyyətinin formalaşmasının psixopedaqoji problemləri ayrı-ayrı elmlərin konkret tədqiqat obyektinə çevriləndə də alimləri müəyyən çətinliklərlə qarşılaşdırdı. Məlum oldu ki, fəlsəfi aspektdən problemin açılmasının psixologiya və digər əlaqədar elmərin köməyinə ciddi ehtiyacı var.

30-cu illərdən başlayaraq psixoloqlardan A.S.Vıqotski davranış mədəniyyətinə fəaliyyət kimi baxırdı. B.Q.Ananyev davranış mədəniyyətini əmək və təfəkkür kimi insan fəaliyyətinin bir növü formasında tədqiq edir, A.N.Leontyev tərəfindən aparılan tədqiqatlar fəlsəfədə davranış mədəniyyəti probleminin açılmasına xeyli kömək etdi. L.P.Bueva, E.Q.Zlobina davranışın psixoloji traktovkasına arxalanaraq problemin fəlsəfi nəzəriyyəsini işləməyə girişdilər.

Həyat özü də sübut edir ki, şəxsiyyətlərdən kənar cəmiyyət, insanların həyat fəaliyyətindən və münasi-

bətlərindən kənar isə ictimai münasibətlər yoxdur.. Şəxsiyyətlərarası ictimai münasibətlərin inkişaf prosesləri isə emosional əlaqələrsiz mümkün deyildir. Çünki, davranış mədəniyyəti cəmiyyətlə insanlar arasında qarşılıqlı münasibət, təsir və qarşılıqlı dərketmə vəzifələrini yerinə yetirir.

İnsanlararası davranış mədəniyyəti ibtidaidən aliyə doğru uzun bir inkişaf yolu keçmişdir. Təfəkkürü ifadə edən davranış mədəniyyətinin meydana gəlməsi, insanları narahat edən hadisələrin işarələrlə deyil, danışıq formasında bir birinə ötürülməsi qarşılıqlı düşüncə, fikir tərzi imkanlarını daha da genişləndirmişdir.

Qədim Şərqdə insan mədəniyyətinə yüksək qiymət verilməsi, davranışa xidmət edən əməlin, danışığın, mədəniyyətin saflığı etik, hüquqi, sosial-əxlaqi normaların daha da təkmilləşməsinə gətirib çıxarır. Bu sahədə dinin rolu ayrıca qeyd edilməlidir.

"Yaxın adamını da özün kimi sev" ideyası xristianlıqda insan davranışının ali prinsipinə çevrilir.

İslamda bu fikir daha da təkmilləşib, sadələşir: "Özün üçün nəyi arzu edirsənsə, nəyi istəyirsənsə, başqaları üçün də onu arzu et, onu istə". Ümumiyyətlə, davranış qaydaları, davranış texnikası birbaşa ictimai münasibətlərin rəvanlaşmasına xidmət edir. Təbəqəsindən, tutduğu mövqedən asılı olmayaraq hamı üçün nəzərdə tutulur. Cəmiyyətin sonrakı inkişafında, şərq təfəkküründə kamil, ədalətli insan idealının yaranması sahəsində islamın bu keyfiyyətinin dominatlığı təkzibedilməz faktdır.

Təsadüfi deyil ki, "Qabusnamə"nin, "Əxlaqi-Nasiri"nin meydana gəlməsində əsas motiv insanlararası münasibətin saflığıdır. İstər " Qabusnamə"də, istərsə də "Əxlaqi-Nasiri"də insan fəaliyyətinin əksər sahələrini

əhatə edən davranış qaydaları barədə dünaynın hər üzünü görmüş müdrik Şərq ağsaqqalları nəsihətverici subyekt kimi çıxış edir. Ata-anaya hörmət etmək, natiqlik məharətini artırmaq, özünü idarə etmək, yemək yemək, qonaq getmək, böyük və kiçiklərlə davranmaq, zarafat etmək, evlənmək, ticarət etmək, dost seçmək düşməndən qorunmaq barədə "Qabusnamə"dən tərbiyədə, davranış bacarıqları və vərdişləri aşılamaqda  çox şeyləri əxz etmək olar.

Əxlaqi-Nasiridə bütün əsər boyu davranış qaydaları, əmək, fəaliyyət, hərəkət, işgüzarlıq təbliğ olunur. Əxlaqı saflaşdırmaq sənətinin ən şərəfli, ən xeyirli sənət olduğu, ailə, dövlət və bəşəriyyət üçün ondan daha lazımlı bir sənət və peşənin olmadığı söylənilir.

N.Tusi davranış mədəniyyəti insan məxsus təbii xüsusiyyət hesab edərək yazır: Təbii davranış insan xassələrindəndir, hər şey öz kamalını öz xassələrində təzahür etdirir.... Buna görədir ki, həqiqi hikmət sahibləri bu xasiyyətin şərafətli olduğunu nəzərə alaraq onu inkişaf etdirmək üçün bir sıra faydalı tədbirlər də düşünmüşlər, məsələn, müxtəlif qayda-qanun, adət-ənənə icad etmişlər, camaata ibadətlə məşğul olmağı, ziyafətlər təşkl etməyi məsləhət görmüşlər. Bunların hamısı davranış mədəniyyətini qüvvədən həyata keçirmək, əməl etmək üçündür.

Əxlaqi-Nasiridə tay-tuşlarla dolanmaq, özlərini böyüklər yanında aparmaq, harada susub, harada danışmaq qayda-qanunlarından bəhs edən xüsusi fəsil var. Burada uşaqların, gənclərin, orta yaşlı insanların ağıllı, vicdanlı, davranış normalarına, uşaq ruhiyyəsinə bələd, şirin danışmaqda, insafli rəftarda, vüqarlı davranışda, pak və təmizlikdə, doğruluqda şöhrət tapmış adamlara tapşırılması tövsiyə edilir.

N.Tusi bir sözlə dünya əhalisi arasında sıx üzvi rabitənin olduğunu əyani olaraq göstərir, ayrı-ayrı adamların taleyinə biganə qalmağın doğru olmadığına işarət edir. O yazır: “Dünya əhalisinin ictimai quruluşu qarşılıqlı ictimai əmək və kömək sistemi təşkil etdiyindən, kim sistemdən çıxıb tək yaşamaq, inzivayə çəkilmək xəyalına düşsə, bu baxımdan fəzilətlərdən əli çıxar, öz növününköməklərindən imtina etdiyi üçün tənhaliq dəhşəti içərisində, əzab, əziyyət, məhrumiyyətlər cəngində məhv olar. Bəziləri belə həyatı fəzilət sayır, əlini ağdan qaraya vurmur, bir yerdə yurd salıb əməklə məşğul olmur, ünsiyyət saxlamır, sonra da deyirlər ki, dünyadan inrət dərsi alırlar. Kütbeyin adamlar hələ belələrinin fəzilət sahibi olduqlarını da düşünürlər. Bu ehtimal, şübhəsiz, xam xəyaldır “Qabusnamə”də və “Əxlaqi-Nasiri”də insan davranış mədəniyyətinin subyekti kimi çıxış edir. O, dəyişməyə, dərk etməyə, fəallığa, mövcud normativlər daxilində azadlığa can atır.

Qeyd etmək lazımdır ki, IX əsrdən başlayaraq Şərq əxlaqında və sosial həyatda dini normalarla milli adət-ənənələr sintez formada çıxış edir. Milli normativlərin bəşəri normativlərə çevrilməsində din sanki körpü rolunu oynayır. Əgər Qabusnamədə, Əxlaqi-Nasiri, Gülüstan, Büstan insanlararası münasibətlərdə hamı üçün zəruri keyfiyyətlərin bəşəri normaların ifadəsinə nail olublarsa, bu ilk növbədə dini ilə milliliyin vəhdətinə görədir.

Nizamidə isə insan artıq ali rütbəyə çatır, yer üzünün əşrəfinə çevrilir. Nizamidə tərbiyə obyekti–ali subyekt–şahlardır. Ən qorxulu adam da, ən faydalı adam da, geniş səlahiyyətə, böyük imkanlara malik olanlardır. Məhz şahların səlahiyyəti, imkanı hədsiz olduğundan, onlar daima tərbiyələnməli, aqilliyə, ədalətə istiqamətlən-

məlidir. O, xoşrəftar, ədalətli olmalıdır ki, əhali bir-biri ilə mehriban dolansın, firavan yaşasın. Nizaminin yaradıcılığında insanın davranış mədəniyyəti yüksək keyfiyyətləri ilə qiymətləndirilir:

Şirinsə birinin sözü – söhbəti
Başqa şey istəmə, bəsdir ülfəti!

Sonra Füzulidə biz fərdlərarası davranış mədəniyyətinin ağlasığmaz dərəcədə zərifliyinin, adamı heyrətə gətirən ülviliyin şahidi oluruq. İnsanı-insana bağlayan məhəbbətin, saysız dərəcədə gözəgörünməz naqillərin sonsuz çəkildə dərinliyini duyuruq. Ali varlıqda yeni-yeni keyfiyyətlər kəşf olunur, gözümüz qarşısında insan yenidən yer üzünün əşrəfinə çevrilir.

Yuxarıda qeyd edilənlər sübut edir ki, davranış mədəniyyəti insanlar arası münasibətlərin əsasında dayanır və bəşəri sivilizasiyanın müxtəlif mərhələlərində insan həmişə mərkəzi subyekt rolunda çıxış edib.

Müasir dövrdə dünya ölkələrinin demokratiyaya güclü meyli, gün-gündən genişlənən iqtisadi-siyasi-mədəni əlaqələr peşə ünsiyyəti mədəniyyətinin qlobal formada təkmilləşməsini tələb edir. Qəribə də olsa dövlətlərin, xalqların və millətlərin indiki inteqrasiyası, hərtərəfli əlaqələri millətlərin özünəqayıdışı ilə paralel şəkildə gedir. Bu hardasa demokratikləşmənin yeni inkişaf istiqaməti, yeni məzmunudur ki, davranış mədəniyyətinin də demokratikləşməsinə ciddi ehtiyac yaradır. Fikrimizcə, iqtisadi, siyasi, ekoloji, mədəniyytə dialoq xarakterli olduqda davranış mədəniyyətinin demokratikləşməsi anlayışı mahiyyət etibarilə məntiqidir. Belə olduqda istər iqtisadi-siyasi mədəniyyət, istərsə də ekoloji mədəniyyət, pedaqoji mədəniyyət kimi davanış mədəniyyətinin tərkibinə daxil olur.

Davranış mədəniyyətinin ən mühüm tərkib hissələrindən biri etiket mədəniyyətidir. Etiket-insanlar arasında reqlamentləşən xüsusi davranış qaydaları kimi başa düşülür. O, davranışın sırf xarici tərəfidir. Etiket mədəniyyəti-taktla və moda ilə bağlıdr. Mədəni davranışı həmişə yüksək əhval-ruhiyyədə köklənməyə vərdiş etmək özü də etiketə aiddir. Etiket mədəniyyəti ümumi qaydalarla yanaşı, milli adət-ənələrlə də sıx vəhdətdədir, adi görüşmək salamlaşmaq qaydası müxtəlif xalqlarda müxtəlif cürdür. Məsələn, fransızlar görüşən zaman bir-birinin yanağından öpür, sanoalılar bir-birlərini iyləyirlər. Əgər fransızı görən zaman iyləsəniz, sanoalini öpsəniz yəqin ki, təhqirdən yaxa qurtara bilməzsiniz. Bolqarlar razılıq əlaməti olaraq başlarını sağa-sola tərpədirlər, hansı ki, bu başqa xalqlarda etiraz əlaməti kimi qəbul olunur.

Yaponlar və Çinlilər son dərəcə lakonik danışır. Onlarda bəzi sözlər tonundan asılı olmayaraq 20 mənanı ifadə edir. Buna görə də çox vaxt avropalıları boşboğaz hesab edirlər. Avropalılar Tokio qatarlarında adamların bir-birinə baxmağa çalışmalarına, hinduların isə davranış mədəniyyətində cansıxıcı olmalarına təəccüblənirlər.

Gənclərdə davranış mədəniyyətinin mayəsinin demokratiya və ədalət, insana hörmət–insan amili təşkil edir. Davranış mədəniyyətinin forma və növlərindək müxtəliflik, onun strukturasının və məzmununun mürəkkəbliyi peşə mədəniyyəti kimi pedaqoji davranış mədəniyyətinin və onun formalaşmasının mürəkkəb bir proses olmasını göstərir. Müstəqil həyatda hər bir adamın davranışının bütün aspektlərində mədəni səviyyəsi orta ümumtəhsil məktəblərində müəyyən olunur. Tələbə gənclərin davranış mədəniyyətinə yiyələnməsi probleminin həllində alimlər 4 qrupa bölünür :

Birinci qrup alimlər iddia edir ki, gənclərə davranış mədəniyyəti barədə xüsusi biliklər verilsin. Bu barədə ayrıca dərslik nəşr edilib tədrisə başlanılsın ki, gənc müstəqil həyata davranış mədəniyyətinin bilikləri, bacarıqları, vərdişləri və texnikası ilə qədəm qoysun.

İkinci tərəf tələbə gənclərdə davranış mədəniyyətinin formalaşdırmağın əsas yolu kimi məktəbdənkənar, sinifdənxaric tədbirlərə diqqətin artırılması əsas götürür. Onların fikrincə asudə vaxtı düzgün təşkil olunmalı, xüsusi istirahət və əyləncə mərkəzləri yaradılmalıdır.

Üçüncü qrup mütəxəssislər isə, məktəbdə tədris yükünün və proqramın ağırlığını nəzərə alaraq davranış mədəniyyətinin formalaşması üçün dolayı yola ciddi fikir verir.

Dördüncü qrup isə, psixoloji testlər, işgüzar oyunlar, idman oyunları vasitəsilə gənclərin kommunikasiya qabiliyyətlərinin inkişafını əsas götürür.

Qeyd etmək lazımdır ki, bütün müddəalar praktikada özünü doğruldub, davranış mədəniyyətinin formalaşmasına, şübhəsiz, hamısı təsir edir.

Lakin, bizim cəmiyyət keçid dövrü yaşadığından, millətlərarası münasibətlər kövrək xarakter aldığından, xalqların öz milli adət-ənənələrdən uzaq düşdüyündən, zənnimizcə, indiki zamanda biz birinci qrup alimlərin müddəalarını əsas götürməliyik. Unutmaq olmaz ki, sosializm uzun illərdən bəri fərdi qabiliyyətlərin inkişafını tormozladığı, istedadların inkişafını ləngitdiyi bir şəraitdə, şəxsiyyətin nivelirləşdiyi bir dövrdə davranış mədəniyyətinin lazımi səviyyədə inkişaf edə bilməzdi. Bu günkü böhranların ən böyüyü də məhz davranış mədəniyyəti böhranıdır.

İllərdən bəri sözlə-əməlin uyğun gəlməməsi, qəzetlərin, informasiya vasitələrinin ətrafa yalan püskürməsi nəticəsində insanlar arasında saxta münasibətlər formalaşdı. Hərtərəfli kommunist adamının yetişdirilməsi ideyası nəzəriyyədən reallığa çevilə bilmədi. Dostluğa əməl etmək əvəzinə isə dostluqdan danışılır, millətlərin qardaşlığı salnaməsi yazılardı. Xalqın öz genefondundan qidalanma imkanları zəiflədikcə, ümumi intellekt aşağı düşməyə başladı. Formaca milli, məzmunca sosialist adamlar formalaşdırmağa cəhd milli məzmunu deformasiya etdi. Adamlar belə cəmiyyətdə sanki ümumi axına qoşulub axır. Hamı necə, məndə elə prinsipi ilə hərəkət edir. Çünki, axının əleyhinə getmək heç kimə fayda vermir. Məhəmməd Ə.S deyərdi: “İnsanlar atalarından çox zəmanələrinə bənzərlər”. Cəmiyyətdə üstqurum bazis münasibətləri, milli münasibətlər, hətta uzun illər ehkam kimi baxılan partiya böhran keçirirsə, məktəbdə davranış mədəniyyəti böhranından danışmaq təəccüblü deyil.

Pedaqoji fikrin tarixi inkişafı bəşər cəmiyyətində zəngin təcrübə xəzinəsi yaratmış, mütərəqqi olanları zaman yaşatmış, qeyri-mütərəqqi isə mütərəqqinin həyatda yerini möhkəmləndirməsinə xidmət edib, sıradan çıxmışdır. Bütün dövrlərdə davranış mədəniyyəti tarixi şəraitdən, istehsal münasibətlərindən asılı olaraq forma və məzmununu dəyişsə də tərbiyə edənlə tərbiyə olunan arasında yeganə əlaqə vasitəsi olmuşdur. Cəmiyyətdəki üstqurum bazis münasibətləri öz əksini pedaqoji prosesdə tapmaya bilməzdi. Bu münasibətlərin quruluşu məzmunu, inkişaf səviyyəsi eyni zamanda davranış mədəniyyətinin inkişaf səviyyəsi deməkdir. Ola bilməz ki, ictimai münasibətlərin normal inkişafı səviyyəsində olan cəmiyyətin maarifi onunla tərs mütənasib olsun və yaxud da yüksək

davranış mədəniyyətinə malik olan məktəb davranış mədəniyyəti səviyyəsi aşağı olan cəmiyyətdə meydana gəlsin.

Davranış mədəniyyəti nədir? Davranış mədəniyyəti özünü ünsiyyət prosesində təzahür etdirdiyi üçün ən əvvəl pedaqoji ünsiyyət probleminin özü elmi izahat və təhlilini tələb edir. Pedaqoji ünsiyyət–müəllimin şagirdlərlə peşə ünsiyyətidir. Müəllim öz biliyini, bacarığını ancaq ünsiyyət vasitəsilə şagirdə verə bilər. Pedaqoji ünsiyyət təlim-tərbiyə işinin qurulmasına və fəallaşdırılmasına, müəllim-şagird, şagird-şagird, məktəb-şagird münasibətlərinin yaxşılaşdırılmasına yönəldilir, müəllimin öz peşə ustalığının təkmilləşdirilməsinə xidmət edir. Pedaqoji ünsiyyət müəllimin şagirdlə yalnız biliyi, elmi ilə deyil, eyni zamanda baxışı, üz ifadəsi, səs tonu, emosiyaları, taktı, zahiri görkəmi və şəxsi nümunəsi vasitəsi ilə əlaqəsidir. Pedaqoji ünsiyyət təkcə müəllim-şagird ünsiyyəti ilə məhdudlaşmır. Şagird məktəbdən kənarda öz həmyaşıdları ilə böyük və kiçiklərlə ailədə valideynləri, qardaş və bacıları ilə gündəlik təmasda olur,müxtəlif işlərin içərisində iştirak edir. Eyni zamanda hər bir şagird bənzərsiz psixi və genoloji fərdiliyə malik olub müxtəlif ailələrin, mikromühitlərin xüsusiyyətlərini özündə cəmləşdirir. Məhz bu əlamətlərə görə pedaqoji ünsiyyət məzmunu, strukturu, forma və növləri nöqteyi-nəzərdən mürəkkəbdir.

Problem ilk dəfə sosial-psixologiyanın diqqətini özünə cəlb etdi. 60-cı illərdə sosiologiya, psixologiya və fəlsəfənin bir-birinə sürətlə yaxınlaşdığı bir dövrdə B.D.Parkinin "Sosoial psixologiya elm kimi" (1965) kitabı çapdan çıxdı. Kitabda ilk dəfə ünsiyyət sosial psixologiyanın konkret tədqiqat obyektinə çevrildi. Ünsiyyət dedikdə B.D.Parkin insanların qarşılıqlı psixi fəaliy-

yətlərini nəzərdə tutaraq onun formalarını göstərir. O, ünsiyyəti sırf psixoloji hadisə hesab edərək mürəkkəb və çoxşaxəli proses kimi eyni zamanda həm fərdlərin qarşılıqlı fəaliyyəti kimi, həm də informasiya mübadiləsi kimi adamların bir-birinə münasibətini, onların qarşılıqlı təsirini, müştərək duyğu, hiss, anlaşma prosesi olduğunu qeyd edir.

50-ci illərdə "davranış mədəniyyəti" kimi tədqiq edilən problem, 70-ci illərdən başlayaraq "şəxslərarası münasibət mədəniyyəti", sonra müxtəlif aspektlərdə, o cümlədən, pedaqoji aspektdə davranış mədəniyyəti kimi araşdırılır. V.A.Suxomlinskidən sonra bu sahə ilə Ş.A.Monaşvili, B.V.Buşelyova, K.M.Levitan, M.A.Çernişova məşğul olmağa başladılar.

Xarici ölkələrdən ABŞ, İngiltərə, İtaliya, Yaponiya, Çexoslavakiya davranış mədəniyyəti probleminə daha ciddi fikir verir. Bu sahə ilə eyni zamanda psixoterapevtlər, psixofizioloqlar da məşğul olur.

80-cı illərdə Azərbaycan SSR Maarif Nazirliyinin hazırladığı bütün tip təhsil müəssisələrində tərbiyəyə kompleks yanaşma proqramına ünsiyyət və davranış mədəniyyəti barədə bəzi elementlərin daxil edilməsi təqdirə layiqdir.

Proqramda dostluq, ədəb-ərkan, düzlük, ata-anaya hörmət, nitq mədəniyyəti, salamlaşmaq və xudahafizləşmək qaydaları, o cümlədən, tərbiyə işlərinin təşkil formaları, icra yeri, əsas icraçıları, icra metodları barədə məlumat verilir. Məktəbəqədər yaş dövründən tutmuş gənclik yaşı dövrünə qədər bütün mərhələlərdə davranış mədəniyyətinin formalaşdırılmasında yaş və psixi xüsusiyyətlər nəzərə alınır. Bu proqramda konkret tərbiyə sa-

həsi kimi olmasa da, davranış mədəniyyətinin bəzi nəzəri məsələlərinə toxunulur.

Tələbə gənclərdə davranış mədəniyyətinin formalaşması məzmun etibarilə mürəkkəb, formalaşma yollarına görə çoxşaxəlıdır. Davranış mədəniyyəti özlüyündə peşə mədəniyyəti və şəxsiyyətin mədəniyyəti olsa da o, tələbə gənclərlə davranış mədəniyyətinin formalaşmasına xidmət edir. Bu nöqteyi nəzərdən davranış mədəniyyətini təkcə müəllimlərə aid etmək bitərəflikdir. Tələbə gənclərin davranış mədəniyyəti pedaqoji davranış mədəniyyətinin nəticəsi, məhsulu kimi başa düşməlidir. Bundan əlavə gənclərin gündəlik təmasda olduğu ailə, ətraf mühit, asudə vaxtı mərkəzləri mövcuddur.

Davranış mədəniyyətinin formalaşması imkanları və istiqamətləri çoxdur. Biz onlardan tədqiqatn xarakterinə uyğun olaraq aşağıdakıların üzərində dayanmağı məqsədəuyğun hesab edirik.

1. Davranış mədəniyyətinin formalaşmasına müəllimin və onun şəxsi nümunəsindən təsiri (pedaqoji-psixoloji aspekt)
2. Konfliktlər və onların düzgün həllinin davranış mədəniyyətinin formalaşdırılmasında rolu (pedaqoji-psixoloji aspekt)
3. Yaş dövrlərinin, cinsi və fərdi xüsusliyyətlərinin nəzərə alınması (pedaqoji-psixoloji aspekt)
4. Davranış mədəniyyətinin formalaşdırılmasında ailənin imkanları və rolu
   ( pedaqoji-psixoloji aspekt)

Pedaqoji-psixoloji ədəbiyatda müəllimlər təsir dairələrinə görə 3 qrupa bölünür:

1. Birobrazlı pozitiv təsir edənlər. Onların təsiri sosial rolları, fəal həyat mövqeyi və şəxsi nümunələri ilə

güclüdür. Belə müəllimlərin tədris etdiyi fəndən şagirdlərin mənimsəmə faizi təxminən 4,1-dir.

2. Şagirdə neqativ təsir edənlər. Bu təsir də sosial rol və şəxsi nümunə ilə xarakterizə olunur. Tədris edilən fənnin orta qiyməti 3,2-dir.
3. İnversion təsirli müəllimlər. Belə müəllimlərin dərs apardığı sinifdə intizam zəif olur, şagirdlər pis oxuyurlar.

Müəllimin şəxsi nümunəsi dedikdə, ilk növbədə nümunənin psixoloji təsir imkanına diqqət yetirmək lazımdır. Bildiyimiz kimi, həqiqət müqayisədə meydana çıxır. Gənc üçün ən etibarlı müqayisə obyekti müəllim və valideynləridir. O, ətraf aləmdə gördüyü, müşahidə etdiyi, birbaşa və dolayısı yolla iştirakçısı olduğu hadisələri müəllimin və valideynlərinin timaslında qiymətləndirir. Xüsusi etik, əxlaqi, mənəvi, hüquq və davranış normaları, yaxşı və pis haqqında təsəvvürlər məhz nümunədən keçir.

Şəxsi nümunəyə davranış mədəniyyəti bucağından yanaşıldığına görə, müəllimin şəxsi mədəni, psixoloji və pedaqoji keyfiyyət və bacarıqları diqqət tələb edir. Bunlar təxminən aşağıdakılardır:

1. Müəllimin sözü ilə əməlinin vəhdəti
2. Ədalətlilik, humanizm, demokratizm
3. Pedaqoji takt
4. Sosial-persepsiya bacarığı-yəni üzdən oxuma
5. Anlama, psixi vəziyətin xarici görkəm əsasında müəyyən olunması
6. Qnostik bacarıq-yəni müəllimin öz fəaliyyətini təhlil etmə bacarığı

Humanizm, demokratiklik, ədalətlilik kimi keyfiyyətlər davranış mədəniyyətinin başlıca prinsipləridir. Pedaqoji fikrin inkişaf tarixində məktəb demokratiyası cə-

miyyətdəki demokratiyadan asılı olaraq daim diqqət mərkəzində olmuş, avtokratiklik zərərli iş stili kimi müntəzəm surətdə tənqidə məruz qalmışdır.

Tələbə gənclərdə davranış mədəniyyətinin formalaşmasının psixoloji və fəlsəfi mahiyyətini yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, bu problem hazırki dövrün məzmununa uyğun geniş araşdırmalar tələb edir. Fəlsəfə 70 il ərzində cəmiyyətin real inkişaf istiqamətlərini qabaqcadan vermək sahəsində ciddi qüsurlara yol verib. İnsanlararası münasibətlər hardasa kortəbii formalaşan, idarə olunmayan və zorla idarə olunmağa cəhd olunan bir prosesə çevrilib.

## Gənclərdə mədəni davranışın adətlərin genezisi

Bu gün gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsində məhz mənəvi dəyərlərimizə söykənməliyik. Hər hansı bir problemi tədqiq edərkən birinci növbədə onu milli mədəniyyətimizlə, adət-ənənələrimizlə, etnik-milli hisslərlə əlaqələndirməli və həmişə o tükənməz xəzinədən bəhrələnməliyik.

Bu gün biz gənclər milli-mənəvi dəyərlərimizdən daha geniş istifadə etməliyik, Azərbaycan Respublikasının sabiq prezidenti, ulu öndərimiz mərhum Heydər Əlirza oğlu Əliyevin milli-mənəvi dəyərlərimizi qorumaq haqqında 14 avqust 2001-ci il tarixli məlum bəyanatı bunu bir daha sübut etdi.

“Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi

yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdəndir

Hər bir xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərində istifadə edərək, xalqımızın mənəvi səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik."

Mədəni davranış gənclərin bir şəxsiyyət kimi formalaşmasında həlledici əhəmiyyətə malikdir. Azərbaycan xalqının müdrik insanları, qabaqcıl elm adamları, nənə və babalarımız bu qüdrətli tərbiyə vasitəsinə həmişə diqqət yetirmişlər.

Ulu babalarımızı istər yaşlı insanlara, istərsə də uşaqlara məsləhət görürlər ki, əxlaqi cəhətdən həya-abırlı olsunlar, münasibətə girdikləri adamları tanısınlar, qarşılıqlı güzəştə getməyi bacarsınlar.

Milli-mənəvi dəyərlərimizdə həya hissinə, insan ləyaqətinə, onun daxili aləminə, ətrafdakılara, özü-özünə münasibətinə aid ibrətamiz fikirlərdir. Bu əxlaqi güvənc yerimizdə tələbə gənclər sədaqətə, xeyirxahlığa çağırılır. Yetişməkdə olan gənc nəslimiz nə qədər abır-həyalı olsa, öz nəfsini idarə edə bilsə, başqalarına qarşı mərhəmətli olsa, o qədər də şəxsiyyətə çevrilər, öz məninə qovuşa bilər. Mənliyi olmayan cahil və tüfeyli gənc cəmiyyətə fayda verə bilməz. Ulu əcdadlarımız yaşlı və gənc nəsli mərdliyə,mübarizliyə,düşmənə nifrət etməyə, əyilməzliyə, qorxmazlığa çağırır. Gənc o zaman bütöv şəxsiyyət olar

ki, o, yaltaq, rəzil, qorxaq olmasın, mərd və əyilməz olsun. Düşməndən qorxmasın, Vətənin hər qarışı üçün mübarizə aparsın.

Gənc nəsil bir daha bilməlidir ki, onlar saf və ülvi əxlaqa, təmiz niyyətə malik olan Azərbaycan xalqının varisidirlər. Onlar bu adı daşımağa və yaşatmağa borcludurlar. Bunun üçünsə bu əxlaqi-mənəvi sərvətləri daim öyrənməli və gündəlik əməli işlərinə tətbiq etməlidirlər.

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan "Qurani Kərim" müsəlmanlığın dini-fəlsəfi, hüququ qaynağı olmaqla yanaşı, həm də çox mühüm bir ədəbi-tarixi salnaməsidir. Qurani Kərimdə insanın mənəvi təmizliyinə böyük qiymət verilir. İnsanlıq üçün xas olan bəşəri keyfiyyətlər göstərilir. Qurani Kərimi oxuduqca aydın olur ki, İslam dininin insanları Allaha inam gətirməyə çağırmasında da bir sirr vardır. İnsan gərək yaxşı əməlin sahibi olsun.Yaxşı əməlin sahibi olmaq isə sadəcə olaraq ibadət etməkdən ibarət deyilidir. Həmin müqəddəs kitabın Əl-Bəqərə surəsinin, 177 ayəsində deyilir ki, "Yaxşı əməl heç də (ibadət vaxtı) üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildi. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi kitablara) və peyğəmbərə inanan, Allaha məhəbbəti yolunda və ya mal-dövlətini çox sevməsinə baxmayaraq kasıblara, qohum əqrəbaya, yetimlərə, yoxsullara, dilənçilərə, pulu qurtarıb yolda qalanlara, müsafirlərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı səbr edənlərdir." Hər birimiz gənc olaraq buyurulanlara əməl etməli, milli mentalitetmizə, adət-ənənələrimizə sadiq qalmalı və onları qorumaliyiq.

Mədəni davranış yetişməkdə olan nəslin mədəni ideal və prinsiplərinə uyğun mədəni davranışın formalaşdırılması üzrə məqsədyönlü bir prosesdir. Mədəni davranış gənc tələbənin şəxiyyətinə kompleks yanaşmanın tərkib hissələrindən biridir. İ.M.Xarlamov yazır: “Mədəni davranışın formalaşdırılması mədəni normaların, qaydaların və tələbə gənclərin biliklərinə, vərdişlərinə və adətlərinə çevrilməsi və onlara əməl olunması deməkdir.” Mədəni davranışın əsas funksiyası tələbə gənclərə müasir həyat tərzinə uyğun yüksək davranış mədəniyyəti, mədəni hisslərini formalaşdırmaqdan, öz davranışlarında və münasibətlərində davranış mədəniyyətini rəhbər tutmaq vərdişlərini aşılamaqdan ibarətdir.

Bütövlükdə mədəni davranış, müxtəlif və çoxsaylı davranış normalarına riayət olunması, insanların arasındakı davranış və münasibətlə əlaqədar müxtəlif qanunauyğunluqlar adamlarda müəyyən mədəni ideyalar, təsəvvürlər, hisslər, əhval-ruhiyyələr, vərdişlər və s. doğurur ki, onların da məcmusuna mədəni davranış deyilir. Mədəni davranış müəyyən cəmiyyətdə insanların bir-birinə, əmək kolllektivinə, dövlətə, millətə və bütövlükdə cəmiyyətə münasibətdə əldə etdikləri davranış normaları, hərəkətlər, vərdişlər, mənəvi ideya və hisslərin xüsusi sistemi, mənəvi təcəssümüdür. Tələbə gənclərin mədəni davranışında ictimai təcrübə öz əksini tapır: mədəni ideyalar, nəzəriyyələr, anlayışlar tələbə gənclərin mədəni davranış prosesində təşəkkül tapan real münasibətləri ifadə edir. Mədəni davranışın inkişafı mədəni davranışın normaları, prinsipləri haqqında biliklərin inkişafını nəzərdə tutur.

Tələbə gəncin gerçəkliyə, öz şəxsi davranışına münasibətini ifadə edən ilk növbədə mədəni hisslərdir. Tələbə gəncin mədəni şüurunda bu hisslər mədəni anla-

yışlarla üzvi vəhdətdə olmaqla, mədəniyyət və davranış anlayışlarının sintezini kəsb edir. Tələbə gəncin mədəni davranışının formalaşdırılmasında mədəni hisslər mühüm rol oynayır.

Gənclik dövrü əksər psixoloqlar tərəfindən (L.İ.Bojoviç, D.B.Feldşteyn) adaptasiya yox, sosiallaşma mərhələsinə aid edilir. Cəmiyyətin həyatında baş verən müsbət və mənfi hadisələr, insanlar arasındakı qarşılıqlı münasibətlər, bu və ya digər davranış üsulunun sərbəst seçimi haqqında biliklər fəal olaraq məhz bu yaş dövründə toplanılır. Bu mədəni davranış normalarının tələbə gəncin həyatının bütün tərəflərində hakimlik etdiyi bir dövrdür.

Tələbə gənclərin böyüklərlə davranışı formalaşmaqda olan hörmət hissində öz ifadəsini tapır. Tələbə gənclərin mədəni davranışlarının inkişafında bir-biri ilə bağlı olan üç tərəfi qeyd etmək olar. Bu, birincisi, davranışın məqsədyönlü xarakter almasıdır, ikincisi, davranışın məqsədi ilə onların motivləri arasında münasibətlərin qurulmasıdır, üçüncüsü, davranış mədəniyyətinə riayət olunmasında nitqin tənzimləyici rolunun artmasıdır. Düzgün tərbiyə olunan gəncdə öz davranışında mədəni motivləri rəhbər tutaraq bacarığı inkişaf edir ki, bu da tələbə gəncin mədəni yönəlişliyinin əsaslarını qərarlaşmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, motiv hələ hərəkət deyil. Motiv fəaliyyətə təhrik edən səbəbdir. Motivlərin hansısa hərəkətə reallaşması üçün müvafiq mədəni davranış üsullarına və formalarına da yiyələnmək lazımdır. Əks halda motivlər yaxşı olsa da, davranış pis ola bilir.

Davranış motivlərinin inkişafında uşağın başqa insanlara münasibətlərini ifadə edən mədəni motivlər xüsusi əhəmiyyətə malikdir. Gənclərdə mədəni davranış

ona bilavasitə aidiyyatı olmayan geniş insanlar dairəsinə də şamil olunmağa başlayır. Bu, onunla izah olunur ki, tələbə gənclər mədəni davranış forma və qaydaların,onların məcburiliyini, əhəmiyyətini dərk edir.

Mədəni davranış motivləri arasında ictimai motivlər, yəni başqa insanlar üçün nə isə etmək, onlara xeyir vermək arzusu xüsusi yer tutur. Tələbə gənclər çox vaxt situasiyanı dərindən dərk etmək iqtidarında olmur ki, bu da qərarların təsadüfi verilməsinə səbəb olur. Seçim, davranış kütlə psixologiyasının, təsadüfi xarici amillərin təsiri altında həyata keçirilə bilir. Tələbə gənclərin getdikcə daha müstəqil olması, öz davranışını dərk etməsi mənimsənilmiş mədəni davranış normalarını rəhbər tutmaq qabiliyyətinin inkişafına şərait yaradır. Tələbə gənclərin mədəni davranışını şərtləndirən daxili "etik stansiyalar" meydana gəlir. Dərs məşğələlərində gənclər dərsdə davranış qaydalarına yiyələnir, onlarda məqsədyönlülük, məsuliyyətlilik, iradə keyfiyətləri formalaşır. Böyüklərlə və həmyaşıdları ilə qarşılıqlı münasibətlər prosesində tələbə gənclərdə yeni keyfiyyətlər meydana gəlməyə başlayır. Böyüyün nüfuzu, onun mühakimələri davranışda ciddi rol oynayır.

Tələbə gənclərin əxlaqi davanışının formalaşdırılması bir çox hallarda onların yaşadıqları subyektiv məkanın xarakterindən asılı olur. Deməli, bu işdə ailənin rolu olduqca böyükdür. Tələbə gəncin mədəni davranışının formalaşmasında ətraf mühitin rolu çox böyük olsa da onun qarşılaşdığı ilk tərbiyəalma sistemi - ailədir. Anton Semyonoviç Makarenkoya görə, ilk öncə uşaq sağlam mühitdə doğulmalıdır. Yəni, ailənin özünün formalaşmış ailə normaları, ailə rolları olmalıdır. Ata – ananın övlada münasibəti, öz aralarında və digər insanlarla

davranışlarının gənc tərəfindən qeydə alındığını və onun təmiz beyində fiksə olunduğunu (həkk olunduğunu) nəzərə almaq lazımdır. Valideynlərin hər birinin hərəkətini özlərinə örnək götürən gənc onların bütün davranış tərzlərini mənimsəyir. Sokratdan "Nə üçün çox vaxt gənclərlə həmsöhbət olursan?" sualına o, "Ona görə ki, nazik və tər budaqları düzəltmək daha asandır, təravəti getmiş, qurumuş ağacı düzəltmək isə mümkün deyildir" deyə cavab vermişdir. Yəni, gənclərdə pis adətlərə, bəd əməllərə nifrət, əksinə, xeyir işlərə rəğbət yaratmaq və onları yerinə yetirməyə təhrik etmək lazımdır.

Tələbə gənclərdə məsuliyyət və kimlik hissinin qazanılmasında diqqət edilsə bir neçə nöqtələr vardır:

1. Tələbə gəncləri öz öhdəlikləri ilə baş – başa buraxmaq, Məsələn əlindən gəldiyi qədər öz otağını özünün yığışdırmasını təmin etməli;

2. Köməyə ehtiyacı olduğu zaman dəstəyə və yardıma açıq olduğunuzu ifadə edin. Lakin problemi necə həll etməsini söyləmək lazım deyil. Onu problemlə başlı-başına buraxmalı. İmkan verməli ki, sizdən yardım və məsləhət istəsin. Beləcə, çətinə, dara düşdükdə sual verməyi və dərdini sizinlə bölüşməyi öyrənmiş olacaqdır;

3. Tələbə gəncləri yaşlarına uyğun məsliyyət və öhdəliklərə yükləməli;

4. Seçmə etmə azadlığı yaradılmalı. Məsələn, gəzməyə gedərkən nə geyinəcəyinə, nə içəcəyinə qərar verməsinə imkan yaradılmalıdır.

Etdiyi bütün müsbət davranışların ilk öncə yaxın çevrəsi olan valideynləri, sonra da digərləri tərəfindən rəğbətlə qarşılandığını görən gənc, bu hərəkətləri təqdirəlayiq bilərək təkrarlamağa çalışacaq və nəticədə bu keyfiyyətlər onda vərdiş halına keçəcək. Ona görə də

tələbə gəncin hər bir müsbət davranışına valideynin "əhsən", "afərin" deyə münasibət bildirməsi və dəstəkləməsi çox vacibdir. Əks hallar baş verdikdə çox danlayıb hər şeyi qadağan etməkdən də çəkinmək lazımdır. Bu, tələbə gənci acığa düşüb həmin işi bir də görməyə sövq edər, onu nəsihətə qulaq asmaqdan bezdirər.

Ailənin tələbə gənclərdə davranış mədəniyyətini formalaşdırmaq sahəsində imkanı böyükdür. Əvvələn, valideynlər bu işin əsas təşkilatçısı, istiqamətvericisi kimi çıxış edirlər. Elə bir valideyn tapmaq olmaz ki, övladının nə işlə məşğul olması, hara getməsi ilə marağlanmasın, ona məsləhətlər verib, xüsusi qadağanlar qoymasın. Müəllimə nisbətən ata-ana öz övladlarının psixoloji, fərdi, genoloji xüsusiyyətlərini daha yaxşı bilirlər. Uşağın psixoloji quruluşu ailədə qurulur və məktəbdə müvəffəqiyyətli davranış mədəniyyəti bu amildən asılılığı böyükdür. Valideynlərin çox vaxt gənclərin "zəif damarı" adlandırdığı məhz bu qurumdur ki, onun məzmunu barədə ailə tədris müəssisələrinə nisbətən daha geniş məlumata malikdir.

Ümumiyyətlə, tədris müəssisələrində tələbə gənclərin davranış mədəniyyətin tənzimlənməsi ailədən çox asılıdır. Əgər ailədə övlad-valideyn münasibəti korlanıbsa bu hökmən tələbə gəncin davranışında özünü biruzə verəcək. Ailədə cansıxıcı həyat keçirən gənc, yoldaşları ilə yola getmir, fikirli, tutuqun gəzərək, tənhalığa can atır – bir sözlə, qapalı həyat keçirməyi üstün tutur.

Valideynlər çox vaxt övladlarının reaksiyalarına diqqət yetirmədən əmr və göstəriş verməklə münasibət qurmağa çalışırlar. Bu zaman tənbeh, xəbərdarlıq, ittiham kimi ünsiyyətə əngəl olan cəhətləri nəzərə almırlar.

Belə vəziyyətdə övlad elə hiss edir ki, onu duymurlar, anlamırlar, ona qarşı laqeyddirlər. Bu qənaətlə də yaxınları ilə əlaqəni kəsir. Deyilən fikir həmişə nəzərdə tutulduğu kimi anlaşılmır. Tez-tez yalnış anlamalar ola bilir. Məsələn, ata oğluna danışmaq fürsəti vermək və ya fikirlərini öyrənmək niyyəti ilə yad bir adamın yanında ondan nə isə soruşur. Ancaq oğlu cavab vermir və sıxılır, atasının məqsədini başa düşmədiyi üçün elə bilir ki, atası onun bilmədiyini üzə çıxarmaq məqsədi ilə sual verir. Beləcə, övlad atasının duyğu və düşüncələrini anlamadığı üçün onun məqsədini də yalnış anlayır. Belə yanaşma ata-oğul münasibətlərinin səmərəsiz olması ilə nəticələnir.

Münasibətin möhkəm olması üçün böyüklər təmənnasız sevgi, hörmət göstərməli, duyğusal olmalı və uşağı məhz uşaq kimi, yeniyetməni məhz yeniyetmə kimi, gənci məhz gənc kimi qəbul etməyi bacarmalıdırlar.

Deyilən fikirlə anlaşılan söz arasında fərq böyükdür.Böyüyün nə dediyindən çox, gəncin nə anladığı əhəmiyyətlidir.

Alınan və ötürülən fikirlər (Naqis davranış)

1. “Ailənə qarşı hörmət göstərmək çox çətindir, hə?” Ötürülən fikir: sən çox laqeyd, diqqətsizsən. Nəticə: günahlandırma;

2. “Bircə dəfə də olsa, düz yol seç”. Ötürülən fikir: sən tənbəlsən, düzgün yol tutacağına inana bilmirəm. Nəticə: utandırma, alçaltma;

3. “Heyrətə gəldim. Lap evdəki kimi eləmisən”. Ötürülən fikir: Sənin təkbaşına bir işi görəcəyinə inanmıram. Nəticə: utandırma, alçaltma, təcrid etmə

4. “Hər ailədə sənin kimi belə “ağıldan iti” gənclər var”. Ötürülən fikir: sən dəyərsizsən, kütbeyinsən, qəbul

edilə bilməzsən və s. Nəticə: rəddetmə, kiçiltmə, utandırma, özünə qarşı inamı qırma.

Münasibət qurarkən ötürdüyümüz fikir gəncin mənliyinə deyil, xarakterinə yönəlməlidir. Ruhu öldürən deyil, cəsarəti artıran təsirlər edilməlidir. Ona görə də, ifadələrimizi və üslubumuzu bir az dəyişdirsək daha yaxşı olar:

1. “Gözümün işığı, bizə qarşı daha da diqqətli ola bilərsənmi?”

Deyilən söz: ananın səndən daha çox hörmət, diqqət gözləməyə haqqı var.

Nəticə: ailəmizə qarşıdaha diqqətli olmalıyam;

2. “İstəsən, bu məsələdə daha düzgün yol seçə bilərsən”.

Deyilən söz: sənin daha düzgün yol seçməyinə inanıram.

Nəticə: cəsarətləndirmə, güvənmə;

3. “Çox gözəl, bax görürsən, işini təkbaşına görə bilərsən.”

Deyilən söz : İstəsən başqasının köməyi olmadan da bu işi görə bilərsən.

Nəticə: cəsarət, həvəs, güvənc;

4. “Həmişə istədiyin kimi alınmaya bilər”

Deyilən söz: Səhv edə bilərsən və buna da hazır olmaq, ruhdan düşmək lazım deyil.

Nəticə: daha da çox çalışmalı, özümü bir daha sınamalıyam.

Valideynın gənc övladı ilə davranışında ən təsirli vasitə dinləmə hesab olunur. Bir adamın qəlbinə yo tapmağın ən qısa yolu onunla danışmaqdır, ona qarşı diqqət yetirildiyini hiss etdirməkdir. Övladlarını dinləməklə

onların duyğu, düşüncə və həyəcanlarını lazımi istiqamətə yönəldə bilərsiniz.

Valideynlərin gənc övladlarını dinləməsi onların nüfuz və hörmətinə xələl gətirməz, əksinə, daha da möhkəmləndirər. Ailədə qarşı tərəfi başa düşmək qarşılıqlı anlaşmaya səbəb olur. Sevgi, sevinc, kədər bölüşdürülərsə, ailədə sədaqət hökm sürər. Özünü başqasının yerinə qoyma anlayışını (empatik yanaşma ilə) mənimsəyən ailə üzvlərinin bir-birini dinləmələri problemlərin həllini asanlaşdırır.

Əgər ailədə anlaşma yoxdursa-məxfilik, ədalət yoxdursa-qısqanma, bölüşmə-paylaşma yoxdursa –mənəm-mənəmlik, qəbuletmə yoxdursa-çəkişmə və ziddiyyət ortaya çıxa bilər.

Bunu da qeyd etməliyik ki, valideynlər gənc övladları dinləyərkən hansı səhvlərə yol verə bilər?

Öyüd vermə: Elə eləmə, belə et;

İstiqamətləndirmə: Dərd çəkməkdənsə, otur dərs oxu;

Günahlandırma: Sən, onsuz da həmişə asana qaçırsan;

Tənqid etmə: Bu qədər bəsit məsələni balaca uşaq da həll edə bilər.Özünü lap uşaq kimi aparırsan;

Ad qoyma: Şüursuz, bacarıqsız, axmaq!

Sual vermə: Niyə? Nə üçün?

Araşdırma: O, sənə nə dedi? Niyə bu qədər çox danışırsan? Kim əvvəl dedi?

Diaqnoz: Əslində belə demək istəmirsən...

Onun yerinə düşünmək: Mən, əslində sənin niyə belə elədiyini bilmirəm;

Təhlil etmə: Onunla danışmaqda başqa niyyətin var.Əslində, sənin dərdin başqadır;

Təsəlli vermə: Fikir vermə, düzələr, boş şeydir;

Mövzunu dəyişdirmə: Başqa şeylərdən danışaq.

Bu deyilənlər gəncin əsassız bəhanələrlə müdafiəyə keçməsinə, haqsızlıqla qarşılaşdığını his etməsinə, əsəbiləşməsinə, müqavimət göstərməsinə, başa düşülməməsinə və b. duyğulara qapılmasına səbəb ola bilər.

Əslində, gəncin əvvəlcə dinlənilməyə və qəbul edilməyə ehtiyacı var. Valideylər öz düşüncələrinə görə nəticə çıxarmaqdansa, gəncləri sakitcə dinləsələr, onların müəyyən qədər məmnun olduqlarını duya bilərlər.

Gənci dinləməklə birgə çıxış yolları axtarılarsa, onun özünə "özünü kəşf" etməsinə imkan verilər. Onun üçün qəbul edildiyini, anlaşıldığını, qeyd-şərtsiz sevildiyini bilən bir adamla əlaqə qurmaq çətin olmaz. Başqa sözlə, problemlər üsyana, davaya, əlacsızlığa çevrilmədən asanlıqla həll edilə bilər.

Ailədə şəfqət əsas olmalıdır. Şəfqət uşağın anasının üzündə oxuduğu, sinəsində tapdığı, atasının qucağında hiss etdiyi irsi əlaqədir. Valideynlər bunu verə bilmədikləri təqdirdə uşağı heç bir "nağıllar aləmi" ilə təmin edə bilməzlər. Bu baxımdan, ailədə həm ana, həm də ata uşaqlarının daxili dünyasının mənəvi qidalanmasına diqqət yetirilməlidir.

Tələbə gənclərin davranış mədəniyyətinə xüsusi insani keyfiyyət kimi baxılır. Davranış mədəniyyətinin formalaşmasında cinsi və fiziki fərqlərin nəzərə alınması başlıca şərtdir. Oğlan və qızların müxtəlif yaş dövründə davranış mədəniyyətinə tələbatı bir-birindən fərqlənir, fiziki inkişafın rəngarəngliyi, normal ya anomallığı, isə davranış mədəniyyətinə öz təsirini göstərir.

Davranış mədəniyyəti tələbə gəncə elə öyrədilməlidir ki, rəftar və münasibətdə də gözəl olsun. O, özü

haqqında mümükün qədər az danışısn, başqalarının xətrinə dəyən söz deməsin, yoldaşları ilə şit zarafat etməsin. Bundan əlavə o, evə qonağ gələndə ayağa dursun, başqa evə qonağ getdikdə əyləşməyə tələsməsin. Yaxud avtobusda, metroda, küçədə və ictimai yerlərdə ucadan danışmasın, başqlarına qayğıkeşlik göstərsin, salamlaşarkən artıq hərəkətlərə yol verməsin (böyüklə salamlaşarkən əl uzatmasın). Bir sözlə gənclərə elə davranış mədəniyyəti öyrdəilməlidir ki, ailədə, qonaqlıqda və s. kimi ictimai yerlərdə nəzarət qaydalarından kənara çıxmasın, insan ləyaqətini alçaldan hərəkətlər (sırtıqlıq, acgözlük, kobudluq, ədəbsizlik və s.) etməsin.

Davranış mədəniyyətinin tərbiyəsində nümunə mühüm rol oynayır. Çünki gənc göz açarkən ətraf aləmi dərk edərkən birinci növbədə yaşlıların hərəkət və davranışlarını görür və ondan öyrənir. Yaşlıların nümunəsi həmişə insan həyatımda mühüm rol oynamışdır. Tələbə gənclərin davranış mədəniyyətinin formalaşmasına optimal şərait yaratmaq, onlarla işin müvəffəqiyyətlə aparılmasını təmin etmək üçün onları təbii şəkildə öyrənmək lazımdır. Proqramlaşdırılmış, standart şəraitdə tələbə gəncləri öyrənmək faydasızdır.

İ.P.Pavlov dediyinə görə, ikinci siqnal sistemi “insan davranışının yüksək tənzimləyicisidir”.(51.səh17)Davranış mədəniyyətinin tərbiyəsində rəğbətləndirmədən, tərifləməkdən və pis hərəkətləri məzəmmətləməkdən geniş istifadə olunur. Tələbə gənclərin davranışını qiymətləndirən yaxşıdır, pisdir sözləri onlara böyük təsir göstərir. Bəzi hərəkətləri müzakirə etmək üçün kiçik söhbətlər aparmaq olar. Belə söhbətlərdə onlarda özünün hərəkətlərinə müstəqil qiymət verməyi inkişaf etdirməyə kömək

edir. Mədəni davranmaq, öz davranışında gözəllik yaratmaq və söhbətlər keçirmək olar.

Davranış mədəniyyətinin tərbiyəsində bədii əsərlərin rolu çox böyükdür. Çünki bədii əsər insan qəlbini həyəcana gətirir, lakin bədii əsər də xüsusi şəkildə təqdim olunmalıdır. Davranış mədəniyyətinin aşılanmasında kitabların, bədii sözün təsiri xüsusilə böyükdür. Kitab yalnız düşünmə qabiliyyətini deyil, həm də davranışa mühüm təsir göstərir. Bədii əsər dinləyərkən orada təsvir olunan obrazları, faktları, hadisələri təsəvvürlərində canlandırırlar. Onlar təhlil etməyi, nəticə çıxarmağı,yaxşı hərəkətləri qiymətləndirməyi öyrənirlər. Nəticədə, tələbə gənclərdə mədəni davranış tərbiyəsi öz əksini tapır.

Tələbə gənclərdə davanış mədəniyyətinin tərbiyə edilməsində davranış normalarının və qaydalarının böyük əhəmiyyəti vardır. Davranış qaydaları böyüklərə, şeylərə, ictimai yerlərdə və gündəlikn əyatda onların davranışını müəyyən edir. Davranış mədəniyyəti qaydalarını yerinə yetirməyi öyrətməkdə müxtəlif üsullardan: qaydaların izah edilməsi, şəxsi nümunəsi və yoldaşlarının nümunəsi, nəzarət və kömək, yadasalma, mükafatlandırma, məzəmmət və s.istifadə edilir.

Davranış mədəniyyəti məzmun etibarilə mürəkkəb, formalaşma yollarına görə çoxşaxəlidir. Davranış mədəniyyəti özlüyündə peşə mədəniyyətu və şəxsiyyətin mədəniyyəti olsa da o, tələbə gənclərdə davranış mədəniyyətinin formalaşmasına xidmət edir.

Tələbə gənclərin davranış mədəniyyətinin formalaşması imkanları və istiqamətləri çoxdur. Biz onlardan tədqiqatın xarakterinə uyğun olaraq aşağıdakıların üzərində dayanmağı məqsədəuyğun hesab edirik.

1. Davranış mədəniyyətinin formalaşmasına müəllimin və onun şəxsi nümunəsinin təsiri (pedaqoji-psixoloji aspekt)

2. Konfliktlər və onların düzgün həllinin davranış mədəniyyətinin formalaşdırılmasında rolu (pedaqoji-psixoloji aspekt)

3. Davranış mədəniyyətinin formalaşdırılmasında ailənin imkanları və rolu (pedaqoji – psixoloji aspekt)

4. Yaş dövrlərinin,cinsi və fərdi xüsusiyyətlərinin nəzərə alınması (pedaqoji-psixoloji aspekt)

Müəlimin şəxsi nümunəsi dedikdə, ilk növbədə nümunənin psixoloji təsir imkanına diqqət yetirmək lazımdır. Bildiyimiz kimi, həqiqət müqayisədə meydana çıxır. Tələbə gənc üçün ən etibarlı müqayisə obyekti müəllim və valideynləridir. O, ətraf aləmdə gördüyü, müşahidə etdiyi, birbaşa və ya dolayısı yolla iştirakçısı olduğu hadisələri müəllimin və valideylərinin timsalında qiymətləndirir. Xüsusi etik, əxlaqi, mənəvi, hüquq və davranış normaları, yaxşı və pis haqqında təsəvvürlər məhz nümunədən keçir.

Müəllim təkcə biliyi, danışığı, nitqi ilə təsir etmir. O, eyni zamanda baxışı, hərəkətləri ilə şagirdlə münasibətə girir, əlaqə yaradır. Hər bir adamda fərdi etiket və ədəb qaydaları formalaşır. Məsələn, bəzi müəllimlər salamı bərkdən, bəziləri isə astadan verir, bəziləri isə sadəcə olaraq başlarını tərpədir. Beləliklə, tələbə müəllimin davranış mədəniyyətinə uyğunlaşır.

## Mədəni davranış və adətlər haqqında aqillərin fikirləri

Ulularımız həmişə gənclərin zəkasına, ağlına, mənəvi inkişafına yükəsk qiymət vermişlər. Çünki ağıllı, təmkinli, tərbiyəli, sadə və nəzakətli gənc həyatda qorxulu olmur. Ağıl, təfəkkür sahibləri sadə və təvazökar olurlar. Müstəqillik, hadisələrə tənqidi münasibət bəsləmək, problemli situsiyalardan baş çıxarmaq yüksək mədəni davranışa, yüksək intellektə sahib olan insanlara xasdır. Ulularımız daim gəncləri ləyaqətə, təmizliyə, təvazökarlığa, xeyirxahlığa, əxlaqi gözəlliyə, hörmət və dostluq hisslərinə, kamil şəxsiyyət olmağa səsləmişlər. Mədəni davranış geniş anlayışıdır. Buraya səmimilik, alicənablıq, təvəzökarlıq, səxavət, ədalət, düzlük, doğruluq, qürur, sadəlik, hörmətcillik, dostluq və yoldaşlığı, xeyirxahlığı, humanizm, vətənə, anaya, ailəyə sonsuz sədaqəti, təmiz və pak vicdan, ləyaqət, məsuliyyət, yaxşılıq, hörmət, kömək, milli qürur, torpağa, elə-obaya bağlılığı, vətənpərvərlik və s. daxildir. Məsələnin şərhinə keçməzdən problemlə bağlı davranış və adətlər haqqında qısa məlumat vermək məqsədəuyğun saydıq. Davranış insanın hərəkət, iş və rəftarın məcmuundan ibarətdir. Adətlər isə insanların fəaliyyətinin tərkibinə daxil olan hərəkət və rəftarlarının müəyyən bir hissəsinin avtomatlaşmasıdır. Davranış normaları cəmiyyətdə təşəkkül edərək, insanların cəmiyyətdəki vəzifələrini və bir-birinə münasibətlərini nəzərdə tutur. Milli mənəvi dəyərlər, vərdiş, davranış və adətlər bir-biri ilə vəhdət təşkil edir, yaxşı olar ki, hər bir əxlaqi, sosial davranışı adət halını alsın. Çünki, adət uzun müddət davam edən bir prosesdir.

Gənclərdə özünü göstərən mədəni davranış və adətlər müsbət və mənfi vərdişlər, uşaq yaşlarından ailədə,

müxtəlif tipli qruplarda, bağçada, məktəbdə təşəkkül tapıb inkişaf edir. Uşaqlar kiçik yaşlarından inciyirsə, geyiminə, yerişinə, duruşuna fikir vermirsə, valideyn də buna əhəmiyyət vermirsə, belə hərəkətlər vərdiş halını alır, adətə çevrilir və gənc yaşlarında da özünü göstərir. Vərdiş və adətlər nədir və psixoloji kateqoriyaların qarşılıqlı əlaqəsi necədir və davranış qaydalarının formalaşmasında nə kimi funksiyaya malikdir?

Vərdişlər fəaliyyətin tərkibinə daxil olan bir çox hərəkətlərin təkrarlar nəticəsində avtomatlaşmalıdır. Adətlər təxminən belə bir xüsusiyyətə malikdir. Fərq isə odur ki, vərdiş öz-özünə yox müəyyən bir məqsəd əsasında yaranıb, müəyyən bir müddətdə, lazım olmayan vaxtda sönür. Adət isə bir çox hallarda öz-özünə yaranır, uzun müddət davam edir, vərdişlərə nisbətən davamlı xarakter daşıyır.

“Adət... insanın öz qiymətli qüvvəsini – şüurlu iradi qüvvəsini, getdikcə daha səmərələi işlətmək və öz həyatının əxlaqi binasını, hər dəfə bu binanın təməlindən başlamadan və artıq bir dəfə qalib gəlmiş oduğu çətinliklərlə mübarizəyə öz şüuru və iradəsini sərf etmədən tikmək imkanı verir. Misal üçün bu sadə adətlərdən birinin – öz şeylərini və öz vaxtını səliqə və intizamla bölüşdürmək adətini götürək... bu cür adət insanın nə qədər qüvvə və vaxtını mühavizə edir” 8 səh.103. Ona görə də gənclərdə formalaşdırmaq,  istədiyimiz davranışı adət halına salmaq daha yaxşı olar. Düzgün danışmaq, yaxşılıq etmək, sadə və təvazükar olmaq, özünənəzarət, özünüdərk, özünüqiymətləndirmə, səmimilik, mütaliə, idman etmək, vaxtı düzgün bölmək, səliqəli olamq, başqasının sözünü kəsməmək, onu axıra qədər dinləmək, səbirli olmaq, milli kökə, Vətənə, xalqa, dövlətə sadiqlik, dosta, yoldaşa,

ailəyə sədaqət və s. kimi əxlaqi, sosial keyfiyyətlər adət halına düşsə daha yaxşı olar. Gənclərin mənəvi təkamülündə, onun bir şəxsiyyət kimi inkişafında adət və vərdişlərin rolu tarixi şəxsiyyətləri, ədib və mütəffəkkirləri düşündürmüş və əsərlərində bu psixoloji keyfiyyətə, yüksək qiymət vermişlər. Bu mütəfəkkirlərdən biridə Nizami Gəncəvidir. Nizami Gəncəvi "Xəmsə"sində insanların daxili, psixoloji xüsusiyyətlərini göstərməklə yanaşı, onların qanunauyğunların açır, diqqəti həmin psixoloji çalarlara yönəldir.

Nizami əsərlərində qüdrətli psixoloq kimi çıxı. edir. O, dolayı yolla insanların daxili potensial imkanlaından danışır. O, göstərmək istəyir ki, xüsusilə gənclər istədiyi məqsədə çatmaq üçün, daxili potensioal imkanlarının üzə çıxarmağı bacarmalı və onalar mədəni davranışlarını adət şəkilində adətlər şəkilndə inkişaf etdirməlidir. Nizami Gəncəvinin həmin dövürdə dediyi vərdiş və adətlər haqqında dediyi fikirlər bu günün reallığı kimi səslənir. Müasir gənclər də insanlıq dərəcəsinə ucalmaqda, lazım olan davranış qaydalarının adət halına salsalar daha faydalı olar və onların əxlaqi düşüncə tərzlərinə kömək etmiş olar.

900 ilə yaxın dövr bundan əvvəl dahi mütəfəkkirin insanların xüsusi ilə əxlaqi davranışlardan (təfəkkür, duyğu, duyğu, hiss, adətlər, vərdişlər və s.) dolayısı yox, birbaşa qeyd olunması çox ibratamiz hal almaqla yanaşı həmin dövürdə psixoloji düşüncəsi olmasından xəbər verir.

Nizami "Yeddi gözəl"də "Bəhramın öz kənizi ilə məcarası" hekayəsində vərdiş və alətləin formalaşması prosesini təhlil etmişdir. Biz onun müəyyən etdiyi faktları obrazlı şəkildə təfəkkür axarında Fitnə effekti adlandırırıq. Bu fakt Azərbaycan psixologiyasının dünya psixolo-

giyasının qızıl fondunu zənginləşdirən tutumlu effektlərdən biridir.

Bu psixoloji mahiyyəti nədən ibarətdir? Bəhram şah ova gedəndə sevimli kənizi Fitnəni də özü ilə aparır. Qısaca olsa da diqqət yetirək.

Fitnənin baxışları "məxmurdu", "gözləri durğundu". "Üzü "cənnət baharı tək şəndi", yerişi "taxılın üstündən əsən və üzləri oxşayan yelə oxşardı". "Bütün hüsnü ilə bir nəğməzəndi", "dilbər rəqqasəydi, mahir süzəndə". "Şah ona vurğundu, o, şaha vurğun".

O bütün hüsnüylə bir nəğməzəndi,
Dilbər rəqqasəydi, mahir süzəndi.
Etsəydi səsini kamançaya tuş,
Vurulub düşərdi göydən uçan quş
Şah onu dinlərdi ovda, işrətdə
Keçərdi dəmləri istirahətdə.
Fitnə cəng çalardı, şah gur vurardı,
Bu ovlar, o isə busat qurardı...
Ansızım büründü toza düzəngah,
Sıçratdı atını ov üstünə şah.
Özünü gurların səmtinə sladı,
Qızğın şirlər kimi ox kaman aldı. (71, səh. 91)

Bəhram Fitnənin gözü qarşısında "qızğın şirlər kimi ox – kaman" atıb göstərirdi. Əslində bu faktın özü sosial – psixoloji baxımdan əlamətdardır. Ovda başqa adamın, xüsusilə qarının iştirak etməsi, görəsən, onun nəticəsinə təsir göstərirmi? Nizami suala əsaslı surətdə müsbət cavab verirdi.

Nizami Gəncəvi prosesi də gərginləşdirir. Vərdiş və adətlərin gənclərin mənəviyyatında, onların davranışla-

rında rolunu əyani göstərmək istəyir. Şah ovçuluq şərtlərinin Fitnə tərəfindən onun bu şücaətinə dodaq büzərək dedi:

Qaravaş-hiyləgar, ədalı Fitnə
Göz yumdu padişahın şücaətinə.
Hökümdür bir saat səbr etdi, baxdı,
Ta uzaqdan bir gur qaçmağın qalxdı.
Şah dedi: "Söylə bir tatargözlü, sən,
Almayırsan ovu gözünə nədən?
Belə bir ovçuluq sığışmaz sözə,
Girməz, əlbəttə ki, elə dar gözə,
Bax, o gur çaparaq gəlir uzaqdan,
Harasından vurum, başdan, dırnaqdan?"
Şəkər dodaqlıqda çoxdu kibrü-naz,
Qadındı, qadınlar olur boşboğaz,
Dedi: "İnanaram qüdrətinə mən,
Onun dırnağını başına tiksən".

Şah Fitnənin bu azusunu da yerinə yetirir:

Şah gördü naz edir inadkar gözəl,
Onun istəyinə eylədi əməl.
Əvvəlcə istədi küruhə - kaman,
Içinə girdi daş qoyaraq hamam,
Atdı, qulağına saldı şikarın,
Elə bil aldı canını aldı şikarın.
Yazıq gur qaldır tez ayağını,
Qurtarsın xətərdən öz qulağını.
Şahın ildırıma döndü peykanı,
Nura qərq eylədi bütün dünyanı,

Bu mənzərəni seyr edən Fitnə yenə şahın bu hünərlərini adətlə, vərdişlə bağlayır.

Fitnə şaha üzünü tutub deyir:
Söylədi: " Şah buna etmişdir adət,
Sayılmaz heç yerdə adət məharət.
Insan etsə əgər bir işə vərdiş,
Çətin olsa belə, görülər bu iş.
Zənn etmə əməlin şücaətdəndir,
Güclülükdən deyil, bu adətdəndir". (71)

Şaha Fitnənin bu cavabı ağır gəldi. O, hətta Fitnəni cəzalandırmaq istədi.

"Necədir hünərim?" deyə şah "çinli kənizdən sual eylədi? O, isə özünün etiraf etdiyi kimi, "ərköyünlük etdi". Şaha söylədi ki, o, "buna adət etmişdir". Adət heç yerdə məharət sayılmır. Əgər insan bu işə vərdiş etsə, iş çətin olsa da, onu asanlıqla yerinə yetirər. "Zənn etmə əməlin şücaətdəndir, güclülükdən deyil, bu adətdəndir".

Şah sərhəngi çağırıb Fitnəni "məhv etməyi" tapşırdı...

Sərhəng ədalətli adam idi. O, Fitnənin göz yaşlarından keçmədi. Fitnəni öldürməyib özünün "elin gözündən uzaq olan" yaylağında saxladı, ona altmış pilləli eyvanında yer verdi. İki gün keçməmiş sərhəngin inəyi "dünyaya bir qəşəng inək gətirdi".

...Fitnə məşqə başladı. Nizami vərdişlərin yaranması dinamikasını psixoloji ölçülərlər təsvir edir:

1.Fitnə o gündən bəri buzovu hər gün ağuşuna alırdı. Onun ayaqlarını "döşünə sıxıb" pilləkəni tək-tək yuxarı çıxardı, buzovu yerdən dama qaldırardı.

2.Ceyran yerişli, "gümüş bədənli" "o göyçək pəri" bir gün də öz ərarından dönmədi. Nizami bu psixoloji faktı belə şərh edir: "ər işi bacarar işlək bir insan".

3.Buzov iriləşdi, yaşa doldu, gəldi altı illik bir öküz oldu. Öküzü hər gün tövlədən dama çıxarmaq "o güləndama" sənət oldu.

Nizami bu prosesdə iki cəhəti xüsusilə vurğulayır: a) vərdiş tədricən adətə çevrilir.

Eylədi beləcə bu işdə adət,
Yükündən görmədi zərrə əziyyət.

b) məşq prosesi insanın fiziki və psixi inkişafını vəhdətdə şərtləndirir:

Böyüyən öküzün artıqca əti,
Qızın da artırdı gücü, qüvvəti.

Fitnə qərara almışdı ki, öz məharətini Bəhrama göstərsin. Nizami onu "hurisifət gözəl", "nazlı canan" kimi səciyyələndirsə də, "dargöz" adlandırır. "Ürəyindən qüssə" Fitnəni narahat edirdi. Bir məqam gözləyirdi ki, şahdan hayif alsın. O, öz istəyinə nail olur. Onun təkidilə sərhəng şahı yaylağa qonaq çağırır.

Yaylaq şahın çox xoşuna gəlir. O, sərhəngə söyləyir ki, "otağın gözəldir, xoşdur eyvanın". Bəs qoca vaxtında bu altmış pilləli uca eyvana necə dırmanırsan? Sərhəng isə şaha minnətdarlığını bildirib dedi ki, mən kişiyəm, bu yüksək pillə məni yormamışdır. Sərhəng heyratamiz hadisə kimi Fitnənin şücaəti haqqında şaha məlumat verir. O, Fitnəni "bir ay parçası" tək, lətif, "şahın əynindəki xəz kimi zərif" qız kimi səciyyələndirir. Onun "dağ kimi öküzü" gətirib "bu damda" ona yem verməsindən danışır. Sərhəng təəccübünü gizlətmir: bu altmış pilləli eyvanı qızın bir nəfəsə çıxdığını vurğulayır.

O, deyir ki, öküz öküz deyil, "bir fildir", belə "yekə, saz öküzü" "qaldıran bir əsgər tapılmaz". Təəccüb deyilmi ki, onu bir qız bu uca eyvana yalnız qaldırır.

Şah barmağını dişlədi. Düşündü ki, "bu mümkün olan bir iş deyil. Olsa da ya sehirdir, ya da cadu".

Fitnə gördü ki, məqamdır. "Bəzəndi, düzəndi, döndü gəlinə, Nərgiz xumarlığı verdi gülünə", "Şətarət sürməsi çəkdi gözünə, nazdan pərdə saldı kinli üzünə". Şaha baş əyib öküü qaldırdı düz göyə... Şah təəccüb eylədi, heyran qaldı, ancaq onun kənizi olmasından agah olmadı.

Fitnə öküzü boynundan yerə qoyub "qəhrəman şirə" nazlandı və şaha dedi: "Öküzü qarşına yalnız gətirdim, öz gücümcə sənə peşkəş yetirdim 2. O, qürrələnib şahdan soruşdu: "Dünyada bir nəfər olarmı varsın, öküzü aşağı alsın, aparsın?"

Şah Fitnənin bu adət-ənənəsindən icra etdiyi hünərdən məlum oldu.

Şah dedi: "Gücündən deyil bu, əlbət əvvəldən etmisən bu işə adət. Vərdiş eyləmisən hər il başabaş, öyrənmisən buna sən yavaş-yavaş. Ölçüb çıxarmısan belə sınaqdan, odur ki, olmursan əldən-ayaqdan.

Fitnə şaha baş əydi, ona layiqincə dua eylədi və ədəblə söylədi: "Qəribədir çox. Öküz adətlədir, gur vurmaqsa yox? Adətlə iş görər öküz qaldıran, bu başqa şey deyil, sadə bir idman. Səbəb nədir, kiçik gur vuranda sən, olmasın bir nəfər "adətdir" deyən?" şah bildi Fitnədir onu danlayan. Hindlitək üstünə atıldı haman.

Şah sevindi, "üzr istəyib, qucdu o şümşad boyu". Fitnə şahın könlünü almaq üçün yenə şirin dilini işə salır. O, şaha deyir ki, göz dəyməmək üçün mən sənin hünərini tərifləmədim. "Qovdum beləliklə bədnəzəri mən, çünki

bəyənilən şeyə göz dəyər, pis gözdən insana ziyan tez dəyər”.

“Bəhramın öz kənizi ilə məcarası” və “Bəhramın ovlaqdan sərhəngə qonaq getməsi” hekayələrində vərdiş və adətlərin psixoloji məsələləri özünün aydın ifadəsini tapmışdır. Nizami, ilk növbədə, göstərirdi ki, vərdişlər mümarisə yolu ilə yaradılır. Bu baxımdan üç cəhəti xüsusilə qeyd etmək lazımdır.

Əvvəla, Fitnə buzovu hər gün “ağuşa alıb” 60 pilləli eyvana qaldırırdı. İkincisi, 6 il o, öz qərarından “bir gün də dönmədi”. Nizami Fitnənin uğurlarını da məhz bu mühüm amillə - mümarisənin müntəzəm aparılması, qızın öküz qaldırmağı özünə “hər gün sənət” etməsilə izah edir. Üçüncüsü, Nizami müəyyən etdiyi maraqlı psixoloji faktları motivasiya yönümündə araşdırır. Fitnənin 6 il “qərarından dönməməsinin”, “yorulub usanmamasının” kövrək motivləri var idi. O, özünü qadın kimi Bəhramın gözündə təsdiq etməli idi. Elə buna görə də Fitnə “ürəyi qüssəli” gəzirdi, öz məqamını gözləyirdi. Nizami əsaslı surətdə göstərirdi ki, vərdişin formalaşması insanın motivasiya sahəsi ilə bilavasitə şərtlənir. Bu psixoloji təhlilin gözəl nümunəsi idi. Eksperimental psixologiyada bu effekt XX əsrdə müəyyən olunmuşdur.

Fitnə effektində vərdişlər adətlərlə qarşılıqlı əlaqədə nəzərdən keçirilir. Nizami onları dinamik cəhətdədn bir-birilə bağlı olduğunu gösətərir. O, göstərir ki, əlverişli şəraitdə vərdişlər inkişaf edib adət kimi formalaşa bilər. İşlək adam hər şeyi bacarar.

Bu prossesdə iradi keyfiyyətlər (dözüm, qətiyyət, səy, təkidlilik, qorxmazlılıq, igidlik, cəsurluq və s.) mühüm əhəmiyyətə malikdir. Bir cəhət də maraqlıdır. Fitnə öküzü 60 pillə eyvana qaldırıb ona məhz “bu dam-

da" yem verərdi. Fitnə effektində bu kiçik təfərrüat kimi görünür, əslində isə psixoloji baxımdan son dərəcə əhəmiyyətlidir. Heyvanlarda vərdişlərin yaranması baxımından da həmin fakt diqqəti xüsusilə cəlb edir.

Fitnə effekti XII əsr psixoloji fikir tarixində bənzərsiz hadisə idi. Şərq (oxu: dünya) psixologiyasında bu effekti ilk dəfə Nizami sözün əsl mənasında kəşf etmişdi.

Şah Fitnəninin bu hünəri ilə əlaqədar sərhəngi vasitəsi ilə bir məclis düzəltdirir və məclisdə Fitnənin şücaətini şadyanalıqla qeyd edir.

Bəhram Gurun öz kənizi ilə eşq məcarəsı, onların ovdakı mübahisələri və s. "Yeddi gözəl" dən əvvəl Firdovsinin "Şahnamə"sində təsvir olunmuşdur. "Şahnamə"də kənizin adı Azədədir. "Yeddi göaəl"də onun Fitnə adlandırılmasının öz semantik tutumu və psixoloji mənası var.

"Şahnamə"də Azadə Bəhram Gura təklif edir ki, dişi ahunu erkək və əksinə, erkək ahunu dişi etsin. Həm də ahunun ayağını qulağına "tiksin". Bəhram Gur kənizin təklifini yerinə yetirdikdən sonra Azadə şahın məharətini tərifləmək əvəzinə deyir:  Əhrimənsən, yoxsa belə edə bilməzdin.

Bəhram Gurun şücaətini alqışlamayan Azadəni şah dəvənin ayaqları altında məhv edir.

Bəhram Gurun öz kənizi ilə məcarasını Firdovsi 35 beytdə, Nizami isə 201 beytdə təsvir etmişdir. Ən başlıcası isə Nizami süjeti psixoloji kontekstdə inkişaf etdirmiş və bənzərsiz Fitnə effektinin xüsusiyyətlərini fenomenoloji səpkidə bütün incəlikləri ilə təhlil etmişdir. Müasir gənclərimiz üçün bilik mənbəyi olan bu fikirlər indidə öz əhəmiyyətini saxlamaqdadır.

Nizami Gəncəvinin Fitnə hekayəsində vərdişlərin rolu çox ustalıqla şərh olunur. XIX əsr Azərbaycan içtimai-siyasi, psixoloji-fəlsəfi fikir tarixində özünəməxsus yeri olan A. A. Bakıxanov insan həyatında adətlərin roluna yüksək qiymət verərək yazır "Mən nə qədər axtardımsa uşaqların təlimi üçün elə bi kitab tapa bilmədim ki, o asan və anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin çoxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir. Bu kitablarda "Uşaqlıqda öyrənilən elm daşa qazılmış şəkil kimidir" zərbül məsəlinin məzmunundan qəflət olunur. Uşaq yaşlarında hər zamandan daha artıq əxlaq gözəlliklərini onlara öyrətmək lazımdır. Pis xasiyyətlər təkrar olunduğu zaman adətə çevrilib uşaq təbiətinə daxil olduqdan sonra, onlara elm və ədəb öyrətmək müşkül olar". (52 səh.68)

Gənclik gözəllikdir. Bu gözəlliklərdən biri də onlarda özünü göstərən sadə xalq kütlələri tərəfindən yaradılan, nəsildən nəsilə verilərək təkmilləşərək müasir dövrə qədər gələn əxlaq normalarıdır. Bu normalar xalqın, millətin əxlaq sərvətləridir. Bunlar mütləq əksəriyyətin qəbul etdiyi dəyərlərdir.

Əxlaqi sərvətlərin yaranması, mahiyyəti, təbiəti və meyarı, onların tipləri, gerçəkliyə nə dərəcədə cavab verib-verməməsi bu günün ən aktual problemlərindəndir.

Mədəni davranış və adət-ənənələrin yaranması, mahiyyəti, məzmunu və formalaşmasının sosial-psixoloji xüsusiyyətləri həmişə əxlaq nəzəriyyəçilərinin, mütəfəkkir şəxsiyyətlərin, pedaqoq və psixoloqların diqqət mərkəzində olmuşdur. Bir sıra əxlaq nəzəriyyələri əxlaqi sərvətlərin, əxlaqi ideya və anlayışların determinik xarakterik

daşıması faktını müəyyən real səbəblərlə, müəyyən zəruri şərtlərlə əlaqəli faktını inkar edərək öz əxlaq sistemlərini Kantın qeyd etdiyi kimi”qəti imperativlər” şəkilində şərh etmişlər. Bu əxlaq nəzəriyyəçiləri əxlaq məsələlərində səbəbiyyət əlaqəsinin olmamasını iddia edərək, bununla əxlaqi sərvətlərin dərk edilməsinin, elmi surətdə öyrənilməsini qeyri-mümkün etmişlər. Çünki, insanın əxlaqi hərəkət və davranışlarının əsasında duran bütün maddi və mənəvi amilləri, əxlaq sahəsində hər cür səbəbiyyət əlaqələrinin inkar etmək faktik surətdə əxlaq məsələrini elmi əsaslardan məhrum etmək deməkdir. Bu qəbildən olan əxlaq nəzəriyyələrinin doktrinalarında insan həmişə öz-özlüyündə qalan və heç bir təsirə məruz qalmayan bir başlanğıc kimi, əxlaqi sərvətlər, əxlaqi keyfiyyətlər və sifətlər isə heç vaxt dəyişməyən, riyazi aksiomlara bənzəyən apriopi ehkamlar kimi şərh olunmuşdur.

Dialetik fəlsəfi yanaşmalara görə insanların bütün mınəvi həyatı, o cümlədən əxlaqi sifətləri onları əhatə edən xarici ictimai mühitin məhsuludur. Xarici ictimai mühitin təsiri altında insanları istənilən istiqamətdə tərbiyə etmək mümkündür. İnsan əxlaqının mənbəyi xarici ictimai mühit, onların yaşadığı ictimai-tarixi şərait olduğuna görə, insanı hər hansı bir ilahi qüvvədən aslı etmək, onu fəaliyyətsizliyə doğru sövq etmək, onu təşəbbüskarlıq və hər cür müstəqillikdən məhrum etmək olardı. Çünki, əgər insanın bütün əməl və hərəkətləri “anadangəlmə əbədi və dəyişməz əxlaqi prinsip”lərdən doğursa, onda cəmiyyət öz üzvlərinin əxlaqına nəzarət edə bilməz, başqa sözlə desək, onda heç bir əxlaqi sərvət, heç bir əxlaq norması haqqında danışmaq mümkün olmaz.

F.Engels əxlaq məsələlərində “qəti həqiqətlər”dən uzun-uzadı bəhs edən Y.Durinqlə məşhur müsahibəsində

əxlaqi kateqoriyaların tarixən dəyişilməsi məsələsinə təmas edərək, yazmışdır: “Xeyir və şər təsəvvürləri bir xalqdan başqa xalqlara, bir əsrdən başqa əsrə keçdikcə o qədər dəyişilmişdir ki, çox zaman bir-birinə açiqca zidd olmuşdur. Lakin birisi etiraz edib deyə bilər ki, xeyir hər halda şər deyildir, şər də xeyir. Əgər xeyirlə şər qarışdırılsa, onda hər bir əxlaq aradan qalxar, hər kəs istədiyi işi görər və istədiyi kimi hərəkət edər. Durinqin rəyi də,onun əlaməlik donu çıxarılsa, məhz bundan ibarətdir. Lakin məsələ hər halda belə sadəcə həll olmur. Əgər bu iş doğrudan da belə sadə olsaydı, onda xeyir və şər haqqında heç bir mübahisə olmazdı, hamı bilərdi ki, xeyir nədir, şər nədir”.

Cəmiyyətdən kənarda, müəyyən bir cəmiyyətə mənsub olmayan, ondan kənarda duran insan yoxdur. Cəmiyyətdən kənarda insan ya tanrıdır ya da heyvan. Bunun əksini düşünənlər isə nadan və cahildilər. “İnsanlığın yalnız bir düşməni var, o da nadanlıqdır” (Aristotel). “Nadanlıq isə insanın daxili çirkinliyidir” (A.A.Bakıxanov). “Nadanlıq mühitində böyüyən şəxsi iki qılınc arasında rəqs edən adama bənzəyir. Yüksəkliyə tullanarkən düzgün yerə düşməsə məhv olar”. Ümumiyyətlə, mücərrəd insan mövcud deyildir, insan həmişə kinkret insandır, müəyyən sinifə, qrupa, müəyyən ictimai zümrəyə mənsubdur. Buna görə də hər bir insan mənsub olduğu sinifin əxlaqını daşıyır. Bu səbəbə görə də qullarla qul sahibinin, təhkimli kəndlilərlə feodalların, fəhlələrlə kapitalistlərin eyni əxlaqı ola bilməz.

Adətləin əmələ gəlmə mexanizmi və inkişafı barədə İ. P. Pavlovun sözlərini xatırlamaq yerinə düşər. İ. B. Pavlov bu baradə belə deyir: “Yəqin ki, hər növ tərbiyəmiz, təlimimiz, intizamlaşdırmamız, hər cür adətlər şərti ref-

lekslərin uzun sırasından ibarətdir. Kim bilmir ki, müəyyən şəraitin, yəni müəyyən qıcıqlayıcıların düzəldilmiş, qazanılmış rabitələri, bizim işlərimizlə, çox vaxt bizim qəsdən əks təsir göstərməmizə baxmayaraq öz-özünə, təkidlə, yenidən əmələ gəlir? Bu, bu ya digər hərətlərin əmələ gətirilməsinə, həm də əmələ gəlmiş olanların qarşısının alınmasına, yəni həm müsbət, həm də mənfi refkslərə aiddir." İ. P. Pavlov - əsərləri rus dilində. V c. M/1967. səh. 327

Qeyd etməliyik ki, düzgün olmayan tərbiyə şəraitində uşaqda mənfi adətlər çox asanlıqla əmələ gəlir. Buna görə də tərbiyə işinin təşkilinə ən xırda cəhətlərinə böyük diqqətlə yanaşmaq çox zəruridir.

Məktəbdə bütün işlər elə təşkil olunmalıdıdr ki, bu bir sıra müsbət adətlər əmələ gəlməsi üçün möhkəm şərait olsun, şagird başqa cür deyil, məhz bu cür hərəkət etməyə vadar edilsin. Müsbət adətlər tərbiyəsi yalnız bu yol ilə yaxşı nəticə verə bilər.

Məktəbin müəllim kollektivi A. S. Makarenkonun bu məsləhətini həmişə nəzərə almalı və buna rəayət etməlidir.

"Dözüm uzun sürən çətinlikləri aradan qaldırmaq bacarığı, maneələri bir sıçrayışla deyil, ardıcıl mübarizə təzyiqi ilə ləğv etmək kimi sifətlərin tərbiyə olunmasından danışarkən bu məsələ xüsusilə böyük əhəmiyyət kəsb edir. Nə etmək haqqında nə qədər çox və düzgün təsəvvür aşılayırsınızsa aşılayın, lakin hərgah siz onlarda uzun sürən çətinlikləri aradan qaldırmaq adəti tərbiyə etməyirsinizsə, sizin heç bir şey tərbiyə etməmiş olduğunuzu deməyə haqqım vardır. Bir sözlə, mən tələb edirəm ki, uşaq həyatı müəyyən adətlər qrupunu tərbiyə edən bir təcrübə kimi təşkil olunsun.

”Əxlaqi sərvətlərin məzmununun obyektiv xarakter daşıdığını iddia edərkən bunu heç də mütləqləşdirmir, əxlaqi sərvətlərə nə isə insanlardan yuxarıda duran hipostazlaşdırılmış müstəqilbaşlanğıclar kimi baxmır. Əxlaqi sərvətləri nə isə “müəyyənedilməz”, “təbiilikdən kənar”, “nadir” xarakter daşıyan qeyri-müəyyən mahiyyətlər hesab edən müasir intuitivizm və nepozitivizm fəlsəfi cərəyanların əksinə olaraq əxlaqi nəzəriyəçiləri bunu əsas götürür ki, əxlaqi sərvətlər insanların özlərinin həqiqi münasibətlərinin və ayrı-ayrı dövrlərdəki konkret tarixi inkişafın məhsullarıdır, bunların yaranmasının mənbəyi cəmiyyətin tarixi inkişafının, insanların ictimai münasibətlərinin özündədir və bunlar cəmiyyətdə müəyyən ictimai vəzifə daşıyır.

Müasir gənclərin mədəni davranış və adətlərə malik olmaları onlara həqiqi vətəndaş kimi yetişməyə, özünüdərkə, özünüqiymətləndirməyə, özünənəzarət, bir çox ziyanlı adətlərdən (oğurluq, alkoqolizm, narkomaniya, quldurluq, intihar, cibgirlik, adam öldürmək, tənhalıq, intihar və s.) uzaq olmağa, rahat həyat qurub yaşamağa kömək edir. Bu həm də ideoloji, siyasi, praktiki əhəmiyyət daşıyır. Mədəni, əxlaqlı, ağıllı gənc yaşadığı dövlətin, mənsub olduğu millətin qədrini bilir, kənar müdaxilələrə, ayrı-ayrı dini cərayanlara, cinayətkar qruplara qoşulmur və həmişə xalqına xeyir verməyə çalışır. Digər tərəfdən mədəni davranışa, müsbət adətlərə malik olan gənc elmə, ədəbiyyata, incəsənətə bağlı olur. Gənclərimiz Vətənpərvərlik hissinin mahiyyətini dərk etməli, uşaqlarımızın Vətən haqqında dediklərini həmişə xatırlamalıdırlar. Belə gənclər dövlətin, millətin sərvət dəyəri, onun tükənməz sərvət dəyəridir ki, ondan cəmiyyət həmişə bol-bol istifadə edir.

“Qürbətdə keçən ömür, ömür sayılamz”, “Gözsüz yaşamaq olar, Vətənsiz yox”, “Vətənə gəldim, imana gəldim”,“Adamın qədrini adam bilər”, “Dəli ilə sərxoşun meydanı birdir”, “Ən böyük dərd nadanlıqdıq”, “Yalan ayaq tutar yeriməz”, “Ailə xoşbəxtliyin açarıdır”, “Cavanlıq əmanətdir”, “Cavanlıq gözəllikdir onu qorumaq lazımdır”, “Dost dosta tən gərək, tən olmasa gen gərək” və s. bu tipli atalar sözləridə gənclik yaşı dövrünündə sosial-psixoloji xüsusiyyətlərin, əxlaqi, mədəni davranışlarının, böyüyə hörmət, ləyaqət, qürur və s. kimi milli dəyərlər öz əksini tapır ki, onlardan mədəni davranışın qaydalarının formalaşmasında geniş istifadə etmək olar.

Gənclərin ictimai-sosial həyat üçün çox vacib bir varlıq olduğunu dərk edərək ulularımız, tarixi şəxsiyyətlər, elmi və dövlət xadimləri, yazıçı və şairlər həmişə gənclərə qayğı ilə yanaşmış və onlara güvəndiklərini söyləmişlər. Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı H.Ə.Əliyev bütün “ictimai-sosial” fəaliyyətində gənclərə güvənmiş və onların elm, təhsil sahibi olmalarına kömək etmişdir. Heydər Əliyevin bilavasitə köməyi və iştirakı ilə gənclər dövlət siyasəti böyük sürətlə həyata keçirildi. Heydər Əliyev gənclərə qayğı göstərməyi vacib sayırdı. O gənclərin II forumunda söylədiyi nitqində bunu bir daha bəyan etdi.

“Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının sahib olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası, bu konstitusiyada hər bir vətəndaş üçün vəzifələr, vətəndaş-

larımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, gerbi, himni-bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında, bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır". (H.Ə.Əliyev).

Hesab edirəm ki, bunlar Azərbaycan məktəbinin, universitetlərinin, bütün təhsil ocaqlarının, ölkəmizin gənclər təşkilatlarının, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, bütün hakimiyyət orqanlarının əsas vəzifəsidir. Gənclər bütün bu prinsiplər əsasında tərbiyələndirilməli, inkişaf etdirilməlidir. Onlar Azərbaycanın gələcəyini təmin etməlidirlər". (H.Ə.Əliyev)

Azərbaycan Respublikasının sabiq prezidenti H.Ə.Əliyev bu siyasəti uğurla davam etdirərək gənclərin sevimlisinə çevrilmişdir. 6 aprel 2011-ci il tarixində prezident İlham Əliyev tərəfindən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncam imzalamışdır. Gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədi ilə gənclər fondu yaradılıb. 2005-2009-cu illər üçün Azərbaycan Gəncliyi Dövlət Proqramına büdcədən 8 milyon 375 min manat ayrılmışdırsa, yeni proqrama 80 milyon manat vəsait ayırmaq planlaşdırılmışdır. Bu və ya yüzlərlə belə sərəncam və göstərişlər gənclərə qayğının bariz nümayəndəsidir.

Türkiyənin keçmiş prezidenti Mustafa Kamal Atatürk gənclərə ehtiram göstərərək deyirdi:

"Hər şeyə baxmayaraq, mütləq bir nura doğru hərəkət edirik. Məndə bu imanı yaşadan güc yalnız məmləkət və millətin haqqındakı sonsuz sevgim deyil, bu

günün qaranlıqları, əxlaqsızlıqları, şarlatanları içində, sırf Vətən və həqiqət eşqi ilə işıq səpməyə və axtarmağa çalışan gənclik gördüyümdür. Biz hər şeyi gəncliyə buraxırıq. O gənclik ki, heç bir şeyi unutmayacaqdır. Gələcəyin işıq saçan çiçəkləri onlardır. Bütün ümiidim gənclikdir. Yetişəcək uşaqlarımıza və gənclərimizə alacaqları təhsilin həddi nə olur olsun, hər şeydən əvvəl, Türkiyənin müstəqilliyinə, öz mənliyinə, milli dəyərlərinə düşmən olan bütün ünsürlərlə mübarizə aparma əsasında öyrədilməlidir". (M.K.Atatürk)

Möhtərəm prezidentimiz İlham Heydər oğlu Əliyevin gənclərə göstərdiyi diqqət, qayğı nəticəsində onlar Vətənimizi müxtəlif ölkələrdə layiqli təmsil edirlər. Dünya üzrə keçirilən Olimpiya oyunlarında qalib gələn idmançılarımız Hüseynov Nazim (1992), Meftəhəddinova Zemfira (2000), Abdullayev Namiq (2000), Mansurov Fərid (2004), Məmmədov Ağası (2004), Aşumova İradə (2004), Məmmədli Elnur (2008), Bayramov Rövşən (2008), Rəhimov Vitali (2008), Şərif Şərifov (2012), Mariya Stadnik (2012), Xetaq Qazyumov (2012) və başqa çempionlarımızın adını qeyd etmək olar.

2015-ci ilin iyun ayında Bakıda keçirilən birinci Avropa oyunlarında Azərbaycan gənclərinin bütün dünyanı heyrətləndirən qələbələri daha diqqətəlayiq olmuşdur.

İnsanın inkişafını, fərd kimi mövcudluğunu, cəmiyyətdə fəal həyat mövqeyi tutub şəxsiyyətə çevrilməsini davranış mədəniyyəti olmadan təsəvvür etmək mümkün deyil. Tarixi təcrübə və gündəlik həyat sübut edir ki, cəmiyyətdən tam təcrid olma, adamlarla münasibətdən tam təcrid olma insani keyfiyyətlərin, sosial normaların itirilməsinə gətirib çıxarır. Bioloji varlıq kimi insanın mövcudluğunda hava nə qədər əhəmiyyətlidirsə, ictimai

varlıq olan şəxsiyyətin də mövcud olmasında davranış mədəniyyətinin rolu bir o qədər böyükdür.

Gənclərin mədəni davranışının mahiyyəti, məzmunu haqqında fikirlər müxtəlif, rəngarəngdir. Bu, problemin mürəkkəbliyi və çoxaspektliyi ilə bağlıdır. İlk növbədə davranış mədəniyyətinin mahiyyəti asan, hamıya tanış olan görünsə də, bu əslində belə deyil. İnsanlararası münasibətlər sahəsində son dövrdə aparılan tədqiqatlar sübut etdi ki, problem fəlsəfi, psixoloji, pedaqoji, sosioloji, linqvistik, semiotik, etik, estetik, ekoloji və s. baxımdan konkret araşdırmalar tələb edir.

Qeyd etmək lazımdır ki, gənclərdə mədəni davranışın formalaşmasının psixopedaqoji problemləri ayrı-ayrı elmlərin konkret tədqiqat obyektinə çevriləndə də alimləri müəyyən çətinliklərlə qarşılaşdılar. Məlum oldu ki, fəlsəfi aspektdən problemin açılmasının psixologiya və digər əlaqədar elmərin köməyinə ciddi ehtiyacı var.

30-cu illərdən başlayaraq psixoloqlardan A.S.Vıqotski davranış mədəniyyətinə fəaliyyət kimi baxırdı. B.Q.Ananyev davranış mədəniyyətini əmək və təfəkkür kimi insan fəaliyyətinin bir növü formasında tədqiq edir, A.N.Leontyev tərəfindən aparılan tədqiqatlar fəlsəfədə davranış mədəniyyəti probleminin açılmasına xeyli kömək etdi. L.P.Bueva, E.Q.Zlobina davranışın psixoloji traktovkasına arxalanaraq problemin fəlsəfi nəzəriyyəsini işləməyə girişdilər.

Həyat özü də sübut edir ki, cəmiyyəti şəxsiyyətsiz, şəxsiyyəti də cəmiyyətsiz təsəvvür etmək çətindir. Şəxsiyyətlərarası ictimai münasibətlərin inkişaf prosesləri isə emosional əlaqələrsiz mümkün deyildir. Çünki, davranış mədəniyyəti cəmiyyətlə insanlar arasında qarşılıqlı müna-

sibət, təsir və qarşılıqlı dərketmə vəzifələrini yerinə yetirir.

İnsanlar arasında davranış mədəniyyəti ibtidaidən aliyə doğru uzun bir inkişaf yolu keçmişdir. Təfəkkürü ifadə edən davranış mədəniyyətinin meydana gəlməsi, insanları narahat edən hadisələrin işarələrlə deyil, danışıq formasında bir birinə ötürülməsi qarşılıqlı düşüncə, fikir, rəftar və tərz imkanlarını daha da genışləndirmişdir.

Müasir dövrdə dünya ölkələrinin demokratiyaya güclü meyli, gün-gündən genişlənən iqtisadi-siyasi-mədəni əlaqələr peşə ünsiyyəti mədəniyyətinin qlobal formada təkmilləşməsini tələb edir. Qəribə də olsa dövlətlərin, xalqların və millətlərin indiki inteqrasiyası, hərtərəfli əlaqələri millətlərin özünəqayıdışı ilə paralel şəkildə gedir. Bu hardasa demokratikləşmənin yeni inkişaf istiqaməti, yeni məzmunudur ki, davranış mədəniyyətinin də demokratikləşməsinə ciddi ehtiyac yaradır. Fikrimizcə, iqtisadi, siyasi, ekoloji, mədəniyytə dialoq xarakterli olduqda davranış mədəniyyətinin demokratikləşməsi anlayışı mahiyyət etibarilə məntiqidir.

Belə olduqda istər iqtisadi-siyasi mədəniyyət, istərsə də ekoloji mədəniyyət, pedaqoji mədəniyyət kimi davanış mədəniyyətinin tərkibinə daxil olur.
Davranış mədəniyyətinin ən mühüm tərkib hissələrindən biri etiket mədəniyyətidir. Etiket-insanlar arasında reqlamentləşən xüsusi davranış qaydaları kimi başa düşülür. O, davranışın sırf xarici tərəfidir. Etiket mədəniyyəti-taktla və moda ilə bağlııdr. Mədəni davranışı həmişə yüksək əhval-ruhiyyədə kökləməyə vərdiş etmək özü də etiketə aiddir. Etiket mədəniyyəti ümumi qaydalarla yanaşı, milli adət-ənələrlə də sıx vəhdətdədir, adi görüşmək salamlaşmaq qaydası müxtəlif xalqlarda müxtəlif cürdür. Məsələn,

fransızlar görüşən zaman bir-birinin yanağından öpür, sanoalılar bir-birlərini iyləyirlər. Əgər fransızı görən zaman iyləsəniz, sanoalini öpsəniz yəqin ki, təhqirdən yaxa qurtara bilməzsiniz. Bolqarlar razılıq əlaməti olaraq başlarını sağa-sola tərpədirlər, hansı ki, bu başqa xalqlarda etiraz əlaməti kimi qəbul olunur.

Yaponlar və Çinlilər son dərəcə lakonik danışır. Onlarda bəzi sözlər tonundan asılı olmayaraq 20 mənanı ifadə edir. Buna görə də çox vaxt avropalıları boşboğaz hesab edirlər. Avropalılar Tokio qatarlarında adamların bir-birinə baxmağa çalışmalarına, hinduların isə davranış mədəniyyətində cansıxıcı olmalarına təəccüblənirlər.

Gənclərdə mədəni davranış qaydalarının formalaşmasında demokratiya, ədalət, insana hörmət, qayğı, səmimiyyət durur. Davranış mədəniyyətinin forma və növlərindək müxtəliflik, onun strukturasının və məzmununun mürəkkəbliyi peşə mədəniyyəti kimi pedaqoji davranış mədəniyyətinin və onun formalaşmasının mürəkkəb bir proses olmasını göstərir. Müstəqil həyatda hər bir adamın davranışının bütün aspektlərində mədəni səviyyəsi orta ümumtəhsil məktəblərində müəyyən olunur. Müasir gənclərin davranış mədəniyyətinə yiyələnməsi probleminin həllində alimlər 4 qrupa bölünür :

Birinci qrup alimlər iddia edir ki, gənclərə davranış mədəniyyəti barədə xüsusi biliklər verilsin. Bu barədə ayrıca dərslik nəşr edilib tədrisə başlanılsın ki, gənc müstəqil həyata davranış mədəniyyətinin bilikləri, bacarıqları, vərdişləri və texnikası ilə qədəm qoysun.

İkinci tərəf tələbə gənclərdə davranış mədəniyyətinin formalaşdırmağın əsas yolu kimi məktəbdənkənar, sinifdənxaric tədbirlərə diqqətin artırılması əsas götürür.

Onların fikrincə asudə vaxtı düzgün təşkil olunmalı, xüsusi istirahət və əyləncə mərkəzləri yaradılmalıdır.

Üçüncü qrup mütəxəssislər isə, məktəbdə tədris yükünün və proqramın ağırlığını nəzərə alaraq davranış mədəniyyətinin formalaşması üçün dolayı yola ciddi fikir verir.

Dördüncü qrup isə, psixoloji testlər, işgüzar oyunlar, idman oyunları vasitəsilə gənclərin kommunikasiya qabiliyyətlərinin inkişafını əsas götürür.

Qeyd etmək lazımdır ki, bütün müddəalar praktikada özünü doğruldub, davranış mədəniyyətinin formalaşmasına, şübhəsiz, hamısı təsir edir.

Lakin, bizim cəmiyyət keçid dövrü yaşadığından, millətlərarası münasibətlər kövrək xarakter aldığından, xalqların öz milli adət-ənənələrdən uzaq düşdüyündən, zənnimizcə, indiki zamanda biz birinci qrup alimlərin müddəalarını əsas götürməliyik. Unutmaq olmaz ki, sosializm uzun illərdən bəri fərdi qabiliyyətlərin inkişafını tormozladığı, istedadların inkişafını ləngitdiyi bir şəraitdə, şəxsiyyətin nivelirləşdiyi bir dövrdə davranış mədəniyyətinin lazımi səviyyədə inkişaf edə bilməzdi. Bu günkü böhranların ən böyüyü də məhz davranış mədəniyyəti böhranıdır.

İllərdən bəri sözlə-əməlin uyğun gəlməməsi, qəzetlərin, informasiya vasitələrinin ətrafa yalan püskürməsi nəticəsində insanlar arasında saxta münasibətlər formalaşdı. Hərtərəfli kommunist adamının yetişdirilməsi ideyası nəzəriyyədən reallığa çevilə bilmədi. Dostluğa əməl etmək əvəzinə isə dostluqdan danışılır, millətlərin qardaşlığı salnaməsi yazılardı. Xalqın öz genefondundan qidalanma imkanları zəiflədikcə, ümumi intellekt aşağı düşməyə başladı. Formaca milli, məzmunca sosialist

adamlar formalaşdırmağa cəhd milli məzmunu deformasiya etdi. Adamlar belə cəmiyyətdə sanki ümumi axına qoşulub axır. Hamı necə, məndə elə prinsipi ilə hərəkət edir. Çünki, axının əleyhinə getmək heç kimə fayda vermir. Məhəmməd Ə.S deyərdi: “İnsanlar atalarından çox zəmanələrinə bənzərlər”. Cəmiyyətdə üstqurum bazis münasibətləri, milli münasibətlər, hətta uzun illər ehkam kimi baxılan partiya böhran keçirirsə, məktəbdə davranış mədəniyyəti böhranından danışmaq təəccüblü deyil”.

Psixopedaqoji fikrin tarixi inkişafı bəşər cəmiyyətində zəngin təcrübə xəzinəsi yaratmış, mütərəqqi olanları zaman yaşatmış, qeyri-mütərəqqi isə mütərəqqinin həyatda yerini möhkəmləndirməsinə xidmət edib, sıradan çıxmışdır. Bütün dövrlərdə davranış mədəniyyəti tarixi şəraitdən, istehsal münasibətlərindən asılı olaraq forma və məzmununu dəyişsə də tərbiyə edənlə tərbiyə olunan arasında yeganə əlaqə vasitəsi olmuşdur. Cəmiyyətdəki üstqurum bazis münasibətləri öz əksini pedaqoji prosesdə tapmaya bilməzdi. Bu münasibətlərin quruluşu məzmunu, inkişaf səviyyəsi eyni zamanda davranış mədəniyyətinin inkişaf səviyyəsi deməkdir. Ola bilməz ki, ictimai münasibətlərin normal inkişafı səviyyəsində olan cəmiyyətin maarifi onunla tərs mütənasib olsun və yaxud da yüksək davranış mədəniyyətinə malik olan məktəb davranış mədəniyyəti səviyyəsi aşağı olan cəmiyyətdə meydana gəlsin.

Müasir gənclərdə mədəni davranış və adətlərin formalaşması məzmun etibarilə mürəkkəb, formalaşma yollarına görə çoxşaxəlıdır. Davranış mədəniyyəti özlüyündə peşə mədəniyyəti və şəxsiyyətin mədəniyyəti olsa da o, tələbə gənclərlə davranış mədəniyyətinin formalaşmasına xidmət edir. Bu nöqteyi nəzərdən davranış mə-

dəniyyətini təkcə müəllimlərə aid etmək bitərəflikdir. Tələbə gənclərin davranış mədəniyyəti pedaqoji davranış mədəniyyətinin nəticəsi, məhsulu kimi başa düşməlidir. Bundan əlavə gənclərin gündəlik təmasda olduğu ailə, ətraf mühit, asudə vaxtı mərkəzləri mövcuddur.

Müasir gənclərin mədəni davranışın formalaşması imkanları və istiqamətləri çoxdur. Biz onlardan tədqiqiatn xarakterinə uyğun olaraq bəzilərini göstərməklə kifayətləndik.

1.Mədəni davranış və adətlərin formalaşmasına ailənin, məktəbin, cəmiyyətin və onun şəxsi təsiri (pedaqoji-psixoloji aspekt)

2.Konfliktlər və onların düzgün həllinin mədəni davranışlara təsir imkanları (pedaqoji-psixoloji aspekt)

3.Bu prosesdə yaş dövrlərinin, cinsi və fərdi xüsusiyyətlərinin nəzərə alınması (pedaqoji-psixoloji aspekt) mütləqdir

4.Gənclərdə mədəni davranış və adətlərin formalaşdırılmasında yaşlıların və yaşıdların rolu əsas faktor kimi özünü göstərir ( pedaqoji-psixoloji aspekt)

Pedaqoji-psixoloji ədəbiyatda gənclərin mədəni davranış imkanlarının təsirini görə 3 qrupa bölürlər:

1.Birobrazlı pozitiv təsir edənlər. Onların təsiri sosial rolları, fəal həyat mövqeyi və şəxsi nümunələri ilə güclüdür. Belə müəllimlərin tədris etdiyi fəndən tələbələrin mənimsəmə faizi təxminən 4,1-dir.

2.Gənclərə neqativ təsir edənlər. Bu təsir də sosial rol və şəxsi nümunə ilə xarakterizə olunur.

3.İnversion təsirli imkanları. Belə hallarda təsir zəif olduğu üçün effekt vermir.

Tərbiyəçinin, valideynlərin, müəllimlərin şəxsi nümunəsi dedikdə, ilk növbədə nümunənin rəftarı, davranışları,

mərifəti, psixoloji təsiri və s. diqqət yetirmək lazımdır. Bildiyimiz kimi, həqiqət müqayisədə meydana çıxır. Gənc üçün ən etibarlı müqayisə obyekti müəllim və valideynləridir. O, ətraf aləmdə gördüyü, müşahidə etdiyi, birbaşa və dolayısı yolla iştirakçısı olduğu hadisələri müəllimin və valideynlərinin timaslında qiymətləndirir. Xüsusi etik, əxlaqi, mənəvi, hüquq və davranış normaları, yaxşı və pis haqqında təsəvvürlər məhz nümunədən keçir.

Şəxsi nümunəyə davranış mədəniyyəti bucağından yanaşıldığına görə, müəllimin şəxsi mədəni, psixoloji və pedaqoji keyfiyyət və bacarıqları diqqət tələb edir. Bunlar təxminən aşağıdakılardır:

1.Müəllimin sözü ilə əməlinin vəhdəti

2.Ədalətlilik, humanizm, demokratizm

3.Pedaqoji takt

4.Sosial-persepsiya bacarığı-yəni üzdən oxuma

5.Anlama, psixi vəziyətin xarici görkəm əsasında müəyyən olunması

6.Müəllimin geyimi, yerişi, gigiyenik qaydalara riayət etməsi, danışığı, duruşu, mimikası və s. bu prosesdə əsas amillərdəndir.

7. Qnostik bacarıq- yəni müəllimin öz fəaliyyətini təhlil etmə bacarığı. Elmi səriştə, əxlaqi və sosial məsuliyyət, humanizm, demokratiklik, ədalətlilik kimi keyfiyyətlər davranış mədəniyyətinin başlıca prinsipləridir. Pedaqoji fikrin inkişaf tarixində məktəb demokratiyası cəmiyyətdəki demokratiyadan asılı olaraq daim diqqət mərkəzində olmuş, avtokratiklik zərəli iş stili kimi müntəzəm surətdə tənqidə məruz qalmışdır.

Müasir gənclərdə davranış mədəniyyətinin formalaşmasının psixoloji və fəlsəfi mahiyyətini yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, bu problem hazırki

dövrün məzmununa uyğun geniş araşdırmalar tələb edir. Fəlsəfə 70 il ərzində cəmiyyətin real inkişaf istiqamətlərini qabaqcadan vermək sahəsində ciddi qüsurlara yol verib. İnsanlararası münasibətlər hardasa kortəbii formalaşan, idarə olunmayan və zorla idarə olunmağa cəhd olunan bir prosesə çevrilib.

Gündəlik müşahidələr və tələbə gənclərlə aparılan sorğulardan bir daha məlum oldu ki, müasir gənclərdə mədəni davranış və adətlərə (nəzakət, həya-abr, səmimiyyət, humanizm, əxlaqi, sosial məsuliyyət, hörmət, sadəlik və təvəzökarlıq, sadəlik, vətənpərvərlik, dəqiqlik, cəsarət, mərdlik, cəsarət və s.) riayət edənlərin sayı istənilən qədərdir. Bu günkü gənclərin intellektual səviyyəsi, mədəni davranış qaydaları, millətindən, dinindən, irqindən aslı olmayaraq hamıya qayğı göstərmələri adamda qürur hissi doğurur. Küçədə, keçidlərdərdə çətinlik çəkən qocalara, əlillərə,yaşlılara həddindən artıq qayğı göstərib onlara maneələri keçməkdə kömək edən gənclərin davranış qaydaları bizdə onlara qarşı böyük ümüdlər doğurur. Lakin, bu prosesdə həmdə diqqəti cəlb edən bir çox sosial-psixoloji problemlər var ki, onlara biganə qalmaq olmaz:

Mədəni davranışlar və adətlər ailədən başlayır. Əgər uşaq ilk vaxtlardan milli adət ənənələrə uyğun olmadan bir çox hərəkətlər edirsə (tutaq ki, böyüklərə, nənəsinə, babasına qayği göstərmirsə, əl-üzünü vaxtı-vaxtında yumursa, pintilik göstərirsə, şıltaqlıq edirsə və s.) bu onların xarakter əlamətlərinə çevrilir və gələcəkdə davranışlarında özünü göstərir. Buna görə də gənclərdə mədəni davranış və adətləri inkişaf etdirmək istəyiriksə, onun qayğısına lap kiçik yaşlardan qalmaq daha yaxşı olar.

Mədəni davranış və adətlər ailədən, bağçadan, məktəbdən , qrup və kollektivdən başlayır. Akademik İ. P.

Pavlov gənclərə yazdığı məktubunda göstərir ki, özünüzü məğrurluğun qulu etməyin. Dikbaşlıq bəzən sizi xeyirli məsləhətdən və yoldaşlıq köməyindən kənar edər, siz öz obyektivliyinizi itirərsiniz. Mənim rəhbərlik etdiyim kollektivdə hər şey öz qaydasındadır. Biz hamımımz ümumi işə qoşulmuşuq: hər birimiz bacardığı qədər onu qabağa aparırıq. Bizdə "mənim", "sənin" söhbəti yoxdur. Bundan isə yalnız ümumi iş qazanır (86 səh. 32). Ailədə valideyinlər uşaqların hər bir hərəkətinə, davranışına, ailə üzvləri ilə münasibətinə fikir verməli, səbrlə, təmkinlə uşaqların çatışmayan cəhətlərini korreksiya etməli, onlara mədəni davranışların ilk elementlərini nümunələrlə başa salmalıdırlar. Buna birinci növbədə valideyinlər (ata, ana, bacı, qardaş və başqa ailə üzvləri) özləri nümunə olmalıdırlar. Əgər ata-ana bir-biri ilə qeyri səmimi davranırlarsa, hay-küylə danışırlarsa şübhəsiz ki, uşaqlar həmin davranışları hərəkətlərində göstərirlər. Təcrübələr göstərir ki, adət-ənənələr, davranış qaydaları ən çox problemli ailələrdə (ata narkaman olanda və yaxud ana hövsələsiz, səbirsiz olanda, ana qeyri millətin nümayəndələri olanda, onlardan biri və ya hər ikisi həbsxana həyatı keçirəndə və s.) özünün göstərir. Belə amillərə uşaqların davranışını, adətləri bir qayda olaraq normal ailələrdən geri qalır. Nisbətən normal ailələrdə uşaqlar adət-ənənələrə riayət edir, artıq, yersiz davranışlara yer vermirlər. Mənfi və ya əksinə müsbət adət və davranışlar ailədən başlayıb, ta gənclik və yaşlılıq dövrünə qədər davam edir. Deməli birinci problem ailədən, valideyin-övlad münasibətlərindən başlayır. Ailə sağlam, mədəni, nəzakətli olanda yetişən uşaqlar da cəmiyyətə əsl vətəndaş kimi inteqrasiya olunurlar. Bunun üçün uşaqlara qayğı ilə yanaşmalı, zəruri olan davranış elementləri aşılanmalıdır və s. Xeyirxahlıq,

sadəlik, səmimilik toxumu lap kiçik vaxtlardan uşağın qəlbinə hakim olmalıdır. M.Dilbazi demişkən:

Böyüklərə hörmət et,
Kiçikləri əzizlə.
Bu dünyada hər zaman,
Yaxşı işləri izlə.
Biri yıxılan görəndə,
Tut əlindən balacan.
Xeyir işlər görməyə çalışmalıdır insan.

Gənclərdə mədəni davranış və adətlərin formalaşması prosesində ən mühüm psixoloji problemlərdən biri kütləvi informasiya vasitələrində (radio, komputer və s.) bu prosesə aid elmi məzmunlu materialların verilməsidir. Bəzən televiziya verlişlərində gənclərin mənəvi inkişaf və adətərinə tamami ilə zidd olan verlişləri aid etmək olar. Bir çox verlişlərdə uşaqlarda aqresiya xakterli hərəkətlər nümayiş etdirilir. Zənnimizcə gənclərdə mədəni davranış və adətlərin inkişafı üçün verlişlər çox azdır. Digər problem isə gənclərimizin mütaliə problemidir. Azərbaycan xalqının tarixi şəxsiyyətlərinin qəhrəmanlıqlarından, həyat və fəaliyyətindən, onların nəzakət və səmimiyyətindən bəhs edən yazılar da kifayət qədərdir. Lakin gənclərimizin bu sahəyə marağları qənaətbəxş deyil. Bunlara diqqət artırılmalı və maarifləndirici tədbirlər keçirilməlidir. Ən mühüm problemlərdən biri də yaşlı nəsl ilə, gənc nəsl arasında anlaşılmazlıqlardır. Gənclərin inkişafına, sosial-psixoloji, siyasi görüşlərinin formalaşmasına yaşlılar qayğı ilə yanaşmalı və onlara qayğı göstərməlidir. Bu bir mənalıdır. Gənclər isə qloballaşma, yeniləşmə, demokratiya, müstəqillik anlayışlarını (əlbəttə bir qismi) bəzən təhrif edilmiş formada başa düşür, özlərini təkəbbürlü,

laqeyid, bəzən isə qeyri səmimi anlayır və bu da yaşlıların xoşuna gəmir. Gənclərimizin əksəriyyəti isə özlərinin səmimiyyəti, xeyirxahlığı, ədaləti, nəzakətliliyi ilə adamlarda qürur hissi yaradırlar.

Müasir Azərbaycan Respublikasının qurucusu və memarı ulu öndərimiz Heydər Əliyev siyasi, elmi, ideoloji, ictimai fəaliyyəti ilə bütün dünyada gəncləri özünə cəlb etdyi kimi, özünün nəzakəti, ləyaqəti, davranışları ilə də onların qəlbinə hakim olmuşdur. Heydər Əliyevdən çox şey öyrənilmiş və bu gün də öyrənilməkdədir. Müəllim və valideyinlər, tərbiyəçilər, müəllim və pedaqoqlar bu işdə daha çox fəal olmalı və gənclərimizi Heydər Əliyev əqidəsində, xalqa, millətə bağlılığı ruhunda formalaşdırmalıdırlar.Gənclərdə mədəni davranış və adətlərin formalaşması prosesində diqqət cəlb edən psixoloji problemlərdən biri də onların milli kökdə, türkçülüyə və azərbaycançılığa dərindən yiyələnmələridir. Burada gənclərimiz bir həqiqəti də unutmamalıdırlar ki, Azərbaycanlılıqla, Türkçülüklə yanaşı, onlar bu soykökün tərbiyə pinsiplərinə, adət-ənənələrinə, əxlaq normalarına yiyələnməlidirlər. Bəşəri və milli əxlaq qaydalarına riayət etməlidirlər. Yaxşı əxlaq sahibi olmaq təkcə mənsub olduğun millətin nümayəndəsi kimi dünyaya gəlməklə bitmir. Yunan mütəfəkkiri Sokrat demişkən "Yunanları yunan edən yunanlı olaraq doğulması deyil aldığı təlim, təhsil və tərbiyədir" (Sokrat). Gənclər dərk etməlidir ki, Türklər, Azərbaycanlılar istər kişilər, istərsədə qadınlar öz mərdlik və cəsarətlliyi ilə, davranış mədəniyyətləri ilə fərqlənmişlər. Gənclər Azərbaycan və Türk soykökünə aid əxlaqi normaları dərindən dərk etsələr, zənnimizcə dövrümüzün verdiyi bəzi xoşagəlməz halları təkrar etməzlər. Müasir gənclər onu qruculuğunda, torpaqların müdafiəsində,

erməni millətçilərə qarşı vuruşlarda şücaət və qəhramanlıq göstərir, davranışlarında əsil azərbaycanlı kimi mövqe nümayiş etdirirlər. Təkbaşına xeyli erməni qıran, sonra əsil qəhraman kimi şəhid olan Mübariz İbrahimov kimilər gənclərin simasını səciyyələndirən fakt kimi xüsusi diqqətə layiqdir.

Nəzakət, mehribanlıq, dəqiqlik, səmimiyyət, təmizlik, səliqəlilik, yaxşılıq, hörmət, sadəlik, təvəzökarlıq mədəni davranışların bəzəyidir. Gənclərin uyğun zaman və məkanda yaşlılarla, yaşıdları ilə salamlaşması, onlara mehriban nəvaziş göstərməsi adamda bir məmmunluq hissi yaradır.

İnsan cəmiyyəti yaranandan kişi və qadın cinsinə xas olan davranış qaydaları sadə xalq tərəfindən əxlaq qaydalrı ilə təsbid olunmuşdur. Bəzən kişi qadın kimi hərəkət edəndə, bu hər iki tərəf üçün müəyyən narahatlıq yaradır. Hər iki halda etiket qaydaları gözlənilsə daha yaxşı olar.

Bütün bunları nəzərə alaraq yaxın və uzaq xarici ölkələrdə, o cümlədən Azərbaycan həm də Türkiyə psixoloji fikir tarixində gənclərin təlim-tərbiyəsinə, onlara bir şəxsiyyət kimi formalaşmalarına, mədəni davranış və adətlərə yiyələnməsinə aid xeyli əsərlər yazılmışdır. Azərbaycan gənclərinin təlim tərbiyəsinə, əxlaqi-sosial-psixoloji inkişafına, habelə onlarda mədəni davranış və adətlərin formalaşmasına aid dissertasiyalar, monoqrafiyalar, elmi-kütləvi əsərlər, məqalələr nəşr edilmiş, maraqlı tövsiyyələr verilmişdir. Azərbaycan həm də Türkiyə psixoloji fikir tarixində gənclərin mədəni davranış adətlərinin formalaşması problemi bir çox silsilə əsərlər, məqalələr, monoqrafiyalar, dissertasiyalar həsr olunmuşdur.

Yaxın və uzaq xarici ölkələrdə də gənclik yaşı dövründə təlim - tərbiyənin müxtəlif problemlərinə aid xeyli əsərlər yazılmış, nəzəriyyələr irəli sürülmüşdür. Problem rus, ingilis, Türkiyə və digər ölkə psixoloqları tərəfindən işlənmiş, araşdırılmış, müqayisəli analizlər aparılmış, müvafiq nəticələr çıxarılmışdır. Rusiyadan Xaqurov T.A., T.V.Qavrilova, O.N.Kuzitsov, Perov Q.O., Samıqin S.İ., A.Lyubinskaya, V.S.Muxina, İ.S.Kon, A.V.Petrovski, K.A.Abulxanov və başqalarını misal göstərə bilərik. Azərbaycan və Türkiyə psixoloji fikir tarixində də bu problem geniş şəkildə tədqiq edilmişdir. Ş.Ağayegvin "Sovet gənclərinin mədəni davranışı" (1956), "Uşaqlarda mədəni davranış və adətlərin tərbiyəsi"(1961). Ə.Bayramovun "Gənclərin özünütərbiyəsi haqqında" (1961), "Gənclik və özünütərbiyə haqqında söhbət" (1967), Ə.Əlizadənin "Yoldaşlıq və dostluq tərbiyəsi" (1961), R.Cabbarovun "Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili" (nam. dis.2004), M.Musayevin "Gənclərin mənəvi inkişafının bəzi sosial - psixoloji cəhətləri" (nam. dis.2006), N.Əhmədovanın "Destruktiv davranışın sosial - psixoloji aspektləri" (nam. dis.2005), G.Hüseynovanın "Erkən gənclik qruplarında persepsiyanın psixoloji xüsusiyyətləri" (nam. dis.1995), L.Əliyevanın "Tələbə gənclərin ailə həyatına hazırlanmasının psixoloji xüsusiyyətləri" (nam. dis.2005), L.Cabbarovanın "Müasir şəraitdə tənhalığın sosial - psixoloji problemləri" (nam. dis.2002), M.İmamverdiyevin "Susidal davranışın təşəkkülünün psixoloji xüsusiyyətləri" (nam. dis.2002) və s. alimlərin əsər və məqalələrini göstərmək olar. İ.Balabəyovanın "Yeniləşmə şəraitində sosial - psixoloji münasibətlərin formalaşması xüsusiyyətləri" (nam. dis.2006), N.Abbasza-

dənin “Deviant davranışa meyilli yeniyetmə qızların sosial - psixoloji problemləri” (nam. dis.2007) və digər psixoloqların əsərlərini buna misal göstərmək olar.

Bu istiqamətdə aparılan elmi axtarışlar Azərbaycanda sosial psixologiyanın başlıca problemləri, eləcə də fərdlərin sosial - psixoloji həyat tərzlərinin öyrənilməsində və onları istiqamətləndirən xarici prinsiplərin rolunun araşdırılmasında, fərdin bir şəxsiyyət kimi formalaşmasında bizə dəyərli məlumatlar vemişdir. Cəmiyyətdə mövcud olan deviantizm problemi əslində cəmiyyət həyatına yad deyildir.

Ayrı - ayrı ölkələrdə, o cümlədən Azərbaycan və Türkiyə Respublikalarının pedaqoji istiqamətdə aparılmış tədqiqatlarda da eyni ilə yuxarıda söylənilən cəhətlər öz əksini tapmaqla yanaşı, xüsusən tərbiyə prosesində yaradıcılıq, müstəqilliyə meyl kimi cəhətlər əsas götürülür və bunlar gənclərin mənəvi formalaşmasının başlıca leytmotivi hesab edilir. Təbii ki, bu yönümdə aparılmış tədqiqatlarda problemin genezisi, onun strukturu lazımi səviyyədə deyildir.

Problemin tədqiqinin əsas istiqaməti təbii ki, mədəni davranış və adətlərin tərbiyəsinə psixoloji yanaşmadır. Burada da əsasən davranışların psixoloji strukturu, onun tərkib elementləri, formalaşmasının psixoloji qanunauyğunluqları əsas tədqiqat obtekti olmuşdur. Ayrı - ayrı tədqiqatçılar (L.Kolberq, J.Piaje, K.Gilliqan, Z.Freyd, U.Lindsey, C.Kelli, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, Əliyev, S.Seyidov, M.Vəliyev, E.İsmayılova, R.Cabbarov, M.Mustafayev və başqaları) mənəvi inkişafı müxtəlif formalarda öyrənməyə çalışmışlar.

Türkiyə respublikasında da tələbə gənclərin təlim-tərbiyə fəaliyyəti ilə, xüsusi ilə onların bir şəxsiyyət kimi

formalaşmasında mühüm rol oynayan adət və vərdişlərin rolu kifayət qədər öyrənilmişdir. Buraya "Türk əxlaqı", (148), "Türkün qızıl kitabı" (149), "Ailədə, məktəbdə, toplumda dəyərlər psixologiyası egitimi" (158), "Gənclik çağı"(160) və digər onlarla, yüzlərlə türk dilində nəşr olunmuş əsərləri ( 159, 161, 163, 164, 1675, 167, 168, 169, 180-183) buna misal göstərmək olar. Həmin əsərlərin əksəriyyətində "Gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri, gənclərin içtimayətdə yeri, gənclik və özünün kimliyi, validеynlər və gənclər, gənclik yaş dövründə psixoloji sarsıntılar, gənclərdə mədəni davranış və adətlər, gənclərin şəxsiyyətinin formalaşmasında televiziyaların və digə kütləvi informasiyaların rolu" və digər problemlər qabardılır və həlli yolları araşdırılır və bu barədə psixoloji tövsiyyələr verilir. Bu tədqiqatlar bir daha göstərir ki, hər iki ölkədə gənclərin təhsili, tərbiyəsi bir şəxsiyyət kimi formalaşdırılmasına aid araşdırmalar müxtəlif  yolla olsa da hədəf birdir. Gənclər milli kimliyi, əxlaqi və siyasi şüuru, xalqına, soy kökünə bağlılığı, düşmənə qarşı birgə fəaliyyəti, bir sözlə Türkçülüyü, Azərbaycanlılığı, dövləti qorumağı, dövlət rəmzlərinə hörməti inkişaf etdirib tərbiyə etmək. Budur Türkiyə və Azərbayacan gənclərinin amalı.

## Davranışın mədəniyyət kontekstində şərhi

Elmi ədəbiyyatda göstərilir ki, davranış mədəniyyəti anlayışı çox qədimlərdə meydana gəlmişdir. Onun meydana gəlməsində əmək fəaliyyəti həlledici rol oynamışdır. Qarşılıqlı yardım olmayan, tayfa qarşısında müəyyən vəzifələri yerinə yetirmədən insan təbiətlə mübarizəyə tab gətirə bilməzdi. Davranış mədəniyyəti insanların

qarşılıqlı münasibətlərinin tənzimləyicisi kimi çıxış edirdi. Öz növbəsində cəmiyyət də bu və ya digər mədəniyyəti dəstəkləməklə, yaymaqla öz idealına uyğun şəxsiyyəti formalaşdırır. İnsanların qarşılıqlı münasibətlərini tənzimləyən hüquqdan fərqli olaraq ictimai rəy gücünə fəaliyyət göstərir və ona əqidəyə görə əməl olunur.

Davranış mədəniyyəti cəmiyyətdə insanların hərəkətlərini tənzim edən birgə yaşayış normalarının, davranış qaydalarının məcmusudur, mənşəcə ictimai şüurun ən qədim formasıdır. İnsan cəmiyyəti yaranandan insanlar arasında müəyyən tənzimedici norma və qaydalar meydana gəlmişdir ki, onların da məcmusu mədəniyyətdir. Davranış mədəniyyəti ictimai həyatın bütün sahələrində əmək, istehsal prosesində, sosial-siyasi fəaliyyətdə, ailə-məişətdə, siyasətdə, elmdə, beynəlxalq münasibətlərdə və s. insanların davranışını və rəftarını tənzim edir, insanlararası qarşılıqlı münasibətlərin ən ümumi əsaslarını müəyyən edir. Mənəviyyat sistemində şəxsiyyət nüfuzu heç də müəyyən siyasi imtiyaz, rəsmi vəzifə ilə deyil, mənəvi-əxlaqi nümunə əsasında, davranış və rəftar mədəniyyəti sahəsində əldə edilir. Bütövlükdə mürəkkəb davranışla əlaqədar müxtəlif qarşılıqlı münasibətlər, əxlaqi kateqoriyalar və qanunauyğunluqlar adamlarda müəyyən mənəvi-əxlaqi ideyalar, təsəvvürlər, hisslər, əhval-ruhiyyələr, vərdişlər və s. doğurur ki, onların da mədəniyyət deyilir. Mədəniyyət elə bir tənzimləyici sistemdir ki, o, cəmiyyətin inkşafını hər bir formasiya və sivilizasiya mərhələsi üçün mütləqdir.

Sinfi cəmiyyət meydana gəldikdə davranış mədəniyyəti özünün bir çox təzahürlərində təkcə məzmunca yox, həm də subyektinə görə sinfi xarakter alır: hakim siniflə istismar olunan siniflərin davranış mədəniyyəti

haqqında dəqiq mühakimələr yürütmək olar. Bu mənada mədəniyyətin aşağıdakı tiplərini qeyd etmək olar: quldar və qulun davranış mədəniyyəti, feodal və kəndlinin mədəniyyəti, burjua və proletarların mədəniyyəti.

Lakin mədəniyyətin sinfi aspektlərini nəzərə alsaq da, onları mütləqləşdirmək olmaz. Məsələ bundadır ki, mədəniyyətdə ümumbəşəri məqamlar da var. Mənasına görə sivilzasiya xarakterli olan ümumbəşəri məqamlar kumlyativ xassələrə malik olan nüvədir-mərhələdən mərhələyə o, hamı üçün əhəmiyyətli olan yüksək əxlaqi idealları və əxlaqi prinsipləri özünün canına çəkir və nəsildən nəsilə ötürür. Ümumbəşəri dedikdə ən sadə əxlaq və ədalət normaları nəzərdə tutulur.

Davranış mədəniyyətinin formalaşdırılmasının məqsədi hakim ictimai münasibətlərin xarakteri və mənəvi dəyərlərdən asılıdır. Burada məqsəd mədəni baxımdan davamlı tam bir şəxsiyyətin formalaşdırılmasından ibarətdir. Bu, davranış mədəniyyətinin istiqamətini və təşkilini təyin edir. Mədəni davranışın formalaşdırılmasıının əsas vəzifələrindən biri tələbə gəncin davranış mədəniyyətinin düzgün təşkil edilməsidir. Davranış fəaliyyətində mənəvi keyfiyyətlər formalaşır, yaranan münasibətlər isə davranış fəaliyyətinin məqsəd və motivlərinin dəyişməsinə səbəb ola bilər ki, bu da öz növbəsində əxlaqi dəyər və normaların mənimsənilməsinə təsir göstərir. Tələbə gəncin davranış mədəniyyəti, həmçinin, onun əxlaqi inkişafının meyarı kimi də çıxış edir.

"Davranış mədəniyyəti" anlayışının çoxlu sayda təriflərinə rast gəlmək olar. Belə ki, lüğətlərdə deyilir: "Davranış mədəniyyəti insanların birgəyaşayış qayda və tələblərinə əməl etmək, ətrafdakı insanlarla davranışda düzgün ton tapmaq bacarığıdır". Davranış mədəniyyəti

insanın gündəlik davranış (əməkdə, məişətdə, ünsiyyətdə) formalarının məcmusudur. Bu davranış formaları davranış tərzini, etiketi, insanın fəaliyyətinin kamilliyini özündə birləşdirir.

“Mədəni davranış” dedikdə, biz məişətdə, ünsiyyətdə, müxtəlif fəaliyyət növlərində cəmiyyət üçün faydalı olan davamlı davranış formalarının məcmusunu nəzərdə tuturuq.

Davranış mədəniyyəti təkcə etiketə formal olaraq əməl etməkdən ibarət deyil. O, mədəni hiss və təsəvvürlərlə sıx bağlıdır. Öz növbəsində mədəni davranış, davranış mədəniyyəti onları qidalandırır.

Tələbə gənclərin davranış mədəniyyətinin kontekstində şərti olaraq aşağıdakı komponentləri qeyd etmək olar :

- Fəaliyyət mədəniyyəti
- Ünsiyyət mədəniyyəti
- Mədəni – gigiyena vərdişləri

Davranış mədəniyyətini təşkil edən elementlərin mahiyyəti aşağıda göstərilmişdir ki, bu da davranış mədəniyyətinin formalaşdırılması üzrə tərbiyə işinin vəzifələrini daha konkret şəkildə izləmk imkanı verir.

Fəaliyyət mədəniyyəti – gənc tələbənin dərsdə, oyunda ,müxtəlif tapşırıqları yerinə yetiriərkən özünü biruzə verir. Tələbə gəncdə fəaliyyət mədəniyyətini formalaşdırmaq onun məşğul olduğu, oynadığı yeri səliqəli saxlamaq bacarığını, başladığı işi başa çatdırmaq, kitabla, əşyalarla səliqəli rəftar etmək vərdişini tərbiyə etmək deməkdir. Fəaliyyət mədəniyyətinin mühüm göstəricilərindən biri tələbə gəncin maraqlı, məzmunlu məşğuliyyətlərə təbii həvəs göstərməsi, vaxtında qənaət etməsidir. Tələbə öz işini və istirahətini tənzimləməyi

bacarmalıdır. Bu, tələbədə əməyin səmərəli təşkili vərdişlərinin formalaşdırılması üçün təməl ola bilər.

Ünsiyyət mədəniyyəti – Tələbə gənclərin böyüklərlə davranış qayda və normalarına əməl etməsini, ictimai yerlərdə, məişətdə nəzakətli davranışını, bu şəraitdə yersiz olan hərəkətlərə, sözlərə, jestlərə yol verməməsini, nitq mədəniyyətini, yəni kifayət qədər söz ehtiyatının olmasını, lakonik şəkildə fikrini ifadə edə bilməsini, sakit tonu saxlamya bilməsini nəzərdə tutur.

Mədəni-gigiyena vərdişləri – Davranış mədəniyyətinin mühüm tərkib hissəsidir. Bədəni, sifəti, saçı, paltarı, ayaqqabısını, məktəb ləvazimatlarını səliqəli saxlamaq təkcə gigiyena qaydalarının tələblərindən yox, həmçinin, insanlar arasındakı münasibətlərin normalarından irəli gəlir. Tələbə dərk etməlidir ki, bu qaydalara əməl etməklə onlar ətrafdakılara hörmət etmiş olur, səliqəsiz insan isə öz xarici görkəmi ilə ətrafdakılara hörmət etmir və belə insan, bir qayda olaraq, işində də səliqəsiz olur.

Yemək mədəniyyətini çox vaxt gigiyena mədəniyyətinə aid edirlər, lakin onun etik aspekti də var: axı stol arxasında oturanın davranışı həm yanında oturanlara, həm də yeməyi bişirənlərə hörmət nişanəsidir.

Beləliklə, biz davranış mədəniyyətinin tərifini, davranışın mədəniyyət kontekstində şərhini göstərmiş olduq. Yeniyetmələrlə gündəlik iş prosesində çalışmaq lazımdır ki, şəxsi gigiyena qaydalarının yerinə yetirilməsi onlar üçün təbii hala çevrilsin. Tələbə gənclərdə şəxsi gigiyena vərdişlərinin formalaşması mədəniyyət davranışının tərbiyəsi ilə bağlıdır. Tələbə gəncləri yemək yemək vaxtı stol arxasında düzgün oturmaq qaydaları ilə tanış etmək lazımdır.

Mədəni-gigiyena vərdişlərinin tərbiyələndirilməsi geniş vəzifələr dairəsini yerinə yetirilməsini nəzərdə tutur. Onların həlli üçün tələbə gənclərin yaş xüsusiyyətlərini nəzərə alaraq bir sıra pedaoji priyomlardan istifadə etmək tövsiyyə olunur: birbaşa təlim, nümayiş etdirmə, didaktik oyunlar prosesində müxtəlif hərəkətli çalışmalar, gənclərlə gigiyena qaydalarına əməl etməyin zəruri olduğunu əsaslandırma və s.

Sosial varlıq kimi insan daimi başqa insanlarla qarşılıqlı əlaqədə olur. O başqaları ilə müxtəlif əlaqələrə girir: ailədaxili, ictimai istehsal və s. Hər ünsiyyət insandan mədəni normalar ilə şərtlənən davranış qaydalarına əməl etmək bacarığını tələb edir.

Böyüklər tələbə gənclərdə hansı mühüm ünsiyyət mədəniyyətini keyfiyyətlərini görmək istərdilər?

Nəzakətlilik – o, insanı başqalarına cəlb edir, ətrafdakılarda simpatiya hissinin yaranmasına səbəb olur. Nəzakət kimi ucuz olan, eyni zamanda onun qədər yüksək qiymətləndirilən heç nə yoxdur. Uşaqların nəzakətliliyi səmimiliyə, xeyirxahlığa, başqalarına hörmətə əsaslanmalıdır.

İltifat - elə etmək lazımdır ki, gənc tələbədə ətrafdakılara diqqət, yardım göstərmək xoş niyyətlərdən irəli gəlsin.

Təvazökarlıq - şəxsiyyətin bu mədəni cəhət əsl tərbiyəliliyin göstərcisidir. Təvazökar insan başqalarına hörmətlə yanaşır, onlara diqqətli və həssas olur, özünə də çox tələbkar olur.

Mehribanlıq – onun əsasında xeyirxahlıq, səmimilik durur. O, tələbə gənclərdə qarşılıqlı münasibətlər qarşılıqlı münasibətlər mədəniyyətinin formalaşmasının zəruri şərtlərinədn biridir. İnsanlara hörmətlə yanaşmanın

kökləri buradan gəlir. Mehriban, ünsiyyətli gənc tələbə öz yerini sinifdə, qrupda daha tez tapır.

Tələbə gəncin hərtərəfli inkişafının zəruri şərtlərindən biri yeni insanın kollektivçilik, yoldaşlıq, qarşılıqlı yardım, təmkinlik kimi əlamətlərinin formalaşdığı həmyaşıdlar cəmiyyətinin olmasıdır. Həmyaşıdları ilə münasibətdə olan gənc əməyə daha tez alışır, məqsədinə nail olmaq bacarığına yiyələnir. Uşağı böyüklər arasında yaşamağa hazırlandırılması onun öz həmyaşıdları ilə münasibətlərini qurmaq bacarığından başlayır.

Tələbə gənclərdə davranış mədəniyyətinin tərbiyələndirilməsi kollektivçilik vərdişlərinin formalaşdırılması ilə əlaqədardır. Tələbə ünsiyyətə can atmanı formalaşdırmaqla böyüklər bu istəyin ən cüzi təzahürlərini belə qeydə alıb həvəsləndirməlidirlər.

Uşaqların onlarla birlikdə sevinmək, razılıq hissini keçirmək, xeyirxahlıq nümayiş etdirmək üçün şərait yaradan iş ətrafında birləşdirmək yaxşı effekt verə bilər. Psixoloq tələbə gənclərin gündəlik həyatını zənginləşdirəcək priyomlardan istifadə etməlidir. Gəncə elementar davranış mədəniyyətini aşılamaq, yəni küsmədən və ya qışqırmadan başqası ilə ümumi bir qərara gələ bilmək, nəyi isə nəzakətlə xahiş etmək, lazım gəldikdə güzəştə gedə bilmək, gözləmək və s. bacarıqlarını tərbiyə etmək lazımdır.

Əmək və davranış mədəniyyəti insanın öz işinə, başqa insanlara, cəmiyyətə münasibətinin göstəricisi olan keyfiyyətlər olmaqla onun sosial yetkinliyindən xəbər verir. Bu keyfiyyətlərin təməli uşaqlıqda qoyulsa da, sonralar inkişaf edir və təkmilləşir. Tələbə gənclər tədris müəssisələrində, küçədə, evdə,yəni fəaliyyət prosesində əşyalarla rəftar mədəniyyətinə yiyələnir. Əgər tələbə gənclərə onun fəaliyyətini təşkil etməkdə köməklik gös-

tərən vərdişəri aşılamasaq, onda onun fəaliyyəti məqsədyönlülüyünü itirib təsadüflərdən asılı olacaqdır. Gənc tələbəyə izah etmək lazımdır ki, istənilən fəaliyyət müəyyən hazırlıq tələb edir, nəyin lazım olacağını əvvəlcədən görmək lazımdır.

Ailə tədqiqatı ilə məşğul olan görkəmli alimlər belə bir ideyanı təsdiqləyirlər ki, müasir gənclərin mənəvi inkişafı biolji inkişafdan 8-10 il geri qalır. Bu o deməkdir ki, gənclər mənəvi cəhətdən ailə həyatına hazır olmadıqları halda, bioloji cəhətdən buna tam hazır olurlar. Bu isə müəllimlər, valideynlər və tərbiyəçilər qarşısında ciddi vəzifələrdən ən başlıcası gənclərin ailə həyatına hazırlanmasıdır. Bu hazırlığı ailədən, uşaq bağçasından, məktəbdən başlamaq, orta ixtisas, texniki peşə məktəblərində, institutlarda davam etdirmək, mənimsənilmiş bilikləri möhkəmlətmək, təkmilləşdirmək qloballaşdırma dövrünün ən aktual problemlərindən biridir. Əgər bir xalq yaradıcılığımıza diqqət yetirsək bunun canlı şahidi olarıq. Bizə aydındır ki, ailə həyatına hazırlıq, ailə qurmaq, onu möhkəmləndirmək, cəmiyyətin əsası kimi qoruyub saxlamaq bütün xalqlarda olduğu kimi bizim xalqımızda da müqəddəs sayılmış və sayılır. Bu baxımdan Azərbaycan xalq ədəbiyyatının ən qədim və möhtəşəm abidələrindən biri olan “Dədə Qorqud” dastanlarında ailə məsələlərinə, toybüsat, qardaş-bacı, bacının-qardaşa, qardaşın-qardaşa münasibətlərinə geniş yer verilmiş, həmin münasibətlər dövrün ictima-siyasi tələbləri baxımından şərh edilmişdir. ( 53, səh. 97)

Dədə Qorqud dastanları böyük el ağsaqqalı, müşkül işləri həll edən, qəhrəmanlara ad qoyan, gələcəkdən xəbər verən Dədə Qorqudun öyüdləri ilə başlayır. Həmin öyüdlərdə qiymətli tərbiyəvi fikirlər, fəlsəfi ideyalar ifadə

edilir və dastanlardakı hadisələr həmin öyüdlərin mahiyyət və məzmununa uyğun olaraq cərəyan edir.

Cəmiyyətimizdə nigah-ailə münasibətləri mənəviyyatının, hüquq qaydalarının, ictimai rəyin, sosial nəzarətin köməyi ilə tənzim edildiyinə görə biz bir neçə ümumtəhsil məktəblərində təhsil alan yuxarı sinif şagirdləri ilə anket sorğuları, müsahibələr apardıq, onları ictimai-faydalı işlərə, ailə-məişət məsələlərinə münasibətlərini müşahidə etdik, onlarda mənəvi tərbiyə, ailə həyatına hazırlıqla sıx bağlı olan tədbirlərdə necə iştirak etmələrinə, çıxışlarına diqqət yetirdik. Məqsədimiz məktəblilərdə ailə həyatına hazırlığın mahiyyətini necə başa düşdüklərini, ailə həyatına hazırlığın səviyyəsini, habelə ailə həyatına hazırlanmaq üçün onların nələrə daha çox diqqət yetirdiklərini öyrənmək idi. Biz məktəblilərə anket sorğularına cavab yazmalarını xahiş etmişdik. Anketə aşağıdakı suallar daxil edilmişdir:

1. Ailə həyatına hazırlığı necə başa düşürsən
2. Hansı yaşdan ailə qurmaq istərdiniz
3. Ailə qurmaq üçün hansi şərtlər lazımdır (qarşılıqlı məhəbbət, inam, etibar, qayğı, uşağın olması, hər hansı bir peşənin olması).

Anket sorğularının təhlilindən aydın olmuşdur ki, yuxarı sinif şagirdlərinin əksəriyyəti ailə həyatına hazırlığın mahiyyətini düzgün başa düşmüşlər. Onlar ümumi şəkildə də olsa ailə həyatına hazırlığın məzmununa ailənin qədrini bilməyi, bir-birini başa düşməyi, ən başlıcası isə ailəni maddi cəhətdən təmin etmək üçün əməkdə iştirak etməyi zəruri hesab etmişlər.

Gənclər ailənin bünövrəsini məhəbbət, inam təşkil etdiyini qeyd edir və deyirlər ki, inam olmayan yerdə ailə

yoxdur. Gələcək həyat yoldaşına inanmadan ailə qurub xoşbəxt olmaq mümkün deyil.

Son illər respublikamızın milli-mənəvi, sosial-iqtisadi həyatında baş verən əsaslı dəyişikliklərə istinad edərək belə qənaətə gəlmək olar ki, bu təkcə cəmiyyətin yalnız sosial-iqtisadi tarazlığını deyil, həm də mənəvi tarazlığını silkələyərək yeni fəaliyyət tərzi, həyata, insanlara, yaşamağa yeni baxışlar, yeni düşüncə tərzi tələb edir. Cəmiyyətin ictimai həyatında mühüm rol oynayan iqtisadi-istehsal münasibətlərinin yenidən qurulması buna gətirib çıxarmışdır ki, qurub-yaradan, nəyi isə inkişaf etdirən insanın özü bugün meydana çıxardığı sosial-iqtisadi dəyişikliklər içərisində dəyişməyə, yeniləşməyə, yeni münasibətlər, yeni keyfiyyətlər əldə etməyə məcbur olmuşdur. Müasir gənclər dərk etməlidirlər ki, harada olursa olsun, tutduğu vəzifəsindən asılı olmayaraq insan öz qürurunu, milli-mənəvi dəyərlərini, milli davranış tərzini həmişə qorumalı, bununla başqalarına nümunəvi təsir mənbəyi olmalıdırlar. On beş illiyi yenicə qeyd etdiyimiz milli respublikamızda həyata keçirilən dəyişikliklər yalnız o halda səmərəli nəticə verə bilər ki, onu həyata keçirən insanlar bütün münasibətlərdə milli-mənəvi hissini hər şeydən uca tutsunlar. Belə bir ağır və çətin vəzifənin yerinə yetirilməsi gənclərin üzərinə düşür. Buna görə də gənclər müasir dəyişikliklərin mənəvi tələbatını ödəmək ruhunda tərbiyə olunmalıdırlar. Həyat sübut etmişdir ki, insanın mənəvi aləminə, onun heysiyyətinə güclü təsir vasitəsi olan sözlə insanları xeyirxahlığa, nəzakət və təvazökarlığa, milli-mənəvi davranış tərzinin gözlənilməsinə doğru istiqamətləndirmək mümkündür.

Bu gün müstəqilliyinə qədəm qoyduğumuz Azərbaycanımız 20 ilin içərisində neçə yüzilliklərin görmədiyi

bir iş görüb: o öz taleyini əlinə alıb, istiqlaliyət qazanıb, müstəqil dövlət yaradıb. Bu yolda çarpışanların, fədakarlıq edib həyatlarını xalqın xoşbəxtliyi yolunda qurban verənlərin qəbirləri üstündə hələ ot bitməyib, qohum-əqrəbaları hələ qara libasdan çıxmayıb, ürəyimizin bir parçasını qoparmış namərd qonşuların xarabalıqlara çevirdiyi şəhər və kəndlərdə qu deyirsən, qulaq tutulur. Və böyük hünər, cəsarət, itkilər bahasına başa gəlmiş azadlıq-onun sütunlarını möhkəmləndirmədən, onun bər-bəzəyini vurmadan, onun başı üzərində xatircəmlik taxtapuşu yaratmadan bizlərə bol maddi və mənəvi həzz verəcəyinə inam bağlamaq olmaz.

Bu gün bizim heç birimiz mötəbər məclislərdə, el-ailə şənliklərində, zamanın, vaxtın xalqmızı bütövlükdə imtahana çəkdiyini unutmağa haqqımız yoxdur.

Əsl xalq birliyinin mənəvi təminatı böyük-kiçik münasibətlərinin bəşəri təsirinə malikliyindən, onun səmimiliyindən, təmənnasızlığından, insanlığın və bütünlüdə insani davranışın bərqərar olmasından, qıtlığın, məhrimiyyətlərin toruna düşüb qalmamaqdan, fəzilətləri uca tutmaqdan ibarətdir.

Əgər ağsaqqal pis əməllərinə görə gənclərin etimadını itiribsə, yaxud yeniyetmə, gənc təkcə baş girləmək, nə yolla olursa-olsun yalnız pul qazanmağı qarşısına məqsəd qoyubsa, özündən böyüklərin üzünə ağ olub, valideynlərinə cavab qaytarır, kiçiklərə biganə münasibət bəsləyirsə, o, özündən küsməlidir. Necə deyərlər: Nə tökübsən aşına, o da çıxar qaşığına.

Ləyaqət, mənəvi zənginlik isə insanın öz daxili mənəvi aləminə müntəzəm nəzər salması, özünü dərk etməsi ilə mümkün olur. İnsan ancaq bu yolla özünün kim

olduğunu, cəmiyyətdə nə üçün yaşadığını, nə kimi mövqe tutduğunu dürüst və dərindən dərk edə bilir.

Tarixi şəxsiyyətlər gözəl deyiblər: Əsl və həqiqi insan odur ki, başqaları onun əlindən, dilindən və əməlindən ziyan görməsin. Görkəmli filosoflar dəfələrlə göstərmişlər ki, insanın mənəvi aləminin məzmununu ədalət, səxavət, şücaət, hikmət, iffət və şəfqət təşkil edir. Şirin dilin və sözün yoxdursa, sus, danışma. Söz var insanı yola gətirər. Söz var insanı yoldan çıxarar. Lovğalığın sonu xəcalətdir.

## Tədqiqatın metodikası

Hər bir tədqiqatın özünəməxsus metodikası və bu metodikaların istinad etdiyi metodologiyası var. Bu metodlardan hər bir tədqiqatın qarşıya qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq istifadə olunur.

Biz tədqiqatımızda əsasən müşahidə, müsahibə, anket, test, eksperiment və digər metodlardan istifadə olunur.

1. Müşahidə metodu – psixi hadisələrin cərəyanına müdaxilə etmədən onu baş verdiyi təbii şəraitdə məqsədəuyğun və müntəzəm surətdə izləmək nəzərdə tutulur. Müşahidə psixoloji faktları öyrənmək, təsbit etmək əhəmiyyətinə malikdir.

2. Müsahibə metodu – İctimai rəyi, şəxsiyyətlərarası münasibətləri və s. öyrənmək üçün tətbiq edilən metodlardan biridir. Bu zaman hər hansı məsələ haqqında müəyyən mülahizəsi soruşulur.

3. Anket – Suallara yazılı surətdə cavab verilir. Həmin metoddan sosioloji tədqiqatlarda daha geniş miqyasda istifadə edilir.

4. Eksperiment – Eksperimentin obyekti sadəcə canlı orqanizm deyil, yüksək şüura malik insandır. Onlar əxlaq və davranış normaları və s. barədə nəinki müəyyən biliklərə malikdir, həm də həmin biliklərin mənbəyini və təşəkkül yollarını bilirlər.

5. Test metodu – Testlərin psixodiaqnostik əhəmiyyəti onların elmi cəhətdən nə dərəcədə əsaslı olmasından bilavasitə asılıdır.

Azərbaycan xalqına xas olan milli – mənəvi dəyərlərin psixoloji baxımdan araşdırılmasında bir neçə metodlardan istifadə etmək olar. Burada ənənəvi metodlarla yanaşı, problemin spesifik xüsusiyyətlərindən irəli gələn metodlardır.

Yeri gəlmişkən qeyd etməliyik ki, hər bir elmin metodikası (üsul, vasitə deməkdir) onun metodologiyası ilə bağlıdır. Müasir psixologiyada metodologiya üç mənada işlədilir: ümumi metodologiya, xüsusi metodologiya, metodologiya konkret metodik priyomların məcmusu kimi.Ümumi metodologiya dedikdə tədqiqatların istinad etdiyi fəlsəfi yanaşma, xüsusi metodologiya isə müvafiq elm sahəsində (məsələn,şəxsiyyət psixologiyası) tətbiq edilən metodoloji prinsiplərin məcmusu nəzərdə tutulut. Elmin prinsipləri elmin metodoloji əsaslarını təşkil edir.

Milli-mənəvi dəyərlərin mahiyyəti və psixoloji baxımdan tədqiqində K.Yunqun nəzəriyyəsinə toxunmamaq olmaz. K.Yunqa görə şəxsiyyət dörd əsas elementi özündə daxil edir: şüur, şəxsi şüursuzluq, şüursuzluq, kollektiv şüursuzluq... Kollektiv şüursuzluğu həqiqi mənada K.Yunqun ən böyük kəşfi hesab etmək olar. Bu kəşf onun adını ölməz etmişdir.K.Yunqun fikrincə, yeni doğulmuş uşaq yaşayıb böyüdükcə yaşlılıq dövründə onun davranışını şərtləndirən anadangəlmə tendensiyalar öz

əksini tapır. Bu tendensiyalar K.Yunqun tərəfindən arxetiplər adlandırılmışdır. Arxetiplər nəsildən-nəslə keçirilən, insan şüurunda bilavasitə öz əksini tapan surətlərin, istək və davranış formalarının fövqəladə mürəkkəb əlaqəsindən ibarətdir.

Bu nəzəriyyələrdə şəxsiyyətə müxtəlif yanaşmalar olsa da, vahid prinsipə, yəni son nəticədə şəxsiyyətin ictimai, sosial varlıq olmaqla tamlığı, bütövlüyünü hamı tərəfindən xüsusilə vurğulanır.

Bu dünyanı qloballaşan bütün sahələrdə əsaslı dəyişikliklər gedir, gənclərin ictimai fərdi şüuru yeniləşir, bu əsasda da onlar həm ictimai-sosial həyata yeni münasibət göstərir və özlərinə də həmin münasibətləri tələb edirlər. Belə bir yeniləşmə gəncin psixoloji sferalarında (təfəkkür,təxəyyül, hisslər, duyğu və qavrayış, yaddaş, qabiliyyət, maraq, xarakter və s.) köklü dəyişiklilər yaradır.Belə bir dinamik inkişaf gənclərin sosial psixoloji baxımdan öyrənilməsinə daha real metodoloji yanaşmalar tələb edir. Bu cür metodoloji yanaşmalar çoxdur. Onların hamısını göstərib onlara münasibət bildirmək, mahiyyətini açıqlamaq təbii ki, ayrıca bir tədqiqatın mövzusudur. Ona görə də onların bəzilərinə toxunmaqla kifayətlənəcəyik. Biz yuxarıda qeyd etdik ki, nəzəriyyələrin hamısında şəxsiyyətin tamlığı, bütövlüyü, strukturluğu qəbul olunur. Şəxsiyyətin psixologiyasına bu cür yanaşma sistemli-struktur təhlil metodologiyasında daha çox diqqət mərkəzində olur.

Milli-mənəvi dəyərlərimizdə də dağınıq və səpələnmiş halda olsa da bu prinsip gözlənilir.

Sistemli struktur təhlil metodologiyası gənclərin öyrənilməsində bütövlülük, strukturluq, ətraf mühitlə

qarşılıqlı əlaqəlilik, hissi və məntiqi idrakın vəhdəti və s. kimi müddəaları özündə əks etdirir.

Gənclərin davranış mədəniyyətinin formalaşması yollarının tədqiqində həmin metodologiyadan geniş istifadə olunur. Bu təsadüfi deyil. Bu ondan irəli gəlir ki, həmin metodologiyaya istinad edərək, gənclərin ictimai-sosial həyat sxemi kimi əsas götürülür. Burada insan ictimai münasibətlərin məcmusu kimi götürülür. Bununla yanaşı, şəxsiyyətin öyrənilməsində tətbiq edilən sistemli-struktur təhlil metodologiyası zaman bir sıra şərtlər gözlənilməlidir. Yadda saxlamaq lazımdır ki, şəxsiyyətin bütövlüyü dedikdə, onun sosial keyfiyyətlərinin, davranışının, ünsiyyət formalarının sadəcə olaraq sadalanması nəzərdə tutulmur. Burada əsas məsələ onların (daxili psixoloji aləmi) bütöv bir vəhdət halında çıxış edərək şəxsiyyəti necə səciyyələndirmələri nəzərə alınmalıdır. Bu ona görə zəruridir ki, həmin prosesdə öyrənilən şəxsiyyətin strukturu onun daxili düzgünlüyünü ifadə edir.

Sistemli-struktur təhlil metodologiyası belə bir müddəaya əsaslanır ki, şəxsiyyətin sosial-psixoloji təhlili zamanı onun bütövlüyünü, strukturu, ətraf mühitlə qarşılıqlı əlaqəsi, iyerarxiyalılıq (çoxpillələlik) nəzərə alınmalıdır. Şəxsiyyətin öyrənilməsində çıxış nöqtəsi onun bədən quruluşuna malik olan obyekti deyil, onun həyatını ifadə edən müxtəlif psixoloji sistemlər böyük rol oynayır.

Buraya onun təfəkkür və hisslərini, arzu və xəyalını, fərdi-psixoloji xüsusiyyətlərini (xarakterini, qabiliyyət və temperamentini), iradəsini, əqidə və inamını, bütövlükdə həyat mövqeyini də aid etmək olar. Azərbaycan milli mənəvi dəyərlərində sistemsiz, dağınıq şəkildə olsa da bu barədə istənilən qədər müasir dövrlə səslənən materiallar əksini tapır.

Azərbaycan milli-mənəvi dəyərlərində də davranış mədəniyyətinə aid belə yanaşmalar özünü göstərir. " Dil qılıncdan çox öldürər", "Dəli dəlini görəndə çomağını gizlədər", "İş gəzər sahibini tapar", "Öz çörəyini özgə süfrəsində yemə", "Səbr eyləyən muradına yetər", "Sənətə gəc baxan ac qalar", "Suyun lal axanı adamın yerə baxanı", "Su kiçiyindir, süfrə böyüyün", "Heç kimin çırağı səhərəcən yanmaz", "Şərikli qazan qaynamaz", "Adam adama gərəkdir", "Haqq sözü acı olar", "Söyüddən çinar olmaz" kimi xalq deyimləri buna misal ola bilər.

Müasir elmi idrakın metodologiyasının zənginliyi şəxsiyyət fenomeninin mürəkkəb və çoxcəhətli məzmununu araşdırmağı imkan verir. İndi şəxsiyyət bir elmin, tutaq ki, pedaqogikanın, fəlsəfənin, psixologiyanın hüdudlarından kənara çıxaraq fənlərarası təhlil obyektinə çevrilib. Artıq şəxsiyyətə belə yanaşmalar xüsusi bir elmin insanşünaslıq elminin formalaşmasına gətirib çıxarır. Bu elmlərdə şəxsiyyət yeni məzmunda öyrənilir. Yəni onun məna və obyekti çoxlu sahələrə şaxələnir.

Bu metodoloji prinsip onu əsas götürür ki,gənclərin mədəni davranışında təzahür edən funksional rolu etnik, irsi, bioloji xarakter daşıyır. Burada etni stereotiplərin təsir dairəsi genişlənir. Həmin prosesdə milli mənlik şüurunun inkişafı, milli özünüdərk,özünüqiymətləndirmə, milli dəyərlərə, tarixi keçmişə qayıdış, mili-mənəvi irsin və dilin qorunmasına qayğı və digər amillər şübhəsiz ki, şəxsiyyətin mənəvi zənginləşməsinə, onun bir şəxsiyyət kimi təkmilləşməsinə təkan verir. Burada milli əlahəddilik, mənsub olduğu millətin və qrupların, başqalarından üstün olması haqqında təsəvvürlər, öz normal həddini aşması, millətçilik ideyaları, millətçi şovinizmi və s. istisna edilmir. Azərbaycan milli-mənəvi dəyərlərində bu meto-

doloji prinsiplərə də dolayı yolla da olsa geniş yer verilmişdir.

Bu metodoloji prinsipə görə gənclərin davranış mədəniyyətinin formalaşması prosesində sosial psixoloji hadisələrə bağlı irsi, bioloji filogenetik təcrübənin rolu da nəzərə alınmalıdır. Əlbəttə ictimai-sosial təcrübə ön planda götürülmək şərti ilə.

"Adam min acını udar bir şirinin xatirinə", "İnsan daşdan bərk, güldən zərifdir", "Adamın başına nə gəlsə, dilindən gələr", "Adam hər düşməndən bir şey öyrənər", "Yüz ölç, bir biç" Azərbaycan milli mənəvi dəyərlərində şəxsiyyətin inkişaf edib formalaşmasında həmin amillərin nəzərə alınması tövsiyə olunur.

Azərbaycan milli mənəvi dəyərlərində gənclərin əsas şəxsi keyfiyyətlərində olan özünüdərk və özünüqiymətləndirməsində də xüsusi fikir verilmişdir.

Ümumiyyətlə gəncin bütün psixi həyatı sosial xarakter daşıyır. Yəni insan ictimai münasibətlərdə bütövləşir, şəxsiyyətə çevrilir. İnsan sosial-ictimai varlıq kimi həmişə bu sosial köklərdən qaynaqlanır. İnsan həmişə tək olanda bu aləmin qaynaqları ilə yaşayır.Şəxsiyyətin sosializasiyasının kökləri isə çox qədim dövrlərə gedib çıxır. Bu sosial-psixoloji köklər qədim insanların mif təfəkkür qaynaqlarıdır. Qədim insanların sosial münasibətləri haqqında ilk təsəvvürlər yaradırlar. Empirik şəkildə olsa da insanlar "mən", "qeyri-mən", "yaxşı adam", "pis adam", "qanı acı", "dili şirin", "zəhər tuluğu", "mərd", "namərd", "əliaçıq", "ədalətli" və s. deyimləri ilə adamlar haqqında yeni anlamlar yaradırlar. Bununla da minlərlə insanlar üçün etalon və stereotiplər yaranırdı. Onlar başqa adamları gündəlik həyatda, ünsiyyət zamanı müşahidə edir, davranışlarındakı müxtəlifliyin gizli psixoloji fakt-

larını axtarırdılar. Bu yolla insanın şəxsiyyət kimi formalaşması haqqında sadə şəkildə olsa da təsəvvürlər yaranırdı. Onlara görə insanda ədalət, alicənablıq, düzlük, nəciblik, vicdan, ləyaqət, mənlik və əxlaqi şüur, mənəvi kamillik, yaxşılıq, xeyirxahlıq kimi keyfiyyətlər uca rütbədir.

## Nəticə

Gündəlik müşahidələrə, tanış olduğum ədəbiyyatlara, apardığım təcrübələrə istinad edərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Azərbaycan gəncləri öz mədəni adət və davranışlarında xalqımızın soykökünə, qan yaddaşına çox böyük yer verirlər. Bəzi istisnalar olmaqla, gənclərimizin çoxu bütün davranışlarında elin, obanın, ulularımızın nəsihətlərini, vəsiyyətlərini əsas götürürlər.

2. Tədqiqat göstərdi ki, gənclərimizin hamısı yekdilliklə ulu öndərimiz Heydər Əliyevin irsindən bəhrələnərək, onun ideyalarını özləri üçün qürur məktəbi sayırlar.

3. Gənclərimizi dövlətçiliyimizin inkişafında yaxından iştirak edir və özlərinin elmi ilə, mədəniyyəti ilə, fiziki kamiliyyi ilə ölkəmizin iqtisadiyyatının, mədəniyyətinin inkişafına köməklik göstərirlər.

4. Aydındır ki, ölkəmizdə 20 ildən çoxdur ki, erməni separatçılarının mənfur etnik təmizləmə siyasətinin nəticəsində bir milyondan artıq qaçqın, köçkün var. Torpaqlarımızın 20%-i işğal olunub. Lakin Azərbaycan gəncləri ruhdan düşməyib, ermənilərə qan uddurararaq şücaət və qəhrəmanıq göstərirlər. Mübariz İbrahimov, Fərid Əhmədov kimi qəhrəmanlarımızla fəxr edirik.

5. Qloballaşma ilə əlaqədar olaraq gənclərimizin bəzilərində əxlaq və mədəniyyətmiziə zidd olan bəzi mənfi davanışlara rast gəlirik.Burada televiziya verlişlərinin, internet şəbəkələrinin də bir sıra mənfi cəhətlərini yaddan çıxarmamalıyıq.

6. Gənclərimizidə müsbət davranış qaydalarının formalaşmasında ailə mühitinin çox böyük rolu vardır.

Təcrübə göstərir ki, normal ailələrdə əksər hallarda gənclərimiz sosial davranış normalarına əməl edir, assosial davranışa meylli hərəkətlərdən əl çəkirlər.

7. Tələbə gənclərlə aparılan sorğulardan, müşahidələrdən məlum olur ki, tələbə gənclərdə asosial davranışlar ən çox onların düşdüyü qruplarla, mühitlə, ailə mədəniyyəti ilə əlaqədar olur.

8. Ata tərbiyəsi, ana qayğısı olmayan ailələrdə narkomaniya, sərxoşluq, siqaret çəkmək, kobudluq kimi hallar yaranır

9. Azərbaycan gənclərində mədəni davranış xüsusiyyətlərinin inkişafında, təlim-tərbiyə işləri ilə yanaşı, əlaqədar təşkilatlar, xüsusilə valideynlər məşğul olmalıdırlar.

**Ədəbiyyat**


1. Abbasov A, Ümumtəhsil məktəbinin yuxarı sinifləri üçün proqram, Bakı, 1986
2. Ağayev.Ş. Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi. Bakı..1962
3. Ağayev.Ş.S Sovet gənclərinin mədəni davranışı haqqında Bakı Maarif 1956
4. Axundova.S. Şagirdlərin əxlaq tərbiyəsi. Bakı..1962
5. Ailə tərbiyəsi.Valideynlər üçün lüğət.Bakı : Maarif 1970
6. Azərbaycan Sovet ensiklopediyası, I cild, Bakı...1982, 598 səh
7. Babayeva N. M Uşaqların məktəb təliminə hazırlanmasında mədəni davranış və intizam tərbiyəsinin rolu Magistrlıq dissertasıyası Bakı 2009

8. Baxşəliyev Ə.T Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti, Bakı 2008
9. Bayramov Ə.S. Özünütərbiyə haqqında // Azərbaycan məktəbi, 1972, № 10
10. Bayramov.Ə.S Uşaqlarda məsuliyyət hissinin tərbiyəsi, Bakı: Maarif 1962
11. Bayramov.Ə.S, Əlizadə.Ə, Psixologiya. Bakı Çinar çap 2002
12. Dadaşova T. Yeniyetməlik dövrünün ziddiyyətləri və onların tərbiyə prosesində nəzərə alınması // Azərbaycan məktəbi, 1975, №6.
13. Davranış etikası. Bakı, 1955
14. Əfəndiyev.Ə.T Uşaqlarda yoldaşlıq və dostluq tərbiyəsi,Bakı Azər tədris nəşr, 1962
15. Əkbərov.N, Bayerli.A, Qubalı.E, Hz.Məhəmmədin (s.ə.s) həyat və əxlaqının tarixi.Bakı N/R nəşriyyat-poliqrafiya birliyi, 2002
16. Əliyev H.Ə Müstəqil dövlətimizin gələcəyini bu günün gəncləri qurmalıdır. Bakı, Azərnəşr, 1993
17. Əliyeva T.S Müasir mərhələdə qızların hərbi-vətənpərvərlik tərbiyəsi (XI respublika elmi konfransı, ali məktəb aspirantlarının konfransı), Bakı, 1988
18. Əlizadə Ə.Ə Uşaqlarda düzgün və doğruçuluq tərbiyəsi Azərbaycan məktəbi, 1965
19. Əlizadə Ə.Ə, Abbasov A. Ailə həyatının etika və psixologiya kursuna dair metodik tövsiyələr Azərbaycan məktəbi, 1987
20. Əlizadə Ə.Ə, Ailə həyatının etika və psixologiyası. Bakı Maarif, 1986.

21. Əlizadə Ə.Ə. Cinslərarası seçmənin psixoloji məsələləri haqqında V.İ.Lenin adına APİ-nin elmi əsərləri, 1974
22. Əlizadə Ə.Ə. Uşaqların cinsi tərbiyəsinin bəzi məsələləri haqqında Azərbaycan məktəbi, 1964 №12
23. Əlizadə Ə.Ə., Abbasov A. Ailə həyatının etika və psixologiyası. Bakı, 1989.
24. Əlizadə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, B.,Ozan nəşriyyatı, 1988
25. Əlizadə.Ə. Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi. Bakı..1963
26. Fətəliyev X.Q Ailədə milli tərbiyə. Bakı, 1997
27. Həmzəyev M. Ə, Tərbiyə prosesinin psixoloji əsasları Azərbaycan məktəbi,1986
28. Həsənov.A, S.Axundov, Ailədə uşaqların əxlaq tərbiyəsi, Bakı Maarif 1991
29. Həsənov.H, Ağayev.Ə. Pedaogika Bakı Nasir 2007
30. Həsənova E.F Yuxarı sinif şagirdlərində ünsiyyət mədəniyyətinin formalaşdırılması yolları Magistrlıq dissertasiyası Bakı 2003
31. Həşimov Ə, Sadıqov F. Azərbaycan xalq pedaqogikası, 1995
32. Hökümə Əliyeva, Şahnaz Məsimova Münasibətlərin göyqurşağı 2010
33. Xacə Nəsrəddin Tusi.Əxlaqi Nasiri. Bakı..1980
34. İbrahimov X. İrsiyyət mədəniyyəti və şagird kollektivində onun formalaşdırılması yolları. Nam.dis.avtoreferat.B.,1991
35. İbrahimov X. Pedaqoji ünsiyyət mədəniyyətinin bəzi problemləri, “Azərbaycan məktəbi” jurnalı, 1991

36. İslamın prinsipləri. İstanbul, 1991
37. Qədirov Ə.Ə. mədəni davranış və onun tərbiyəsi. Bakı 1970
38. Quliyev S. Quliyeva M. Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri. Bakı 2013
39. Quliyev S.M. Gəncliyin davranış və nəzakət tərbiyəsi. Bakı, 1997
40. Quliyeva M.A. Müasir Gəncliyin əxlaq normaları. Bakı, 2002
41. Mehdiyev Ə.Ə. Yeniyetmə və gənclərin fiziki hazırlıq və hərbi vətənpərvərlik tərbiyəsinin aktual məsələləri. Bakı 1994.
42. Müstəqil Azərbaycan Respublikasının mədəniyyət siyasəti konsepsiyasına dair http//www. iqtisadiyyat.com(23/01/08)
43. Neymark M.S. Tərbiyə psixologiyası Azərbaycan məktəbi, 1972
44. Nuriyeva Ü. N Yeniyetmələrin əxlaqi davranışının formalaşdırılması, Magistrlıq dissertasiyası Bakı 2009
45. http//www.psixologiya.uz
46. Paşayev Ə.X, Rüstəmov F.A Pedaqogika, Yeni kurs, Bakı Nurlan, 2007
47. Tağıyev Ə. Uşaqda mədəni rəftar və nəzakət tərbiyəsi. Bakı, 1956
48. Talıbov Y.K, Sadıqov F.B, Quliyev.S.M Gənclərin mənəvi tərbiyə problemləri, Bakı Ünsiyyət, 1998
49. Yusif Talıbov, Fərahim Sadıqov, Sərdar Quliyev. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı, 1998
50. Yusifzadə A. Mədəni davranış tərbiysəində mək-təblə ailənin birgə hərəkətləri. Bakı, 1969

51. İ. P. Pavlov əsərləri. Rus dilində. IV, moskva 1952, 355s.
52. A. A. Bakıxanov seçilmiş əsərləri. Bakı, 1986.305 s.
53. Bayramov Ə. Kitabi Dədə Qorqud dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası. Bakı, 2000, 500 səh

# Fəsil 2.Azərbaycanlı gənclərdə mədəni davranış və adətlərin təzahür formaları və inkişafına təsir edən sosial-psixoloji amillər

## Gənclərdə mədəni davranışın təzahür formaları

İnsanların davranış mədəniyyəti bəşəriyyətin min illər boyu yaratdığı müəyyən qaydalara əməl edilməsinə əsaslanır. Orta əsrlərin axırlarında etibarən bu qaydalar etiket adlanır.

Etiket davranış mədəniyyətinin yalnız formalarını, texniki cəhətlərini-müsahibin hisslərinə toxunmadan necə mübahisə etməyi, necə davranmağı, özünü necə təqdim etməyi və s. məsələləri müəyyənləşdirir. Buna görə də mədəni, tərbiyəli adam sayılmaq üçün etiket qaydalarını sadəcə bilmək kifayət deyildir. Gənclərdə özünü biruzə verən mədəni davranışın təzahür formaları aşağıdakılardır:

Nəzakətlilik – İnsanın mədəni davranışının əsas əlamətlərindən biri nəzakətlilikdir. Nəzakətlili mədəni davanışın ayrılmaz hissəsi olub başqa adamlara hörmət göstərməkdə, qayğılı münasibət bəsləməkdə ifadə olunur. Nəzakətlilik hər şeydən əvvəl yaşlılara, əlil və xəstələrə, qadın və uşaqlara hörmət etməklə, onlara qayğıkeşlik göstərməklə bağlıdır. (17, səh. 17)

Böyüklərə hörmət zəruri və vacibdir. Gənclərin həyatında yaşlıların mühüm rolu və gənclərin onlara hörmətcil münasibəti xalqın uzun illik nəcib təcrübəsini əks etdirən atalar sözündə də öz ifadəsini tapmişdır. “Allahsız yerdə otur,böyüksüz yerdə oturma”, “Böyüyə hörmət vacibdir”, “Böyük olan yerdə kiçi danışmaz”, “Qocanın biliyi, cavanın isə biləngi” məsəlləri gənclərin yaşlılara münasibətini göstərir.

Yaşlılarla yanaşı olaraq əlil və xəstə adamlara da hörmət etmək lazımdı. Çünki onlar bu hörmətə, qayğıkeşlik, yoldaşlıq və dostluq köməyinə möhtacdırlar. Bu hörmət həm işdə, həm də müxtəlif ictimai yerlərdə, küçədə, metroda göstərilməlidir. Uşaqlara qayğıkeşlik göstərmək və yaşlılara göstərilən hörmət və qayğı kimi zəruridir. Uşaqların da yaşlıların yardımına ehtiyacı var. Bundan başqa uşaqlar bizim gələcəyimizdir. Onlar gələcəkdə bizi əvəz edəcək, bizim istirahətimizi, qocalarkən bizim yaşayışımızı təmin edəcəklər.

Nəzakətlilik qadına, qızlara böyük hörmət göstərib, onlara böyük qayğı ilə yanaşmaqda da ifadə olunur. Çünki kişilər adətən fiziki cəhətdən qadınlardan qüvvətli, əziyyətə daha dözümlü olurlar. Analar bundan əlavə gənc nəslin tərbiyəçiləridir. Ailənin ən məsul, ən çətin vəzifəsi bütün ailə üzvlərinin qayğısına qalmaq adının üzərinə düşür. İnsanların davranışında nəzakətliliyin kök salması bizim yaşayışımızı asanlaşdırır, şəxsi məişətdə və ictimai həyatda bizi ən kiçik inciklikərdən belə azad edir. Doğrudan da hamı bir-birilə nəzakətlə dolansa, bir-birlərinə qayğıkeşlik göstərib, başqalarının suallarına diqqətlə cavab versə, məmnuniyyətlə bir-birlərinə hörmət və kömək etsə, xəstələri və qocaları çətinliklərdən qurtarmağa çalışsa, yaşayış asan və gözəl olardı.

Nəzakətlili insanlar arasındakı yoldaşlıq və dostluq münasibətində ifadə olunmalıdır. Buna görə də nəzakətlilik ancaq yaşlılara, əlil, xəstə, qadın və uşaqlara hörmət edib qayğıkeşlik göstərməkdə deyil, insanın öz yoldaş və dostlarına da hədsiz qayğı göstərməsində, onlarla diqqətli və həssas olmasında ifadə olunur.

Başqa adamlara hörmət etmək, onlarla nəzakətlə davranmaqda əsas şərtlərdən biri, işdə və sözdə dəqiq

olmaqdır. Dəqiqlik insanın nəzakətliliyini, onun başqa adamlara qədir qoyduğunu göstərən əxlaqi keyfiyyətlərdəndir.

Dəqiqlik insanın əmək fəaliyyətində, onun başqa insanlarla münasibətində mühüm rol oynayan mədənilik əlaməti, həyatımız üçün mühüm olan əxlaqi bir normadır. Dəqiqliyin olmaması son nəticədə nəzakətsizliyə gətirib çıxarır. Dəqiqlikdə bizim əxlaqımızın əsas prinsipi daim kollektivi düşünmək prinsipi təzahür edir. Dəqiqliyə böyük qiymət verərək onun insanın öz vaxtını və başqasının vaxtını qiymətləndirməyin, başqasına hörmət etməyin ən vacib formalarından biri olduğunu göstərmişlər. O, insanı başqalarına cəlb edir, ətrafdakılarda simpatiya hissinin yaranmasına səbəb olur. Nəzakət kimi ucuz olan, eyni zamanda onun qədər yüksək qiymətləndirilən heç nə yoxdur. Uşaqların nəzakətliliyi səmimiliyiə, xeyirxahlığa, başqalarına hörmətə əsaslanmalıdır.

İnsanlar yalnız öz hərəkətlərilə deyil, sözlərilə də başqalarına pis təsir edəbilər. Xalq arasında deyildiyi kimi "Gedər xəncər yarası, getməz söz yarası". Danışdıqda nəzakətlilik insanın öz danışığı zamanı müraciət qaydalarına düzgün riayət etmələrilə əlaqədardır. Xahiş edirəm, üzr istəyirəm, çox sağolun, minnətdaram və s. kimi ifadələr mədəni adamın ən çox işlətdiyi sözlərdir.Bunlar insanın kefinə, əhvalına, onun rəftar və davranışına böyük təsir edir. Çünki, insanlar bu ifadələrlə başqalarına hörmət etdiklərini, onlara diqqətli münasibət bəslədiklərini bildirir, onlara salamatlıq, xeyirxahlıq arzu edirlər. Azərbaycanın böyük mütəfəkkiri və humanist şairi Nizami haqlı olaraq yazır:

Çalış ədəbli ol hər sözündə sən
Ədəblə danışsın səni dinləyən

Əqilli bir işdir yumşaq danışmaq
Axmağın işidir kobudluq ancaq

Nəzakətli adam hər evdə və hamı ilə nəzakətli olmalıdır. Lakin, bəzi hallarda nəzakətliliyi dar mənada başa düşənlər də olur. Bəzən gənclər nəzakətliliyi qorxaqlıq və yaltaqlıqla qarışdırırlar. Başqalarına hörmət edən, onlara həssalıq göstərən adamlara bəzən yaltaq, digər hallarda isə qorxaq adam kimi qiymət verirlər. Həqiqətən bəzi yaltaq və qorxaq adamlar ancaq yaltaqlıq və qorxaqlıq üzündən hörmət edir, özünü nəzakətli göstərirlər. Əgər insan başqasının vəzifəsindən, geyimindən, tutduğu mənsəbdən, ona tabe olub-olmamasından asılı olmayaraq hər evdə və hər zaman ona hörmət edib qayğıkeşlik göstərirsə, bu əsl nəzakətlilikdir. Əgər adam yalnız asılı olduğu, işi düşdüyü adamlara hörmət edir və yalnız müəyyən şəraitdə hörmət edirsə, bu yaltaqlıq və qoxaqlıqla əlaqədar olan nəzakətlilikdir.

Başqalarına qarşı güzəşt etmək, onlara qayğı göstərərkən bir şeyi nəzərdə tutmaq lazımdır. Qayğı göstərərkən, güzəşt edərkən həmin adamdan əvəzində heç bir şey hətta təşəkkür belə gözləməmək, əsl əxlaqlı hərəkətdir. Əgər qayğı göstərdiyimiz şəxs bunun müqabilində bizə təşəkkür edirsə, bu, onun öz işidir. Biz başqasına qayğı göstərərkən, bunu heç bir təşəkkür xatirinə etməməliyik, onu sadəcə olaraq öz əxlaqi borcumuzu yerinə yetirir kimi ifadə etməliyik.

Nəzakətlilik qanacaq məfhumu ilə çox əlaqədardır. Qanacaq ətrafda nələr baş verdiyini, kimlərin olduğunu hiss etmək, icra edəcəyi hərəkətin,deyəcəyi sözlərin nə ilə nəticələnə biləcəyini qabaqcadan hiss etmək, günün tələbatını duymaq qabiliyyətindən ibarətdir. İnsanın qanacaqlılığına A.S.Makarenko böyük qiymət verərək, bunu

orientasiya qabiliyyəti, yəni ətraf mühitə bələdləşmək, düzgün istiqamət götürmək qabiliyyəti adlandırır və göstərir ki, qanacaq insanın mədəni davranması üçün ən mühüm sifətlərdən biridir. Qanacaq heç də şəraitə uyğunlaşmaq və lazım olduqda cildini dəyişmək demək deyildir. Qanacaq o deməkdir ki, insan özünün hansı yerdə olduğunu hiss etməli və buna əsasən öz qarşısında öz davranışı barəsində nə kimi vəzifələr durduğunu bilməlidir. Məsələn, qanacaqlı adam xəstənin yanında ölüm hadisəsindən danışmaz, məclisdə başqalarını darıxdrıan uzun söhbət etməz, başqalarının könlünə toxuna bilən söz deməz. İnsan həmişə ətrafındakıları görməli,ətrafını hiss etməlidir. Adam öz dostları arasında olduqda özünü bir cür, yeni adamlar içərisində başqa cür, qarşısından qadın və yaz qız keçdikdə tamamilə başqa cür aparmalı və beləliklə düzgün istiqamət götürməyi bacarmalıdır.

Nəzakətli adam başqalarına böyük hörmət, böyük qayğı göstərməklə bərabər, öz qədrini və ləyaqətini bilir,çünki öz qədrini bilməyən, başqasının qədrini bilməz. İltifat – elə etmək lazımdır ki, gənclərdə ətrafdakılara diqqət, yardım göstərmək xoş niyyətlərdən irəli gəlsin.

Təvazökarlıq – şəxsiyyətin bu əxlaqi cəhəti əsl tərbiyəliliyin göstərcisidir. Təvazökar insan başqalarına hörmətlə yanaşır, onlara diqqətli və həssas olur, özünə də çox tələbkar olur. Təvazökarlıq, digər tərəfdən, insanın öz bilik və bacarıqları ilə qənaətlənməməsində, daim biliyini artırmasında və müvəffəqiyyətlərə arxayınlaşmamasında ifadə olunur. Təvazökar adam başqa adamların bilik və bacarığına hörmət edir, onlardan daim öyrənməyə cəhd edərək onların bilik və təcrübəsinə hörmət göstərir. Bunun üçün də təvazökar adam həmişə öz rəftar və davranışına tənqidi bir şəkildə yanaşır. Öz səhvlərini utanmadan

aşkarda etiraf edir və bu səhvləri düzəltmək əsasında yeni bilik, bacarıq və vərdişlərə yiyələnir. Deməli, təvzaökarlıq insanın zülmə qarşə tələbkar və tənqidi olmasında da ifadə olunur.

Təvazökarlıq insanın öz qüvvəsini düzgün qiymətləndirməsində, onu şişirtməsində, beləliklə başqasına xor baxmamasında ifadə olunur. Təvazökar adam heç zaman özü haqqında yüksək fikirdə olmaz, başqalarına da heç zaman aşağı nəzərlə baxmaz. Yalnız belə olduqda təvazökarlıq insanın zinətinə çevrilər, onu daha da qəşəngləşdirər,çünki ağac bar verdikcə başını aşağı əyər.

İnsan özünü daha yüksək tutmağa çalışdıqca,öz qüvvə, bilik və bacarığını həddindən artıq qiymətləndirdikdə, öz qəşənglik və zinətini xeyli azaldır,lovğalığa doğru meyl edir. Lovğalıq isə mədəniyyətsizlik əlamətidir. Lovğalanan adamın vəziyyətini biyabırçı, gülünc, hətta çox təhlükəli bir vəziyyət adlandırmaq da olar. Təvazökar adam öz rütbə və vəzifəsini, məşhur adam olduğunu, öz xidmət və müvəffəqiyyətlərini heç zaman qabarıq şəkildə biruzə verməz. Gənclər heç zaman öz müvəffəqiyyətlərini şişirtməməlidirlər. Bu heç də o demək deyildir ki, təvazökar adam öz müvəffəqiyyətlərini guya gizlətməli, vəzifəsindən danışmamalı, öz nailiyyətlərini sir kimi saxlamalıdır. Əksinə, təvazökar adam öz müvəffəqiyyətlərini heç zaman unuda bilməz. Lakin, onlardan bəhs etmək lazım gəldikdə, öz müvəfəqiyyətini kolektivin müvəffəqiyyəti fonunda təsvir etməli, özündən, müvəffəqiyyət əldə etmiş yoldaşları ilə birlidə danışmalıdır.Öz müvəffəqiyyətini fövqəladə bir şey kimi, qələmə verməməlidir. Onu adi bir vəzifə, borc kim saymalı, daha da yüksəltməyə səy etməli, yoldaşlarının da müvəffəqiyyətinə

çalışaraq öz təcrübəsini onlara verməlidir. Təvazökar adam məhz belədir.

Mehribanlıq – onun əsasında xeyirxahlıq,səmimilik durur. O, gənclərdə qarşılıqlı münasibətlər mədəniyyətinin formalaşmasının zəruri şərtlərindən biridir.İnsanlara hörmətlə yanaşmanın kökləri buradan gəlir. Mehriban, ünsiyətli gənclərdə öz yerini qrupda, kollektivdə daha tez tapır. (81. səh 17)

Gənclərin hərtərəfli inkişafının zəruri şərtlərindən biri yeni insanın kollektivçilik, yoldaşlıq, qarşılıqlı yardım, təmkinlik kimi əlamətlərinin formalaşdığı həmyaşıdlar cəmiyyətinin olmasıdır. Həmyaşıdları ilə ünsiyyətdə olan gənclər əməyə daha tez alışır, məqsədinə çatmaq bacarığına yiyələnir. Uşağın böyüklər arasında yaşamağa hazırlandırılması onun öz həmyaşıdları ilə münasibətlərini qurmaq bacarığından başlayır.

Nəzakətlilik insandan öz hərəkət və rəftarını idarə edə bilməyi də tələb edir. Başqalarının işlədiyi otaqda, istirahət etdiyi yerdə ucadan danışmaq, gülmək,mahnı oxumaq, səs salmaq nəzakətsizlik əlamətidir. Çünki, bu bizim başqa adamlara hörmət etmədiyimizi göstərir-habelə, iclas və mühazirə vaxtı, teatrda, kinoda, kitabxanada başqalarının rahatlığını pozmaq da nəzakətsizlik əlaməti sayılır. Nəzakətsizlik yalnız hərəkətdə deyil, insanın danışığında, nitqində də təzahür edir. İnsanlar bir-birilə nitq vasitəsilə ünsiyyət saxlayır, fikirlərini, hisslərini bir-birlərinə danışıq vasitəsilə çatdırır və bir-birlərinə münasibətlərini, bir çox hallarda, nitqlə ifadə edirlər. Sadə, nəzakətlə deyilmiş ifadə insanın mədəni davranışının zəruri şərtidir.

“Gəncliyin pak güzgüsü, yaxud həyatda davranışa dair göstərişlər ” kitabında yazdığı müqəddimədə Birinci

Pyotr belə hesab edirdi ki,tərbiyəli adamı üç məziyyət zinətləndirir : xeyirxahlıq, təvazökarlıq, nəzakət.

Müxtəlif dövlətlərin, siyasi baxışların, ənənələrin, mədəniyyətlərin nümayəndələri bir-birləri ilə əlaqə saxlarkən görüşüb danışmalı olurlar. Bu zaman adamların əcnəbi dilləri və yerli adətləri bilmələri ilə yanaşı özlərini təbii, eyni vaxtda çox sadə, insani mənada nəzakətli aparmaları tələb edilir. Belə bir bacarıq öz-özünə yaranmır. Onu öyrənmək gərəkdir.

Ulu öndərimiz Heydər Əlirza oğlu Əliyevin bu dövrün gəncləri üçün söylədikləri: "Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqən rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə deməl istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli, mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənlərimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" bir daha sübut edir ki, ulularımızın bizə miras qoyduğu davranış formaları hələ də davam etdirilir.

Bəzən təvazökar adamı gülməyən, danışmayan, zarafat etməyən, soyuq ciddiliyinə meyl edən, hər şeyə soyuq yanaşan adam kimi təsəvvür edirlər. Bu, əlbəttə belə deyildir. Təvazökar adam çox gümrah, ürəyi açıq, xoş hal, yeri gəldikdə gülməyə, zarafat etməyə, əylənməyə meyl edən, həm də bunları ləyaqətlə bacaran adamdır. Bununla bərabər təvazökar adam şit zarafata, insanı gülünc vəziyyətə salan hərəkətlərə qarşı amansız olur. Özü də belə hərəkətlərdən həmişə çəkinir.

Mədəni davranış zahiri görkəmdə də əks olunur. Geyimdə, yeməkdə,səliqəlilik, təmizkarlıq, hərəkətlərdə zəriflik davranışın zahiri cəhətləri olub, ona qəşənglik

verir. Gənclərin məharətli tərbiyəçisi A.S.Makarenko göstərir ki, insanın həyatında zahiri görkəmin böyük əhəmiyyəti vardır. Çirkli, səliqəsiz bir adamın öz rəftar və hərəkətlərinə diqqət verə bilməsini təsəvvür etmək çətindir. Səliqəli və təmiz paltar insanın hərəkətlərinin də zərifliyinə, onun rəftarının zərif olmasına, insanda yaxşı əhval-ruhiyyənin yaranmasına səbəb olur. Geyim səliqəli və təmiz olduqda adam da həmişə onun səliqəli qalmasına, təmiz olmasına çalışır.

Təmizkarlıq-yalnız altarda deyil, insanın ayaqqabılarında, baş örtüyündə, bütün zahiri görünüşündə hökm sürməlidir. A.S.Makarenko ayaqqabıların təmizliyinə xüsusi fikir verərək, onların təmizliyini mədəni adam üçün dişlərin təmizliyi üçün zəruri sayırdı.

Səliqəlilik-insanın saçlarının daranmasında, cibində burun yayalığının olmasında, dırnaqlarının vaxtı-vaxtında kəsilməsində özünü göstərir. İnsan həmişə evdən çıxanda hökmən güzgü qabağında durmalı, öz paltarını, ayaqqabısını, baş geyimini səliqəyə salıb, təmizliyini yoxlamalıdır. Geyimdə bir əsas cəhəti mühüm tutmalıyıq. Bu da geyimin sadəliyi və səliqəliliyidir.

Mədəni davranış qaydaları əmək qaydalarına əməl etməkdə də özünü göstərir. Əmək zamanı gözlənilməli olan qaydalar heç də süni olaraq düşünülmüş boş bir şey olmayıb, uzun müddətli təcrübədə insanların müəyyən etdiyi səhiyyə qaydalarının məcmuidir. Buna görə də hər bir mədəni davranışa sahib olan gənc bu qaydalara əməl etməlidir. Digər tərəfdən bu qaydalara əməl etmiş gənc ictimaiyyət arasında sıxılmır, öz hərəkətləri ilə başqalarının diqqətini özünə cəlb edə biləcəyindən qorxub xəcalət çəkmir.

Ümumi mədənilik birinci növbədə biliklərə sahib olmaq, bəşəriyyətin əldə etdiyi biliklərə yiyələnməklə əlaqədardır.Gənclərin mədəni davranışa yiyələnmələri üçün birinci növbədə ümumi mədəniyyətə, yüksək biliyə yiyələnməlidirlər. Lakin bilikli olmaq heç də tam mədəni olmaq demək deyildir. Orta və ali təhsilli olmaq mədənilik üçün mühüm şərtdirsə də, yeganə şərt deyildir. Hətta təhsilli adamlar içərisində də əmək mədəniyyətinə malik olmayan, hərəkət və nitqində nəzakətsizlik göstərən lovğa və qanmaz şəxslərə təsadüf edilir. Deməli, mənəvi mədənilik kəsb etmək üçün təhsil almaq hələ kifayət deyildir.

Bunun üçün gənclər mədəni davranışın nədən ibarət olduğunu və necə ifadə olunduğunu bilməli, öz hərəkətlərində həmin sifətləri müstəsnasız ifadə etməlidir. Bu məsələdə xüsusən mədəni rəftar və davranışı adət şəklinə salmaq çox əhəmiyyətlidir.

Adətlər insanların gündəlik həyatında çox böyük rol oynayır. Onlar bir növ avtomatik tərzdə yerinə yetirildiyindən şərti reflekslər əsasında müvafiq şəraitdə hökmən ifadə olunur və beləliklə bizim şüurumuzu həmin hərəkət üzrə ciddi nəzarətdən azad etmiş olur.

Belə adətlər onlarla əlaqədar olan hərəkətlərin müstəsnasız olaraq dönə-dönə təkrar olunması sayəsində yaranır. Bunu nəzərə alaraq, müəyyən mədəni davranışı adət şəklinə salmaqdan ötrü hər bir gənc onu dəfələrlə yerinə yetirməli, bu məsələdə özünə heç bir güzəşt etməməlidir. Bu adamdan qətiyyət və iradə tələb edir. Çünki, bu zaman öz üzərində,öz tənbəlliyinin üzərində qalib gəlmək, bəzən çətinliyə, əziyyətə qatlaşmaq lazım gəlir. Bunsuz mədəni vərdişlər əldə etmək mümkün deyildir.

Mədəni davranış tərbiyəsində əsas məsələlərdən biri də ictimaiyyətin bu işdə çalışması, mədəni davranış

vərdişlərinin hamıda adət halına keçməsi üçün bütün qüvvələrini sərf etməsindən asılıdır. Çünki, kütlələrin özləri iştirak etmədən təkcə inzibati tədbirlər vasitəsilə hələ də gənclərimizin bir sırası içərisində baş verən eybəcər halları aradan qaldırmaq mümkün deyildir. Bunun üçün belə bir şərait yaramaq lazımdır ki, əxlaq normalrını, mədəni davranış qaydalarını pozan adamlar öz hərəkətlərinin bütün cəmiyyət tərəfindən pisləndiyini hiss etsinlər.Yüksək mədəni davranış tərbiyəsində nəzarətlə yanaşı insanın öz nöqsanlarını bilməsi və habelə başqa adamlara öz nöqsanlarını aşkara çıxarmaqda kömək etməsi lazımdır. Bu isə tənqid və özünütənqidin geniş tətbiqi sayəsində mümkündür. Gənc yaşlarında mədəni davranış tərbiyəsində gəncin özünütərbiyəsi çox mühüm rol oynayır. Özünütərbiyədə birinci əsas şərt insanın öz nöqsanlarını aşkar etməsi və bu nöqsanları özünə aydınlaşdırmasıdır. İnsanın öz davranışındakı mənfi adətlərlə mübarizə etməsi asan iş deyildir. Amma mümkün olan işdir.Bunun üçün insan özünə sahib olmalı, öz hisslərini cilovlamağı bacarmalıdır.

Yüksək əxlaqi sifətlərə və mədəniyyətə malik olan gəncləri bütün öz qarşılarındakı böyük məqsədi aydın görür və bu məqsədin həyata keçirilməsi uğrunda inadla mübarizə etməlidirlər.

Deyirlər bir dəfə Yunanıstanın böyük filosofu, dünyanın "əxlaq peyğəmbəri" adlandırılan Sokratdan: "İnsanda ən çox nəyi qiymətləndirirsən?" sualına filosof tərəddüd etmədən cavab verir: "İnsaniyyəti", "Bəs insaniyyət dedikdə nə başa düşürsən?" sualına isə mütəfəkkir "insana layiq keyfiyyətləri"-deyə cavab verir.

Həmçinin keçən əsrdə İngiltərədə ictimai islahatlar uğrunda mübarizə aparan məşhur Çarız Dikkensə buna

bənzər sual verilir. “Siz bu qədər çalışıb nə islahatı keçirmək istəyirsiniz?” Yazıçı cavab verir ki, “İnsaniyyət və xeyirxahlıq islahatı”.

## Mədəni və asosial davranışların müqayısəli təhlili

Bəzən alicənab, tanınmış, cəmiyyətdə rəğbət qazanmış bir insan haqqında xoş sözlər deyiləndə ən yaxşı fikirlərin içində “mədəni insandır” ifadəsinə də rast gəlinir. Əslində bu nə deməkdir? Mədəni olmağın şərtləri çoxdur. Bu, elə bir mənəvi məziyyətdir ki, onu libas kimi geyinib-soyunmaq mümkün deyil. O insanın içində, varlığında olmalıdır. Böyüdüyün mühit, aldığın tərbiyə, bilik, öz qabiliyyətin, gendən gəlmə xüsusiyyətlər,dərin müşahidə, mütaliə və nəhayət, özünü cəmiyyətdə həqiqətən səliqəli apara bilmək səriştəsi.. Bütün bunlar da insanın hərəkətində, danışığında, ətrafdakılara münasibət göstərir.

Vaxtilə ali məktəblərdə “Etika” adlı bir fənn keçirilərdi. Təəssüf ki, bu fənn barədə keçmiş zamandan danışırıq. Mədəni davranışa malik olmaq, etik normaları gözləmək, təbliğ etmək indi kütləvi informasiya vasitələrinin və telekanalların üzərinə düşür. Son illər bu istiqamətdə o qədər də qüsurlar baş alıb gedir ki, bəzən anlamaq olmur kim dürüst danışır, kimin dedikləri yalandır. İllər boyu xalqımızın ən gözəl adət və ənənəsi olan toyun ekranlara keçməsi və nəticədə xəcalət hissinin ölməsi bir çox xoşagəlməz söz-söhbətin cücərməsinə səbəb olur. Bir televiziya kanalında eyni vaxtda 72 yaşlı kişi ilə 19 yaşlı qız çıxıb ailə qurmaq istədiklərini bildirirlərsə, onda hansi etik normalardan, mədəni davranışdan, adət-ənənələrdən danışmaq olar?

Müasirlik - mentalitetə balta vurmaq deyil. Klassika ilə modern birləşəndə gözəl olur. Təəssüf ki, bizə təqdim olunan proqramlarda nə qədimlik var, nə müasirlik. Tamam başqa ovqatdır. Danışmağa da utanırsan, baxmağa da. Utanmaq hissi itən yerdə abır-həya yoxa çıxır. Abır-həya tapılmayan yerdə isə mədəniyyət olmaz, assosial davranışa səbəb olar. Mədəniyyət olmadan yerdə isə hansı nəzakətdən, qabil davranışdan, dürüst insan münasibətlərindən, xeyirxahlıqdan, böyük arzulardan, ideyalardan, Vətən məhəbbətindən yurd sevgisindən danışmaq olar?!

Tarixən bütün uğurların, qabiliyyətin başında davranış mədəniyyəti dayanıb. Hətta ən qızğın döyüşlərdə də mədəniyyət gözləyən igidlərimiz öz düşmənlərinə arxadan zərbə vurmayıblar. Mədəniyət ən iti qılıncdan da kəsərlidir. Gəlin razı olmayaq ki, bu qılınc ovxardan düşsün.

Əlbəttə, bu çox geniş mövzudur. Sadəcə olaraq gündəlik rastlaşdığımız adi davranış qaydalarından danışmaq istəyirik. Onsuz da ömrümüz elə uzun deyil ki, onu adi qayğılarla çapıb-talayaq.

Yaşından, başından, vəzifəsindən, ictimai durumundan, maddi vəziyyətindən asılı olmayaraq hər bir insanın özünə hörmət etməsi çox vacibdir. Bu onun mənəvi dünyasının göstəricisidir. Özünə hörmət isə nə səliqəli geyinməkdir, nə cibində pulun çox olmasıdır, nə öz rahatlığını təmin etməkdir, nə də yalnız övladlarına, qohum-əqrəbana gün ağlamağdan ibarətdir. Yox, Allah-Təala hamını eyni hüquqda yaradıb.Ədalətin ölçüsünə bax ki, eyni cür doğulan insanın bu dünyadan gedişində fərqi yoxdur. Kasıbın da qazancı, varlının varidatı da elə bu dünyada qalır. Əbədi olan yaxşı addır, yaşayan xeyirxah əməllərdir, mənəvi sərvətlərdir...

Mədəni davranışa malik olmağın birinci yolu ətrafdakılara bəslənən münasibətdən, yanaşma xüsusiyyətlərindən, daxilən gələn nəzakət və rəftardan asılıdır. Vəzifəcə səndən yuxarıda dayanan qarşısında baş əyib, səndən aşağıda durana təpinmək isə... Bu insanlığa sığışmır axı. Bir əlində şərbət, bir əlində zəhəri necə saxlamaq olar?!

Əslində milli-mənəvi dəyərləri şərtləndirən məqamlar çoxdur. Böyüklərə hörmət, yaşlılara, xəstələrə, əlillərə, qadınlara ehtiram göstərmək, uşaqlara qayğı ilə yanaşmaq milli-mənəvi dəyərlərin tərkib hissəsidir. Ailədən gələn, məktəbdə yetişən, cəmiyyətdə formalaşan bu dəyərlər insanın həyat yolunu istiqamətləndirməkdə, mənəvi zənginliklərini qoruyub saxlamaqda mühüm amildir. Bir də ehtiyacı olana mərhəmət göstərmək, yaşlı bir kəsi yoldan keçirmək, kiminsə qolundan tutmaq özü savabdır, həm də mədəni davranışın göstəricisidir. Elə dinimizdə də bu tələblər var. Bəzən çox kiçik görünən adi davranışın arxasında böyük bir mənəvi dünyanın olub-olmaması dayanır. İnsanın ikiləşməsi, təbdən-təbə düşməsi, gah pələngə dönməsi, gah dovşana çevrilməsi qəbuledilməzdir. Bütün canlıların alisi sayılan insan ali mədəni davranışa malik olmalıdır. Xüsusilə də ətrafdakılarla münasibətdə tarazlıq pozulmamalıdır.

Çoxumuzun yaxşı yadındadır, hələ sovet dövründə "Oqonyok" jurnalının Bakıda olan bir əməkdaşı şəhər nəqliyyatında gördüklərindən heyrətə gələrək kiçik bir yazıda öz təəssüratını bildirmişdi ki, Azərbaycanda qəribə bir adət var. Hər yerdə gördüm ki, yaşlı insanlara, qadınlara ehtiramlara yanaşılır. Xüsusilə də, avtobuslarda gənclər dərhal ayağa qalxaraq özündən böyüklərə yer verir. Qadınlara, yaşlı insanlara yer göstərilir. Bəlkə də ilk baxışda bu münasibətlərdə bir o qədər də qeyri-adilik yox-

dur. Amma bütün adiliklərin içində bir adilik olmaq gərəkliyi var. Həmişə görmüşük ki, əliuşaqlı xanımların, yaşlı qadınların uzun növbələrə dayanmasına heç kəs razı olmayıb və bu elə bir qəribə hal yaratmışdı ki, qadınlar özləri ayrıca növbəyə dayanırdılar.

Bu yaxınlarda şəhər nəqliyyatında müşahidə etdiyimiz bir məqam açığı ürəyimi ağrıtdı. Vətən torpaqları uğrunda canını fəda etmiş igidlərimizin – Mübariz İbrahimov və Fərid Əhmədovun məzarlarının ziyarətindən qayıdan yaşlı xanımlar avtobusa qalxmalı oldular. Avtobus tünlük idi. Ağır dərdin əlindən üzülmüş bu qadınlar isə əyləşməyə yer tapmadılar. Ətrafa nəzər saldıqda keçirdiyimiz sıxıntıdan nə edəcəyimizi bilmədik. Qulaqlarında qulaqcıq, bir əlində telefon, ağzında saqqız, o biri əli ilə də özü cavan qızı qucaqlamış qara gödəkçəli oğlanın isə dünya vecinə deyildi. Başqa bir oturacaqda əyləşmiş gənclər isə şit-şit danışıb gülürdülər. Bu təzadlı mənzərədən süzülən əsəbi gərginlik yaşlı bir kişinin deyinməsinə gətirib çıxardı: “Belə də iş olar? Biz də cavan olmuşuq. Vallah, heç vaxt özümüzdən böyüyün yanında əyləşməmişik. Bu zamandan uşaqları niyə belədir? Böyük kiçik tanımırlar”.

Oturacaqda əyləşənlərdən biri şar kimi şişirtdiyi saqqızı əlinə alaraq kinayə qarışıq ahənglə dedi: “Dayday, axı sənin bu avtobusda nə işin var? Evində otura bilmirsən? Hələ bizi bir borclu da çıxarırsan? İntiresni adamsınız, mən nəyə görə ayağa durmalıyam, sənə borcum var?”. Təbii ki, ağzının sözünü bilməyən, ailə tərbiyəsi görməyən birisinə yaşlı kişi cavab verməyəcək biçarəliklə köksünü ötürdu. Abrına sığınmış bu haqlı insanın gözləri dolmuşdu. Özünü birtəhər ayaqüstə saxlayırdı. Bu dialoqdan sonra, nəhayət, bir oğlan qeyrətə gəlib ayağa

durmaq istəyəndə, yanındakı qız onun gödəkçəsindən dartaraq “eto tebe nada?” – deyərək narazılığını bildirdi. Oğlan dərhal əyləşərək özündən razı şəkildə dişlərini ağartdı...Bu “gənclərin” nümayiş etdirdikləri davranış assosial davranışa nümunədir.

Açığı harda olduğumuzu, hansı millətin gəncləri ilə bir avtobusun sərnişinlərinə çevrildiyimizi anlamadıq. İnsanı əzən məqamlardan biri də budur ki, şəhər nəqliyyatında narahatçılıq doğuran səbələrin sayı çoxdur. “Bizi belə böyütməyiblər”, “biz belə olmamışıq” – deyənlərin haqlı iradlarını bəzən təhlilə çəkəndə anlamaq olmur ki, nədən milli-mənəvi dəyərlərimizi belə sürətlə itirməyə məhkumuq?!.. Hərdən qəribə vəziyyət də görürsən. Gənclər ayaqüstə dayanıblar. Oturacaqlar boşdur. Soruşanda niyə əyləşmirsiniz? – cavabında onsuz da duracağıq deyirlər. Bəli, ailə tərbiyəsi görmüş gənclərimiz də var. Amma nədən hamıda belə deyil? Bütün bunlara bütün cəmiyyətdən təpki gəlməlidir. Dədə - babadan qanmayanı qandırmağa çalışıblar, bilməyəni öyrətməyə. Öyrənib bilməyin isə heç kimə ziyanı yoxdur. Vay o gündən ki, bilən öyrətməsin, öyrənən öyrəndiklrəinə əməl etməsin.

Beş addımlıq ömür yolunda insanın düçar olduğu adi münasibətlər, gündəlik rastlaşdığımız ürəkaçan mənzərələr əsəblərin sıradan çıxmasına səbəb olur.

Gündəlik həyatda insanların bəzi davranışlarına baxdıqda yanlış olmadığını görürük. Ancaq buna ən gözəl davranış demək olmaz. Yanlış olmadığı üçün insanlar arasında çox diqqət çəkməz və narahatlıq yaratmaz. Əslində, bəzən nəzakətə, bəzən estetikaya, bəzən sevgi və hörmətə və bəzən də etikaya o qədər də uyğun olmaz, assosial davranışa səbəb olar. İnsan biri digərinin çatışmayan cəhətini bu şeydə özündən daha gözəl əxlaqa

malik olan insanla qarşılaşdırdıqda anlayır. Bu şəkildə, iki insan eyi mühitdə olarkən danışıq və hərəkətlərindəki fərqlər daha aydın nəzərə çarpır. Məhz o zaman insan adı qoyulmayan, lakin yanlış olduğu hiss edilən davranışlar haqqında daha düzgün qənaətə gəlir.

Məsələn, bəzən birisi zarafat edir, lakin bu zarafat ordakı insanlarda istənilən təsir meydana gətirmir. Zarafat etməkdə məqsəd mühiti şənləndirmək,insanlar arasında yaxınlıq əmələ gətirməkdir. Ancaq bəzən deyilən sözlərlə bu məqsədə nail olmaq olmur. Əksinə, zarafatdakı eyham, seçilən yanlış söz, yanlış yerdə yersiz gülüş, zarafatın lazım olduğundan artıq uzadılması, zarafatla müəyyən şəxsin hədəf seçilməsi, qarşı tərəfi şövqləndirməyən, qarşı tərəfi narahat edən üslubdan istifadə edilməsi o mühiti şərtləndirmək əvəzinə narahatlıq meydana gəlir. Zarafat edən şəxs, həqiqətən, yaxşı niyyətli ola bilər. Dediyi sözləri ölçüb-biçmədiyinə, hərtərəfli düşünməyinə və ya istəmədən yanlış sözlər seçdiyinə görə belə vəziyyət yarana bilər. Ancaq bunları əvvəlcədən ölçüb-biçərək, təfərrüatını düşünərək hərəkət etmək gözəl əxlaqın, mədəni davranışın tələbidir. İnsan ağlı, vicdanı ilə hərəkət edərək ən gözəl sözü və davranışları seçməklə məsuldur. Ona görə də insan bütün bunları düşünəcək əxlaqda, mədəniyyətdə olmalıdır.

Mədəni davranışa bir neçə nümunə əlavə edə bilərik. Məsələn, bir şeyə qonaq edilərkən ən nəzakətli sözləri seçib, qarşı tərəfi hörmət və sevgi ilə şövqləndirib, şişirdilmiş hərəkətlərdən çəkinib uyğun qaydada razı olduğunu bildirmək lazımdır. Bu məsələdə çatışmayan kiçik bir cəhət belə qarşı tərəfin qəlbini narahat edə bilər. Bəlkə də ortada yanlış görünən bir davranış olmaz. Lakin bu rəftardan doğan səmimi razılıq və bu narahatlıq

müqayisə edildikdə davranışda çatışmazlıq etdiyi üzə çıxar.

Bəzən də bir insana özündən daha təcrübəli, ağıllı, daha dərin düşünən şəxs məsləhət verir. Burada ən gözəl rəftar həmin şəxsin Allah rizası üçün verdiyi məsləhətə eyni şəkildə Allah rizası üçün ən gözəl söz və davranışla qarşılıq verməkdir. Tənqid edən şəxs qarşısındakı insanın nəfsini nəzərə alaraq onun daha yaxşı mükəmməl olması üçün diqqətlə və düşünərək danışar. İnsan belə gözəl əxlaqa, mədəniyyətə ən az eyni tərzdə, hətta daha gözəl şəkildə qarşılıq verməlidir.Qarşı tərəfin də sözlərini qəbul etdiyini, dəstəklədiyini, deyilənlərə könüldən inandığını, daxilən qəzəblənmədiyini, qarşı tərəfə haqq verdiyini, heç bir narahatlıq hiss etmədiyini ən yaxşı tərzdı vurğula-malıdır. Bunun əvəzinə, sadəcə bir neçə qısa cümlə ilə qarşılıq verərsə, razı olub-olmadığını bildirməzsə, narazı ifadə ilə baxıb səs tonunu dəyişərsə və qarşı tərəfə razı olduğuna dair açıqlama verməzsə, əlbəttə, bunun mənası çox fərqli olar. Əslində, bu insan yanlış söz deməmiş, etiraz etməmiş, tərs üslubdan istifadə etməmişdir. Ona görə də, yanlış bir şey etməmiş kimi görünə bilər. Ancaq daha incə vicdan anlayışı ilə baxdıqda belə vəziyyətdə həmin rəftarın ən gözəl davranış olmadığı aydın olur. Əvvəlki sətirlərdə deyildiyi kimi, əgər bu insan qarşı tərəfə olan hörmətini, sevgisini, razılığını ən gözəl söz və davranışlarla ifadə edərsə, əlbəttə, bu, Quran əxlaqına ən uyğun davranış olur.

Bir insana sevgi ifadə edən söz dedikdə və iltifat etdikdə qarşı tərəf də eyni şəkildə hərtərəfli düşünərək ən gözəl şəkildə qarşılıq verməlidir. Bu insan ona iltifat edənə sadəcə : “Təşəkkür edirəm” , -deyərək keçə bilər. Əlbəttə, bu da gözəl sözdür və yanlış görünmür. Əslində

isə, kafi deyil. Bir insanın qarşı tərəfə sevgi ilə yanaşmasında, iltifat edib gözəl söz söyləməsində məqsəd, Allah rizası üçün qarşılıqlı sevgini, hörmət və yaxınlığı artırmaq, gözəl mühit təmin etmək, sevindirmək və şənləndirməkdir. İnsanın bu məqsədlə göstərdiyi əxlaqa ən az qarşı tərəf qədər, hətta daha artıq iltifat edib gözəl sözlərlə qarşılıq verməsi daha gözəl anlayışına sahib olduğunu göstərir.

Bütün bu nümunələr mühüm həqiqəti göstərir: gözəl əxlaqı incə xüsusiyətlərdə axtarmaq lazımdır. Bir insan ümumi mənada, həqiqətən, möhkəm xarakterə, nümunəvi mədəni davranışa malik ola bilər və etibarlı, xoşniyyətli və çalışqan ola bilər. Ancaq xüsusiyyətlərdəki bu çatışmazlıqlar da olduqca vacibdir. Çünki bunlar insanı könüldən sevdirir və etibarlı edir. Hər məsələdə olduğu kimi, insanın adı qoyulmayan və yanlış hesab edilməyən, ancaq qəlbən narahatlıq verən bu hərəkətləri müəyyən edərkən, əlbəttə, Quran ayələrini və vicdanını əsas götürməlidir. Ən gözəl davranışlar ətrafdakı insanlarda dərin sevgi mərhəmət, mehribanlıq və razılıq meydana gətirir. Orta dərəcəli gözəl davanışlar isə qarşı tərəfdə ancaq orta dərəcədə təsir meydana gətirir.

Allahdan qorxan insan Allahın ən çox razı olduğu əxlaqla davranmalıdır. Allah rizasının ən çoxu insanın bütün davranışlarında bu incəliklərə diqqət etməsindədir. Quranda Allah möminlərinə bu əxlaqla bağlı belə tövsiyə edir: “Qullarına de ki, ən gözəl sözləri söyləsinlər. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.”

Bütün söylədiklərimiz gündəlik müşahidə edilən və asan islah olunan nöqsanlardır. Amma təəssüf ki, bizim kiçik saydığımız, bəzən də əhəmiyyət vermədiyimiz bu

xoşagəlməz hallar sabah da böyük qüsurların yaranmasına səbəb olur. Bütün bəlaların kökü laqeydlikədn başlayır. İnsan münasibətində biganəlik olarsa, onda daha ali hisslərdən, davranış mədəniyyətindən danışmağa dəyməz. Mədəniyyət təkcə mədəni görünmək deyil, mədəniyyət insanın daxilində, varlığında, rəftar və hərəkətlərində büruzə verməlidir.

## Mədəni davranış və asosial davranışlara gənclərin münasibəti

Müasir Azərbaycan gənclərində mədəni davranışların təzahür formalarını öyrənmək və onlara gənclərimizin münasibətində aydınlıq gətirmək üçün ADPU-nun Pedaqogika, psixologiya, bədii qrafika, texnologiya müəllimliyi ixtisasında oxuyan 50 nəfərdən çox tələbə gənclərlə bir neçə suallar ətrafında müzakirə keçirdik. Suallar aşağıdaki kimidir:

1. Müasir gənclərdə hansı davranış xüsusiyyətləri görmək istərdiniz?
2. Arzuladığınız əxlaq davranışı xüsusiyyətləri özündə necədir? Özünüzdə kök salmış xoşagəlməz və müsbət davranış xüsusiyyətlərini göstərin.
3. Müasir oğlanların davranışlarında hansı xüsusiyyətlər xoşunuza gəlir? Hansı davranış sizi qane etmir (qızlara verilən suallar)?
4. Qızların hansı hərəkətləri sizin xoşunuza gəlir? Hansı davranışları sizi qane etmir?
5. Müasir Azərbaycan gənclərinin psixoloji modeli hansi formada olmalıdır?
6. Alkoqolizmə, narkomaniyaya, əxlaqsızlığa, oğurluğa münasibətiniz?

7. Heç elə vaxt olub ki, bir əxlaqa zidd hərəkət etmisiz, sonra etiraf edib onu düzəltmisiz?
8. Müasir qızların geyim tərzi, siqaret çəkmələrinə necə baxırsınız ? (oğlanlara verilən sual)
9. Cavan oğlanların əxlaqsızlığına necə baxırsınız? (qızlara verilən sual)
10. Müasir gənclərdə hansi müsbət əxlaqi keyfiyyətlər görmək istərdiniz?
11. Azərbaycan xalqına xas olan əxlaqi-sosial psixoloji keyfiyyətlərdən hansını saya bilərsiniz?
12. Tələbələrlə sual-cavab göstərdi ki, onlar ən çox səmimiyyətə, nəzakətə, etibarlılığa, düzlüyə, doğruçuluğa, mehribanlığa, təvazökarlığa üstünlük verir, assosial davranışlara (kobudluq, eqoizm, dikbaşlıq, təkəbbürlük, laqeydlik, oğurluq, quldurluq, intihar, sərxoşluq,narkomaniya, tənhalıq,aqressiya və s.) yox deyirlər. Gəlin sualara verilən cavablara diqqət yetirək:

1. Müasir gənclərdə ən çox səadət, ədalət, düzlük, doğruçuluq, nəzakət, səmimiyyət, böyüklərə hörmət kimi xüsusiyyətlər görmək istərdim;

2. Özümdə əxlaq davranışı hər halda məni utandıracaq vəziyyətdə deyil. Mənfi xüsusiyyətim isə səbrsiz olmağım və insanlara tez inanmağımdır.Müsbət xüsusiyyətim isə böyüklərə hörmət, istəyimə çətinliklə də olsa nail olmağımdır;

3. Müasir gənclərdə səmimiyyət, ədalət, etibarlılıq xoşuma gəlir. Sərxoşluq, narkomaniya, dikbaşlıq, təkəbbürlük xoşuma gəlmir;

4. Xanımların bəylərə nisbətətn bir-birlərinə qarşı rəftarı xoşuma gəlir. Telefondan sıx-sıx istifadə etmələri və qəh-qəhə ilə gülmələri isə xoş davranış deyil;

5. Müasir Azərbaycan gənclərinin psixoloji modeli böyüklərə hörmət etməli, savadlı, əxlaqlı, səmimi, təvazökar, ədalətli olmalıdır;

6. Təbii ki, sadalananlar bir insanın sonu deməkdir

7. Bəli, belə hallar baş verib. Lakin, əsas həmin davranışımdan nəticə çıxarıb səhvimi düzəltmişəm;

8. Qızların siqaret çəşməsi mənfi xüsusiyyət olsa da, təəssüflər olsun ki, bu real həyatda var. Geyimləri qənaətbəxşdir;

9. Bu xoşagələn bir hal deyil;

10. Yaşlı nəsilə hörmət, körpələrə sevgi, zəhmətkeş olub ailəsinin problemlərini həll etməli;

11. Vətənə və əzizlərinə olan sevgi Azərbaycan xalqının daima baş ucalığıdır.

Tədqiqat göstərdi ki, tələbələrin 80%-i səmimiyyətə, sədaqətə, düzlüyə rəvac verirlər. Oğlanlar (alkoqolizm, narkomaniya, oğurluq), həm də müsbət keyfiyyətlərə (səmimilik, düzgünlük, ədalətlilik, təvazökarlıq, mehribanlıq) üstünlük verirlər. Oğlanlar qızların əxlaqına, həyasına, peşəsinə, səaqətinə daha çox qiymət verirlər. Siqaret çəkən, içki içən, həddindən artıq çıplaq geyinən qızlara oğlanların 70%-i yox deyir.

## Sadəlik və təvəzökarlıq mədəni davranışın təzahür forması kimi

Müasir gənclərin mənəvi, psixoloji simasını, əxlaqi düşüncəsini, cəmiyyətə, xalqa, millətə hörmətə və ehtiramı ifadə edən sadə əxlaq normalarından biri də sadəlik və təvəzökarlıqdır. Bu sadə əxlaq normalarının insan həyatında, çox böyük rolu vardır. Bütün əxlaq kodekslərində təqdir olunan sadəlik və təvazökarlıq insanın ən gözəl

keyfiyyətidir. Müasir gənclərin cəmiyyət üçün, xalq üçün yararalı şəxsiyyət kimi formalaşdırılması üçün onlarda sadəlik və təvəzökarlığın inkişafı vacib problemlərdəndir. Xüsusi ilə müasir gənclərin mənəvi təkamülündə, onun bir şəxsiyyət kimi formalaşmasında böyük əhəmiyyəti var. Sadə və təvazökar insanlar (gənclər) bir qayda olaraq həmişə yeni bilik əldə etməyə çalışırlar, başqalarından öyrənməyə, öz zehnini yeni biliklərlə zənginləşdirməyə çalışırlar. ən sadəsi isə belə insanlar (gənclər) xalq arasında, ailədə, cəmiyyətdə həmişə sevilirlər. əksinə lovğa, təkəbbürlü, dikbaş, eqoist adamlar (gənclər) həmişə qınaq obyekti olurlar. Sadə və təvazökar insanlar (gənclər) özlərini kollektivdən ayırmırlar, başqalarının fikirlərinə həmişə hörmətlə yanaşır, ədalətli, humanist, vətənpərvər olurlar. Sadə və təvazökarlığın fəsadlarından eyni zamanda onun mahiyyətindən bəhs edərək, məhşur ingilis yazıçısı  P. Şeidin yazmışdır: "Lovğalıq insanda olan ən güclü ehtirasdır. Məni bu ehtirasdan xilas edin, qalanlarından özüm xilas olaram". "Əgər lovğalıq bir adamı xoşbəxt etmirsə, bu cür adam yəqin ki, axmaq imiş. Lovğalıq hər şeyi özündə tələb əvəzində heç bir şey vermir. Məhəbbət isə nəin ki, alır həm də verir. (J. J. Russo).

Görkəmli Fransız bəstəkarı və drijoru Ş. F. Tuno (1818-1893) gənclik yaşında onda olan lovğalıq hissinə necə qalib gəldiyindən bəhs edərək yazır: İyirmi yaşında olanda özümü ancaq dahi kimi tanıyırdım. Otuz yaşım tamam olanda artıq "mən və nöqsan" deməyə başladım. Qırx yaşım olanda "nöqsan və mən" dedim, indi isə yalnız "nöqsan" deyirəm". Tarix boyu xalq kütləsi həmişə sadəlik və təvazökarlığı ən yaxşı mənəvi sifət kimi fəzilət hesab etmiş, bunun əksinə olan lovğalıq və təkəbbürlülüyü pisləmişlər. Lovğalıq və təkəbbürlülük bəzi  filosoflarının

iddia etdikləri kimi anadangəlmə əbədi əxlaqi keyfiyyət deyildir. Sadəlik və təvazökarlığın əksi olan bu mənfi davranış forması təkəbbürlük, eqoizm, lovğa, dikbaş, rəzillik, paxıllıq və s. tarixi inkişafın müəyyən pilləsində yaranmış və inkişaf etmişdir. Tarixən bir çox varlılar, elmdən kasıb olanlar, xalqdan, millətdən ayrı düşünlər, tufeyli həyat sürməyə adət edənlər təkəbbürlüyə meyl etmişlər. Təkəbbürlük savadsızlıqdan və tamahkarlıqdan irəli gəlir (Aristotel). Əksinə sadə və təvəzökar insanlar özlərini ictimayyətdən ayırmırlar. Bu sifət insan vücudunun yaraşığı, zahiri və mənəvi mənfəətlərin mənbəyi ola bilər. Zahiri mənfəət odur ki, mərifətli adamlar bir nəfəri təvəzökar gördükdə onu özlərinə dost seçərlər, özlərini bəyənən xudpəsəndlər ondan hörmət gördüklərindən və onların qürurundan toxunmadığından onunla mehriban olarlar . Bu surətdə onun dostları çox, düşmənləri isə az olar. Ehtimal ki, düşmənlərin özləri də onunla dost olmaq istərlər. Heç olmazsa, ona əziyyət verməkdə coşmaz və tələsməzlər. Bunun mənəvi mənfəəti ondadır ki, insan özününün nöqsan və acizliyindən xəbərdar olar və daha fəxr etməz. Beləliklə, təvəzökar adam gündən –günə özünə fikir verər, naqis sifətlərini mümkün qədər düzəldər və bununlada allahın dərgahında bəyənilər və tükənməz feyzlərə çatar.

Gənclər o zaman sadə və təvazökar olurlar ki, onlar özlərini, ləyaqət və mənliklərini düzgün dərk etsinlər. “Ağıllı adam odur ki, öz eybini başqalarının eybindən artıq görə və öz hünərini başqalarının hünərindən az hesab edə”. Doğurdan da, insan öz vücudundakı zəif hissəciyə belə ixtiyari olmadığı halda, təkəbbür və lovğalıq etməyə nə haqqı vardır? (A. A. Bakıxanov)

A.A.Baxıxanov sadəlik və təvazökarlığın əxlaqi-mənəvi mahiyyətindən bəhs edərək yazır: "Təvazökarlığın mənəvi mahiyyəti odur ki. insan özünün nöqsan və acizliyindən xəbərdar olur və daha fəxr etməz" (A. A. Bakıxanov, "Təhzibi əxlaq". Bakı, 1986. səh.701 ).

Azərbaycan Maarifçlərindənn olan M. T. Sidqi sadəlik və təvazökarlığın mahiyyətindən bəhs edərək göstərirdi ki, "insan cəhalətin və bilməməzliyin dərəcəsini bilsə, ondan sonra bildiyini təkmil edib, bilmədiyinin təhsilinə çalışıb, çox azad öyrənər" (M. T, Sidqi "Həkimanə sözlər". Bakı, 1986. səh 21-22).

"Qəbahətli işlər odur ki, yalandan fəxr edəsən". (M. M. Nəvvab).

A.A.Baxıxanov insanın əxlaqi davranışında naqis hərəkət kimi saydığı təkəbbürlülüyü, insanın özünü dərk etməsində görürdü. Onun fikirincə insan öz nöqsan və acizliyinin həqiqətini bildikdə qürur və təvəzökarlığdan vaz keçər və özgələrin eyib və nöqsanları onun nəzərində böyük görünməz. Bu səbəbdən də həlimliyi artar, qəzəbi azalar və qəzəbin əzabdan başqa nəticəsi olmadığını bilər. Çünki qəzəb insanı təbii halından çıxarar, çox zamana cürbəcür xəstəliklərə düçar edər. Bir də elə işə qurşanar ki, hər iki dünyada peşmançılıq çəkər. Burada bəyənilmiş etidal daha artıq tələb olunar.

Eyni zamanda həlimliyin acizlik, təvəzökarlığın isə alçalmaq dərəcəsinə gəlib çıxmasından saqınmaq lazımdır. Hirs və vüqarı yeri gəldikdə bədəni qorumaq üçün alət etmək olar. Çünki bəzən bir çoxları birini azad gördükdə onu incitməyə tələsərlər.

Türk alimləri, pedaqoq və psixoloqları sadəlik və təvəzökarlığa yüksək qiymət verirlər. "Təvazköarlıq mənəviyyatca bizdən daha böyük bir varlılığa bağlılığımızın

və insanlıq dünyasının, bütün həyata olan qarşılıqlı bağlılığın fərqində olmasıdır". "Dəyərlərin psixologiyası" (İstanbul 2011)

Gənclər şəxsiyyət olaraq cəmiyyətə özünün kamilliyi, əqli, düşüncəsi, psixi sosial–psixoloji keyfiyyətləri ilə xeyir verə bilər. Təsadüfi deyil ki, dünyanın dahi mütəfəkkirləri insanı "təbiətin tacı", "yer üzünün əşrəfi", "yaranmışların ən əzəmətlisi" (və s.) adlandırmaqla yanaşı, eyni zamanda onu "mürəkkəblərin mürəkkəbi", "sirlərin ən dərini", hər bir adam "qapalı bir dünya", xüsusi mikroaləm", "çətin oxunan müqəddəs kitab" hesab etmişlər. Görkəmli yazıçı **Mark Tven** haqlı olaraq yazır ki, "hər insan aya bənzər, onun görünməyən, işıq düşməyən tərəfi vardır ki, onu heç kəsə göstərmir və ancaq özü görə bilir". **Freytaqa** görə, "Hər bir insanın qəlbində onun xalqının miniatür portreti vardır". **Novalinin** fikrincə, "İnsan günəş, hissləri isə onun planetləridir.Gəncləri məhz bu istiqamətlərlə şəxsiyyət olaraq həyata hazırlamaq üçün onlarda bir sıra əxlaqi, sosial-mənəvi-psixoloji keyfiyyətlər formalaşdırmaq təlim-tərbiyə işçilərinin, müəllim və valideynlərin əsas vəzifələrindəndir.Sadə və təvəzökar gənclər həmişə elmə, təhsilə, əqli düşüncəyə, yüksək qiymət verir və öz mənliyini, ləyaqətini qoruyur. İnsanın şəxsiyyətə çevrilməsi onun əqli xüsusiyyətləri, intellekti, bacarığı, öz qürür və ləyaqətini gözləməsi ilə sıx bağlıdır."İnsanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətinin şərafəti, fikir və əqli, şüur və iradə vasitəsilə təmin və idarə olunur" **(N.Tusi)** Şəxsiyyətə xas bütün mənəvi-sosial, psixoloji keyfiyyətlər bir–biri ilə əlaqədardır. Ona görə də tam, bütöv şəxsiyyət bu əxlaqi və sosial-əxlaqi keyfiyyətlərin hamısına bir tam halında malik olmalıdır. Əgər şəxsiyyət bu sifətlərin hamısına bir

tam halında malik olmazsa, əgər o əxlaqi vəzifələrinin birini yerinə yetirib digərinə o, əxlaqca təkmilləşə bilməz. Və məhz bu səbəbdən də tam əxlaqlı hesab edilə bilməz. Çünki insan yalnız haqqında bəhz etdiyimiz əxlaqi–sosial, psixoloji keyfiyyətlər onun "mən"ində vəhdət halında cəmləşəndə o, özünü şəxsiyyət kimi göstərə bilər. Bu baxımdan sadəlik və təvazökarlıq gənclərin əxlaqi və sosial davranışlarını mənəvi zənginləşdirir.

Bütün əxlaq kodekslərində sadəlik və təvazökarlıq insanın ən gözəl keyfiyyətləri kimi qiymətləndirilib. Bir sözlə, sadəlik və təvazökarlıq şəxsiyyətin strukturunda oturuşmuş bir kateqoriyadır, insanın mənəvi zənginliyindən xəbər verən bir fenomendir. İnsanda elə şəxsi keyfiyyətlər var ki, onlar daxildən gəlir, minilliklərdən süzülərək soydan-kökdən, nəsildən irəli gəlir. "Süd ilə gələn sümük ilə gedər", "Ot kökü üstə bitər", "Boş sünbül başını dik tutar", "Təkabürlü adamı heç kəs tərifləməz", "Nəsli olmayanın əsli olmaz", "Əslində olmayanı astarlamaq olmaz" və s.  atalar sözləri bunu bir daha təsdiq edir.

Tarix boyu ulu əcdadlarımız, görkəmli alim və mütəxəssislər, pedaqoq və psixoloqlarımız bu keyfiyyətləri bəyənib təqdir etmiş, bunun əksinə olan lovğalığı, təkəbbürlülük, nadanlıq, paxıllıq, eqoizmi pisləmişlər. Lovğalıq, özünü öymək, təkəbbürlülük olan yerdə, kollektiv və qruplarda, ailədə, bütövlükdə hər hansı bir müəssisədə müvəffəqiyyətdən danışmaq əbəsdir. "Ağac bar verdikcə başını aşağı dikər", " Çayda su çox olanda lal axar", "Özünü öyən, dizini döyər" kimi atalar sözləri əbəs deyilməyib . Fransız mütəfəkkiri **J.J.Russo** "Əgər loğalıq bir adamı xoşbəxt etmişsə, bu cür adam yəgin axmaq adam imiş : lovğalıq hər şeyi özü üçün tələb edib, əvəzində heç kəsə heç nə vermir". Dahi rus yazıçısı

**L.N.Tolstoy** isə riyazi dildə insanı kəsirə bənzətmiş və göstərmişdir ki, istedad-bacarıq, sadəlik, səmimilik, təvazökarlıq-kəsirin surəti, təkəbbürlük, xəbislik, eqoizm, rəzillik, nadanlıq isə kəsrin məxrəcidir. Kəsrin məxrəci artdıqca onun surəti azaldığı kimi, insan özünü təkkəb-bürlü, eqoist apardıqca öydükcə, lovğalandıqca, dikbaşlıq, kobudluq etdikcə onun istedadı və bacarığı, ümumiyyətlə insanlığı azalır. "Təkəbbür rəzil sifətlərdən olub böyük günahlardan hesab olunur. Buna görə də təkəbbürlü şəxslər qarşısında təvazökar olmaq bəyənilmir. Çünki təkəbbürlü insan qarşısında təvazökar olmaq onun belə bir mövqe tutmasını təsdiqləməkdir" (31, səh.395). **M.Qorki** isə insanın hamının diqqət mərkəzində olmağa cəhd göstərməsini ən böyük fəlakət adlandırmışdır. Dahi Azərbaycan şairi və mütəfəkkiri **Nizami Gəncəvi** öz ölməz "Xəmsə"sində sadəlik və təvazökarlığı ən gözəl əxlaqi keyfiyyətlər kimi dönə-dönə tərənnüm etmiş, əksinə dikbaşlığı pisləmişdir: " Oğlaqda ovcu ox atdığı zaman; dikbaş erkəklərə çox dəyər ziyan." və yaxud: Baş vaxtından əvvəl ucalsa əgər, "kəlləsinə öz silləsi dəyər", "Dən kimi yerə düş, başın ucalsın.Sünbül kimi olma, yel səni yerə salsın": **M.T.Sidqi** "Nəsihətnamə" və "Həki-manə sözlər" əsərlərində lovğalıq və təkəbbürlüyü insan şəxsiyyəti üçün ləkə, zərərli mikrob, vahiməli, qorxunc hal hesab etmişdir. Eqoizm insanı daxilən üzür, onun daima təlaş içərisində saxlayır. "Eqoist adamlar xeyirxah işlərdə və cəmiyyətin sağlam ruhda tərbiyəsində əməkdaşlığın zəruriliyini bilməzliyə vurub buna heç məhəl də qoy-murlar "(6, səh.276)

Lovğa, eqoist, təkəbbürlü, quru, paxıl, nadan adam-lar başqalarından öyrənməyi özlərinə sığışdırmırlar. "Hər şeyi bilirəm" xülyası altında özünü hamıdan yüksək, fərqli

tutur,fərqli  təxəyyül sahibi, özlərini qeyri-adi sayırlar. Ona görə də belə adamlar təbii olaraq bütün arzuladıqları, elmi yüksəlişdən, bir sözlə insanlıqdan geri qalırlar. Atalar yaxşı deyib,  "Paxılın goru cəhənnəmdir", "Paxılın axırı olmaz". Həyatın qəribəlikləri çoxdur. Doğrudan da dünyada hamı sadə, təvazökar olsaydı həyat yeknəsəq olardı. Əksinə, hamı lovğa, təkəbbürlü, qeyri-səmimi, eqoist, əzazil olsaydı onda da həyatın mənası olmazdı.  Sadə və təvazökar adamlar yenilik hissinə, ətrafda baş verən hadisələri təmkinlə təhlil etmək, onlardan düzgün nəticə çıxarmaq qabiliyyətinə malikdirlər. O,  sadə və təvazökar olduğu üçün hamı onu sevir, fikirlərinə hörmətlə yanaşır və onları qəbul edir. Sadə və təvazökar insanlar başqalarının müvəffəqiyyətinə sevinir və fəxr edirlər. Belə  adamlar adətən ədalətli olurlar, baş verən hadisələrin təhlilinə soyuqqanlılıqla yanaşır və çalışırlar ki, hadisələr ədalətli başa çatsın. Lovğa, dikbaş, təkəbbürlü insanlar isə sanki ətrafda baş verənləri heç görmür, ətrafındakılara yuxarıdan aşağı nəzərlərlə baxır, onları "qabiliyyətsiz", "bacarıqsız" sayır. Belələrinin özü –savadsız və xudpəsənddir.

Fikir versəniz belə adamların mimikasında bir saxtalıq, quruluq görərsiniz. Belə adamlar cəmiyyət üçün təhlükəli mikroblardır. Belələrinin daxili "evində" o qədər zir-zibil var ki, öncə  özünü, sonra ətrafdakılarını zəhərləyir. Dikbaş, lovğa, təkəbbürlü adamlar başqalarının müvəffəqiyyətinin onların xəyalən təsəvvür etdikləri "şöhrətinə" xələl gətirməsindən qorxub  narahat olurlar. "Burda mənəm,  Bağdadda kor xəlifə" məsəli belə adamlara aiddir. Belələri paxıl, nadan və rəzildirlər. Paxıllıq mütləq özünü biruzə verən daxili çirkinlikdir. Paxıllıq  bacarığın yoxluğunu göstərir. Belə adamlar kordurlar. Öz gözlərində tiri görmür, başqalarının gözündə tük axtarırlar **A.A.Bakı-**

**xanov** belələrinə məsləhət görür ki, "Əsl insan odur ki, öz nöqsanını başqalarından yaxşı görə bilsin, bacarığını isə başqalarının bacarığından az hesab etsin". (A. S. Bakıxanov seçilmiş əsərləri, Bakı. 1986. səh. 115).

İnsan ancaq bu yolla özünün kim olduğunu, cəmiyyətdə necə yer tutduğunu, nəyə qadir olduğunu dərindən dərk edə bilər. "Bu sifət insan vücudunun yaraşığı, zahiri və mənəvi mənfəətlərin mənbəyi ola bilər. Zahiri mənfəət odur ki, mərifətli adamlar bir nəfəri təvazökar gördükdə onu özlərinə dost seçirlər, özlərini bəyənən xudpəsəndlər isə ondan hörmət gördüklərindən və onların qüruruna toxunmadığından onunla mehriban olarlar. Bu surətlə onun dostları çox, düşmənləri isə az olar. Ehtimal ki, düşmənlərin özləri də onunla dost olmaq istərlər. Heç olmazsa, ona əziyyət verməkdə çoşmaz və tələsməzlər. Bunun mənəvi mənfəəti ondadır ki, insan özünün nöqsan və acizliyindən xəbərdar olar və daha fəxr etməz. Beləliklə, təvazökar adam gündən-gündən özünə fikir verər, naqis sifətlərini mümkün qədər düzəldər və bununla da bunun dərgahında bəyənilər və tükənməz feyzlərə çatar. Doğurdan da, insan öz vücudundakı zəif hissəciyə belə ixtiyarı olmadığı halda, təkəbbür və lovğalıq etməyə nə haqqı var". İnsan bütün ömrü boyu zənginləşməyə, kamilləşməyə can atır ki, bu da onun ən yüksək, ən ülvi insani mədəniyyətlərdir. Burada görkəmli rus yazıçısı **M.M.Pirişiyevin** aşağıdakı deyimi yada düşür: "Təbiət haqqında yalnız o zaman danışmaq olar ki, özün nə isə naməlum bir şey tapasan, kəşf edəsən, anlayasan" Doğrudan da belədir, insan nə qədər ki, özünü tapmayıb, özünü dərk etməyib, özünü anlayıb başa düşməmişsə, onun dünyanı dərk edib anlamağına inanmaq çətindir "Hər bir insan-heç bir başqa tarixə bənzəməyən

bir tarixdir. (La Tur Dyu Pli) **Mişel** isə insanı bütöv bir bəşəriyyətə bənzədərək yazır “Hər bir adam bəşəriyyətdir, ümümdünya tarixidr”. Bu mənada şəxsiyyətin mənəvi kamilləşməsi onun özünüdərkindən, özünü axtarışa çıxmasından keçir. İnsan yalnız bu yolla özünü tərbiyə edib təkmilləşdirə bilər. Hələ XIII əsrdə Şərqin böyük mütəfəkkiri

Cəlaləddin Rumi demişdir:

Ey insan, tarixin kitabı sənsən,
Dünya gözəlliyinə bir ayinsən, sən,
Nə istəyirsən özündən istə, ara,
Nə arayırsansa sənsən, sən.

Bu fikirlərdə böyük bir həqiqiət var. İnsan özü-özünü tapmalı, bilməli və özündə olmayanları çalışıb özündə inkişaf etdirməlidir. İnsan bu yolla aqilləşir, biliyə, elmə, həqiqətə qovuşur. Özünü arayıb-axtarmayan, kəşf etməyən bir insan sözün əsl mənasında bütöv bir şəxsiyyət ola bilməz.

Saxta, üzdəniraq insanlar həmişə öz daxili çirkinliklərini gizlətsin və süni dona girərək “mələk libasına” bürünməyə çalışırlar. Lakin bu çox zaman mümkün olmur. Psixoloji tədqiqatlar sübut edir ki, danışan şəxsin hərəkətsiz üzündə məlumatın 10- 15 % i itirilir. Hələ qədim roma natiqi Siseron demişdir: “Üz qəlbin surətidir”. Bununla o qeyd etmək istəyirdi ki, insanın hissləri simasında əks olunur. (xoşbəxtlik, bədbəxtlik, təəccüb, qorxu, qəzəb, nifrət, paxıllıq, təkəbbürlük, eqoizm və s.) (5,səh. 45) Üzdə olan ifadələr insanların daxili aləmlərinin hisslərini ifadə edir. Bu informasiya mübadiləsində iştirak edən ən aktiv mimika sahəsi gözlər hesab edilir. Gözlər vasitəsilə həmsöhbətimiz haqqında daha çox məlumat toplaya bilərik. Məsələn  həmsöhbətimiz, xoşniyyətli,

səmimi olanda gözlərini üzümüzə zilləyir. Əksinə saxta, təkəbbürlü, yalançı, ilan xislətli həmsöhbət isə gözlərini qaçırmağa, baxışlarını yayındırmağa çalışır. “İnsaf “, “nəfs”, “nüfs” sözləri eyni kökdən olub, mənası adil olması və ədalətə çatdırmaq deməkdir. Əxlaqi gözəlliklərin ən mühüm əlamətlərdən biri də insafdır. Başqalarına qarşı insaflı olmaq, güzəşt və ehtiramdan doğur. İnsaflı şəxs odur ki, başqalarına qarşı bərabər hüquqla davranıb, həyatın məziyyətlərini özü ilə başqaları arasında ədalətlə olsun” (9, səh.326-327)

Əxlaqi borc və əxlaqi davranış hissi bir sərvət olmaq etibarı ilə əxlaqın əsas məsələsi olub, şəxsi mənafeyi ilə ümumi mənafeyi arasında bir vəhdət təşkil edir. Həqiqi əxlaqlı adamı o adamı hesab etmək olmaz ki, o, borcun əmrinə nə isə ağır bir yük kimi, “əxlaqi buxov” kimi baxsın. Əksinə yüksək əxlaqlı o adamı hesab etmək olar ki, borcun tələbləri ilə öz daxili mahiyyətinin tələbatlarını birləşdirməyə çalışır”. “İnsaf əxlaqi gözəlliklərdəndir” (A.A. Dobrolyubov).

L. N. Tolstoyun isə “əxlaqi borcsuz həyat yoxdur”, “öz borcunu yerinə yetirməyə çalışsan ki, o saat dərk edərsən ki, sən kimsən” deməsi insanın bir şəxsiyyət kimi formalaşmasında borc hissini nə qədər böyük əhəmiyyət kəsb etməsini bir daha sübüt edir.

Görkəmli fransız yazıçısı Viktor Hüqo borc hissindən bəhs edərək yazmışdır ki, “Mən populyar olmaq istəyirəm, bu xoşbəxtlikdir: lakin mən xeyirli adam olmaq istəyirəm, bu borcdur”. Rus yazıçısı isə borc hissini xarakterizə edərək göstərirdi. “Bizim hamımızın bir lövbərimiz var ki, əgər özün istəməsən heç vaxt səni büdrəməyə, yıxılmağa qoymaz, bu, borc hissidir”. “Əxlaqi borc böyük sərvət, ən ali fəzilətdir”. Heç bir əxlaqi borcla

özünü məhdud etməyən adam əlil insan deyildir. O hər gün qəbahətli hərəkətlər edə bilər. “İctimai borc-ictimai mənafeyin funksiyasıdır” (A.S.Makarenko) Borc hissi şəxsiyyətin öz iradəsini könüllü surətdə bu və ya digər əxlaqi sərvətlərin əldə edilməsi, saxlanması vəzifələrinə tabe etməsinin daxili psixoloji aləminin mənbəyi kimi özünü göstərən yüksək əxlaqi vəzifədir. Borc, hissi mənlik şüurunun rasional mexanizmi kimi iradi niyyətləri vicdanla, ümumiyyətlə müasir gənclərin mədəni davranış normaları içərisində sadəlik və təvazökarlıq problemi Türkiyə psixoloqların da diqqət mərkəzində olmuşdur.

Təvazökarlıq alicənablıq deməkdir və bu xüsusiyyətə sahib olan adama təvazükar insan deyilər. Alicənab adam başqasının xoşuna gələn bütün davranışlardan ehtiyyatlanaraq, onun qarşısında öz mənliyimi qorumaq şərti ilə müəyyən güzəştlərə gedir. Lakin buraya insan öz qürur və ləyaqətini qorumalıdır. Əgər başqasının şəxsiyyəti qarşısında öz şəxsiyyətinin sinməsi təhlükəsi onun xoşuna getmək, ona yaltaqlanmaq niyyətindən yaranıbsa bu qürursuz bir davranış hesab edilir. Təvazökarlıqda boş qürur və özündən razılıq yoxdur. Təvazökar insan daima özünü əsl dəyərinin altında qiymətləndirməyə çalışar: o başqa birinin önündə heç bir dəyərə sahib deyilmiş kimidir. Gərəksiz qürür sahibi biri həqiqətən var olan zəif bir cəhətini gizlətməyə çalışarkən, təvazükar insan isə sahib olduğu böyük qüvvətini gizlətməyə çalışır.

Təvazökarlıq mənəviyyatca bizdən daha böyük bir varlığa bağlılığımızın və insanlıq dünyasına, bütün həyata olan qarşılılıqlı bağlılığın fərqində olmaqdır. Əslində alçaq könüllük, yaradılışımızdakı çatışmazlıqları və şəxsiyyətimizin qüsurlarını görə bilməkdir, eyni zamanda daha öncə etdiyimiz və yenə də edə biləcəyimiz, hər kəsin

etmək ehrimalı olan yanlışlar və xətaları düşünməyə və anlamağa söykənir. Bizdən kənarda mövcud olan sonsuz varlığın və böyük həqiqətlərin qarşısında öz xırdalığımızı, kiçik olmağımızı, gücümüzün sərhəddini və insani zəifliklərimizi anlamağa, görməyə bağlı olaraq inkişaf edən bir fikir və davranışdır. Yəni alçaq könüllük özünü kiçik görmək demək deyil, daha doğrusu göründüyü, başa düşüldüyü kimi bir kiçik görmə deyil. Nə olduğunu bilməmək deyil, nə olmadığını bilmək və bunu qəbul edə bilməkdir. Təvazökar insan necə olursa olsun, nəyə sahib olursa olsun, heç bir zaman tanrı qədər qüsursuz olmayacağını anlayan ərdəm sahibi kimsədir. O, həqiqəti dərk edər, ona böyük sevgiylə bağlanar və bu sevgiyə boyun əyər. Təvazökar olmaq həqiqəti özündən çox sevməkdir.

İnsanlar yalnız öz hərəkətlərilə deyil, sözlərilə də başqalarına pis təsir edəbilər. Xalq arasında deyildiyi kimi "Gedər xəncər yarası, getməz söz yarası". Danışdıqda nəzakətlilik insanın öz danışığı zamanı müraciət qaydalarına düzgün riayət etmələrilə əlaqədardır. Xahiş edirəm, üzr istəyirəm, çox sağ olun, minnətdaram və s. kimi ifadələr mədəni adamın ən çox işlətdiyi sözlərdir.Bunlar insanın kefinə, əhvalına, onun rəftar və davranışına böyük təsir edir. Çünki, insanlar bu ifadələrlə başqalarına hörmət etdiklərini, onlara diqqətli münasibət bəslədiklərini bildirir, onlara salamatlıq, xeyirxahlıq arzu edirlər. Azərbaycanın böyük mütəfəkkiri və humanist şairi Nizami haqlı olaraq yazır:

Çalış ədəbli ol hər sözündə sən
Ədəblə danışsın səni dinləyən
Əqilli bir işdir yumşaq danışmaq
Axmağın işidir kobudluq ancaq

Nizami Gəncəvi bütün yaradıcılığında insanları, xüsusi ilə gəncləri sadə və təvazükar olmağa çağırırdı. O gənclərin bir şəxsiyyət kimi formalaşmasını onların sadə və təvazükar olmasında görürdü:

“Əlif” kişi öyünmə, düz dur  deyə qamətin ,
Lovğalıqdan əyilər bu fələyə qamətin.
Baş vaxtından əvvəl ucalsa əgər,
Özü tənəsinə sillə endirər.
Dən kimi yerə düş, başın ucalsın,
Sünbül kimi olma yel səni yerə salsın.
Bir ağac çox uca qalxmasa əğər,
Şiddətli küləkdən gəlməz bir zərər,
Ovlaqda ovçu ov atdığı zaman,
Dikbaş erkəklərə çox dəyər ziyan!

(Nizami Gəncəvi. İsgəndərnamə. Bakı.1941.səh. 103-104)

Təvazökarlıq insanın öz qüvvəsini düzgün qiymətləndirməsində, onu şişirtməsində, beləliklə başqasına xor baxmamasında ifadə olunur. Təvazökar adam heç zaman özü haqqında yüksək fikirdə olmaz, başqalarına da heç zaman aşağı nəzərlə baxmaz. Yalnız belə olduqda təvazökarlıq insanın zinətinə çevrilər, onu daha da qəşəngləşdirər,çünki ağac bar verdikcə başını aşağı əyər.

Təvazökar adam öz rütbə və vəzifəsini, məşhur adam olduğunu, öz xidmət və müvəffəqiyyətlərini heç zaman qabarıq şəkildə biruzə verməz. Gənclər heç zaman öz müvəffəqiyyətlərini şişirtməməlidirlər. Bu heç də o demək deyildir ki, təvazökar adam öz müvəffəqiyyətlərini guya gizlətməli, vəzifəsindən danışmamalı, öz nailiyyətlərini sir kimi saxlamalıdır. Əksinə, təvazökar adam öz müvəffəqiyyətlərini heç zaman unuda bilməz. Lakin, onlardan bəhs etmək lazım gəldikdə, öz müvəfəqiyyətini kolektivin müvəffəqiyyəti fonunda təsvir etməli, özündən,

müvəffəqiyyət əldə etmiş yoldaşları ilə birlidə danışmalıdır.Öz müvəffəqiyyətini fövqəladə bir şey kimi, qələmə verməməlidir. Onu adi bir vəzifə, borc kim saymalı, daha da yüksəltməyə səy etməli, yoldaşlarının da müvəffəqiyyətinə çalışaraq öz təcrübəsini onlara verməlidir. Təvazökar adam məhz belədir. Mehribançılıq, nəzakətlilik ən nümunəvi əxlaq qaydalarından biridir.

Mehribanlıq – onun əsasında xeyirxahlıq,səmimilik durur. O, gənclərdə qarşılıqlı münasibətlər mədəniyyətinin formalaşmasının zəruri şərtlərindən biridir.İnsanlara hörmətlə yanaşmanın kökləri buradan gəlir. Mehriban, ünsiyətli gənclərdə öz yerini qrupda, kollektivdə daha tez tapır. (23. səh 17)

Gənclərin hərtərəfli inkişafının zəruri şərtlərindən biri yeni insanın kollektivçilik, yoldaşlıq, qarşılıqlı yardım, təmkinlik kimi əlamətlərinin formalaşdığı həmyaşıdlar cəmiyyətinin olmasıdır. Həmyaşıdları ilə ünsiyyətdə olan gənclər əməyə daha tez alışır, məqsədinə çatmaq bacarığına yiyələnir. Uşağın böyüklər arasında yaşamağa hazırlandırılması onun öz həmyaşıdları ilə münasibətlərini qurmaq bacarığından başlayır.

“Gəncliyin pak güzgüsü, yaxud həyatda davranışa dair göstərişlər ” kitabında yazdığı müqəddimədə Birinci Pyotr belə hesab edirdi ki,tərbiyəli adamı üç məziyyət zinətləndirir : xeyirxahlıq, təvazökarlıq, nəzakət.

Müxtəlif dövlətlərin, siyasi baxışların, ənənələrin, mədəniyyətlərin nümayəndələri bir-birləri ilə əlaqə saxlarkən görüşüb danışmalı olurlar. Bu zaman adamların əcnəbi dilləri və yerli adətləri bilmələri ilə yanaşı özlərini təbii, eyni vaxtda çox sadə, insani mənada nəzakətli aparmaları tələb edilir. Belə bir bacarıq öz-özünə yaranmır. Onu öyrənmək gərəkdir.

Ulu öndərimiz Heydər Əlirza oğlu Əliyevin bu dövrün gəncləri üçün söylədikləri: “Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqən rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə deməl istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli, mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənlərimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır” bir daha sübut edir ki, ulularımızın bizə miras qoyduğu davranış formaları hələ də davam etdirilir.

Bəzən bir çox hallarda nəzakətli, təvazökar adamı gülməyən, danışmayan, zarafat etməyən, soyuq ciddiliyinə meyl edən, hər şeyə soyuq yanaşan adam kimi təsvvür edirlər. Bu, əlbəttə belə deyildir. Təvazökar adam çox gümrah, ürəyi açıq, xoş hal, yeri gəldikdə gülməyə, zarafat etməyə, əylənməyə meyl edən, həm də bunları ləyaqətlə bacaran adamdır. Bununla bərabər təvazökar adam şit zarafata, insanı gülünc vəziyyətə salan hərəkətlərə qarşı amansız olur. Özü də belə hərəkətlərdən həmişə çəkinir.

Mədəni davranış zahiri görkəmdə də əks olunur. Geyimdə, yeməkdə,səliqəlilik, təmizkarlıq, hərəkətlərdə zəriflik davranışın zahiri cəhətləri olub, ona qəşənglik verir. Gənclərin məharətli tərbiyəçisi A.S.Makarenko göstərir ki, insanın həyatında zahiri görkəmin böyük əhəmiyyəti vardır. Çirkli, səliqəsiz bir adamın öz rəftar və hərəkətlərinə diqqət verə bilməsini təsəvvür etmək çətindir. Səliqəli və təmiz paltar insanın hərəkətlərinin də zərifliyinə, onun rəftarının zərif olmasına, insanda yaxşı əhval-ruhiyyənin yaranmasına səbəb olur. Geyim səliqəli və təmiz olduqda adam da həmişə onun səliqəli qalmasına, təmiz olmasına çalışır.

Bunun üçün gənclər mədəni davranışın nədən ibarət olduğunu və necə ifadə olunduğunu bilməli, öz hərəkətlərində həmin sifətləri müstəsnasız ifadə etməlidir. Bu məsələdə xüsusən mədəni rəftar və davranışı adət şəklinə salmaq çox əhəmiyyətlidir.

Adətlər insanların gündəlik həyatında çox böyük rol oynayır. Onlar bir növ avtomatik tərzdə yerinə yetirildiyindən şərti reflekslər əsasında müvafiq şəraitdə hökmən ifadə olunur və beləliklə bizim şüurumuzu həmin hərəkət üzrə ciddi nəzarətdən azad etmiş olur.

Belə adətlər onlarla əlaqədar olan hərəkətlərin müstəsnasız olaraq dönə-dönə təkrar olunması sayəsində yaranır. Bunu nəzərə alaraq, müəyyən mədəni davranışı adət şəklinə salmaqdan ötrü hər bir gənc onu dəfələrlə yerinə yetirməli, bu məsələdə özünə heç bir güzəşt etməməlidir. Bu adamdan qətiyyət və iradə tələb edir. Çünki, bu zaman öz üzərində,öz tənbəlliyinin üzərində qalib gəlmək, bəzən çətinliyə, əziyyətə qatlaşmaq lazım gəlir. Bunsuz mədəni vərdişlər ələd etmək mümkün deyildir.

Mədəni davranışın inkişaf və tərbiyəsində əsas məsələlərdən biri də gənclərin bu işdə çalışması, mədəni davranış vərdişlərinin hamıda adət halına keçməsi üçün bütün qüvvələrini sərf etməsindən asılıdır. Çünki, kütlələrin özləri iştirak etmədən təkcə inzibati tədbirlər vasitəsilə hələ də gənclərimizin bir sırası içərisində baş verən eybəcər halları aradan qaldırmaq mümkün deyildir. Bunun üçün belə bir şərait yaramaq lazımdır ki, əxlaq normalrını, mədəni davranış qaydalarını pozan adamlar öz hərəkətlərinin bütün cəmiyyət tərəfindən pisləndiyini hiss etsinlər.Yüksək mədəni davranış tərbiyəsində nəzarətlə yanaşı insanın öz nöqsanlarını bilməsi və habelə başqa adamlara öz nöqsanlarını aşkara çıxarmaqda kömək

etməsi lazımdır. Bu isə tənqid və özünütənqidin geniş tətbiqi sayəsində mümkündür. Gənc yaşlarında mədəni davranış tərbiyəsində gəncin özünütərbiyəsi çox mühüm rol oynayır. Özünütərbiyədə birinci əsas şərt insanın öz nöqsanlarını aşkar etməsi və bu nöqsanları özünə aydınlaşdırmasıdır. İnsanın öz davranışındakı mənfi adətlərlə mübarizə etməsi asan iş deyildir. Amma mümkün olan işdir.Bunun üçün insan özünə sahib olmalı, öz hisslərini cilovlamağı bacarmalıdır. Mədəni davranış gənclərin içtimai-sosial həyatının bütün sahələini əhatə etməlidir.

Yemək stolunun arxasında, paltonuzu, papağınızı çıxarandan, yuyunandan sonra  əyləşin, oturarkən stula sərilməyin, süfrəyə nə çox uzaq, nə də çox yaxın oturmayın, dirsəkləri stolun üstünə qoymaq, yemək zamanı kitab, qəzet oxumaq məsləhət görülmür. Ailədə həmyaşıdları ilə ünsiyyət, içtimai yerlərdə, tədris müəsissələrində hər yerdə bu əxlaqi keyfiyyət onlarım müəyyən etməlidir.

Uşaqlar, gənclər yemək zamanı tələsməməlidirlər, iştaha ilə, ləzzətlə, yaxşı əhval-ruhiyyədə yeməyə adət etməlidir.

Mədəni gənc stolun üstünə düzülən çəngəl, bıçaq, qaşıqdan istifadə etməyi bacamalıdır. Əksər halda bıçağı sağ əldə, çəngəli isə sol əldə tutub istifsdə etmək lazımdır. Hər kəs öz çəngəl və bıçağından istifadə etməlidir. Bunlar adət halını alsa demək onu icra etmək asanlaşır.

Stolun üstünə qoyulmuş istiotdan, duzdan istifadə edərkən, onları xüsusi qaşıq ilə götürməyi unutmayın. Çəngəli və ya qaşığı ağıza vurub duza batırmaq olmaz. Süfrədə xörəkləri müəyyən növbə ilə yeməyi bilmək lazımdır. Çox ac olsanız belə yeməyi asta-asta yemək lazımdır, qarınqululuq etməyin. Artıq yemək səhhətinizi pozar. Atalar demişkən: “Çox yemək adamı az yeməkdən

də qoyar". Xörəyi elə yemək lazımdır ki, ağız boşluğunda xoşagəlməyən səs alınmasın.

Özünü qonaq yanında sadə, təvazökar göstərmək, təkəbbürlüyə, özünü tərifləməyə yol verilməməlidir. Qonaqlığa gedərkən sadə geyinmək lazımdır ki, sərbəst hərəkət edə biləsiniz. Ev sahibinin özü də sadə geyinməlidir. Geyimlər təmiz və səliqəli olmalıdır.

Ev sahibi qonaq qəbul edərkən gülərüz olmalıdır, əsəbiliyə yol verməməlidir. Məclisə gələn qonaqları ev sahibi bir-biri ilə tanış etməlidir. Qonaqlar süfrə başında əyləşibsə, əllə görüşməyin, baş əyib salam verin, amma ev sahibi ilə əllə görüşmək lazımdır. Məclisdən gedərkən bu qayda ilə xudahafizləşin.

Məclisədə maraqlı, ibratamiz söhbətlər etmək lazımdır. Xüsusi ilə ev sahibi araya şirin söhbət salmalıdır. Söhbətlər hamının başa düşəcəyi, hamını maraqlandıracağı tərzdə olmalıdır. Söhbət məclisin ruhuna uyğun olmalıdır. Söhbət zamanı sözü kəsmək, yanında əyləşənin qulağına söz demək, sözə qarışmaq, söhbəti çox uzatmaq, əsnəmək, danışana qarşı diqqətsiz olmaq ədəbsizlik hesab olunur.

Gənclərdə mədəni davranış və adətlərailədən başlayır. Ailədə qarşılıqlı hörmət olmalıdır. Bu prinsipi rəhbər tutaraq ailəni sevən, onun qayğısına qalan, uşaqların təbiyəsi ilə ciddi məşğul olan adamlar cəmiyyətdə yüksək qiymətləndirirlər. Evdə elə söhbətlər etmək, elə davranmaq lazımdır ki, bu söhbətlər, rəftar ailə üzvülərinin hamısına  xoş gəlsin, səmimiyyəti, qarşılıqlı hörməti artırmağa səbəb olsun. Ailə üzvülərinin xoşuna gəlməyən, qəlbə toxunan sözlər işlətməkdən çəkinmək lazımdır. Ümumi söhbətdə hamının xoşuna gələn, ürəyinə yatan sözlər seçib danışmaq məsləhət görülür.  Qonağın xatirinə

dəyən, əgər o kasıbdırsa, dəbdəbəli geyimlərdən, yeməklərdən, səyahətlərdən danışmaq mədəniyyətsizlikdir.

## Gənclərdə mədəni davranış və adətlərin formalaşmasında ailə mədəniyyətinin rolu

Uşaqlar dünyanın sülh rəmzi, ailənin xoşbəxtlik timsalıdır.Uşaq təkcə bir evin deyil, bütün el-obanın, xalqın ən böyük sərvətidir. Uşaq ailədə dünyaya göz açır, ailədə formalaşır. Uşaqlar hər bir ailənin sevinci, gələcəyidir, onların bir şəxsiyyət kimi formalaşmasında ailənin rolu böyükdür. Ailə üzvləri arasında yaranan pozitiv və neqativ əlaqələr,qarşılıqlı anlaşma,tərbiyənin vəziyyəti və s.uşaqların psixologiyasına təsir göstərir. Onları bir gənc kimi hazırlayır. Ailə uşaq üçün əsas yaşama mühitidir və yalnız ailədə uşaq onu fiziki və mənəvi cəhətdən inkişaf etdirərək həyatı dərk edir. Məhz ailədə xeyir və şər haqqında təsəvvürlər formalaşır, uşaqlar insanlarla qarşılıqlı münasibəti, ədəb qaydalrını, davranış normalarını öyrənir. Ailədə valideynlər bilməlidirlər ki, uşaq ailənin güzgüsüdür və ətrafda bunu əks etdirir, buna görə də valideynlər öz rəftar və münasibətlərində bunları nəzərə almalıdırlar. Ailədə mövcüd şərait, ailə üzvləri arasında əlaqələr, yoxsulluq və sərvətə nail olma dərəcəsi, tərbiyənin vəziyyəti, qəbul olunmuş dəyərlər, əxlaqi, mənəvi şərait, iqtisadi vəziyyət, qarşılıqlı anlaşma və s. uşaqların psixologiyasına hərtərəfli təsir göstərir. Bir növ gəncliyin inkişafı məhz uşaqlıq dövründən qoyulur.

Aparılmış tədqiqatlar göstərir ki,ailənin uşağın psixi inkişafına təsiri birmənalı deyildir. Bu amil hər bir ailənin özünəməxsus stereotip və yönəlişliklərə malik

olmasından, müxtəlif milli-etnik zəmindən, eləcə də hər bir ailənin fərdi strukturundan, dünyabaxış tərzindən və s. qaynaqlanır.

Elə ailələr var ki, orada etnik-milli xüsusiyyətlər, böyük-kiçiklik, qarşılıqlı hörmət, nəzakət, əxlaq qaydaları, davranış normaları gözlənilir və təbii ki, bu milli amillərdə də yetişən gələcək gənclər etnik qaydalara, adət-ənənələrə, Vətənə, xalqa, elə-obaya hörmət ruhunda böyüyüb və əsl vətəndaş kimi özünü göstərir. Əksinə bu bəzi ailələrdə mənəvi-psixoloji iqlim o qədər aşağı səviyyədə olur ki, orada yetişən gənc oğlan və qızlar ən sadə etnik qaydalara əməl etmir və cəmiyyətə artıq bir yük kimi dərd olurlar. Müasir dövrün ən böyük bəlalarından biri kimi ailə-övlad münasibətləri bu sahədə ciddi narahatlıq törədən problemləridir. Çox vaxt belə uşaqlar ata-ananın bircə övladı olur və ya nənələri, babalaraı tərəfindən tərbiyə edilir. Bu vaxt nənələr, babalar öz nəvələrini fiziki və mənəvi cəhətdən şikəst etdiklərini, onların müstəqil şəxsiyyət kimi inkişafına böyük zərbə vurduqlarını fikirləşmirlər. Uşaqların tərbiyəsində «getmə gözümdən gedərəm özümdən» prinsipi ilə hərəkət edən böyüklər bunun acısını sonradan çəkirlər. Böyüdükcə özündənrazı, infantil gənclərə çevrilən bu uşaqlar bir qayda olaraq, öz üzərinə məsuliyyət götürməyi bacarmır, həyatda özlərini təsdiq etməkdə çətinlik çəkirlər. Belə gənclər mədəni davranış qaydalarını gözləmir, kobud və rəzil olurlar. Tələbə gənclərdə mədəni davranış və adətlərin formalaşması erkən vaxtlardan ailədən başlamalıdır.

Qeyd edildiyi kimi bir çox amillər özünüdərketmənin formalalaşmasında təsir göstərir. Bunlarınn içində ən əhəmiyyətlisi ailədir. Tədqlqatların nəticəsi göstərir ki, valideynlərin bir-birləri ilə əlaqələrinin necəliyi və onların

uşaq tərbiyə etmə tərzləri uşaqların özünüdərketməsinin inkişafına təsir göstərir.

Uşaq yetişdimək üç istibdad, səhlənkarlıq və demokratik dəstəyə bölünür. İstibdadi metod uşağın yaradıcılıq və özünəinamının qarşısın alır. Səhlənkarlıq isə qeyri ictimai davramşların ortaya çıxması, məktəbdən yayınma, narkomaniyaya qurşanma və qeyri qanuni dəstələrə qoşulma kimi qəbul edilməz halların ortaya çıxmasma səbəb olur(123,s.54). Ancaq demokiratik metod qarşılıqlı hörmət əsasında tarazlıq və isti münasibət yaradan bəlli qaydalara malik bir metoddur. Bu tərbiyəvi üsul özünəinam, özünə hörmət, məqsədlilik və məsuliyyət hissin artıraraq uşaqda özünüdərketmənin inkişafı və optimallaşdırılmasında əhəmiyyətli rol oynayır.Bu tərbiyəvi üsulda valideynlər öz uşaqları ilə isti və səmimi münasibətlər qurur, onlara hərəkət, davranış və özünü ifadə etmə müstəqilliyi verir, onların fikirlərinə dəyər verilir və eyni halda onlara nəzarət də yaddan çıxmır.Uşaq yetişdirmə üsulları ilə narkomaniyaya qurşanma və başqa qeyri ictimai hərəkətlər arasında əlaqə mövcuddur. Tədqiqatların nəticəsi göstərirki, narkoman ailələrdə başqa ailələrlə müqayisədə isti və səmimi münasibət daha azdır. Uşaqlarının sayı çox olan, isti və səmimi münasibət hakim olmayan və uşaqlara nəzarətin zəif olduğu ailələrdə yetişən uşaqların narkomaniyaya meyli daha çox gözə çarpır. Buna görədə valideynlərin uşaqları tərbiyə etməsi üçün normal üsulları öyrənməsi və onların bu sahədə biliklərinin artırılması, onların uşaqlarının özünüdərketmələrinin inkişafı və möhkəmlənməsinə səbəb olar.

Bəzi valideynlər bilavasitə uşağın tərbiyəsi ilə məşğul olmaqdan özünəməxsus şəkildə imtina edirlər. Burada əlbəttə illər nəzərdə tutulur. Müxtəlif ailə tipləri

(tam ailələr, natamam ailələr) yəni elə ailə olur ki, ana yoxdur, elə ailə var ki ata yoxdur, elə ailə var ki, hər iki valideyn yoxdur. Bəzən sahibsiz, nəzakətsiz qalan uşaq və yeniyetmələr, gənclər küçə qruplarının, tüfeyli qruplara qoşulur, evdən qaçırlar, ana-atadan “küsürlər”, bir çox hallarda isə fahişəliyə yuvarlanırlar. Təbii ki, burada ətraf aləmin, ailə-mühitin komunikasiya texnalogiyaların da günahı az deyil. Televiziya verlişlərində, qəzet və jurnallarda maarifləndirici proqramların sayı olduqca azdır. Çox açınacaqlı bir vəziyyət yaranıb. Gənc 15,16,17 yaşında oğlan və qızlar evdən qaçır, valideynləri olmazın əziyyətinə salır. Bu işdə bizə elə gəlir ki, nəticədə valideynlərin vaxtında övladlarına olan nəzarətsizlikdən irəli gəlir. Uşağın tərbiyəsi kiçik yaşlarından dayələrə, bağça tərbiyəçilərinə tapşırılır.Onlar ailənin maddi təminatına xüsusi əhəmiyyət verirlər və ailənin maddi təminatını hər şeydən vacib, daha önəmli sayırlar. Belə valideynlərin özünəməxsus tərbiyə üsulu vardır.Onlar övladlarının tərbiyəsinə o zaman xüsusi diqqət yetirirlər ki, uşaq hansısa xoşagəlmə hərəkətə yol vermişdir və ya at-anasının nəzərində əl-ayağa dolaşır. Bu cür valideyn-lərin tərbiyəsi sərt qadağalardan, çox zaman isə uşağın döyülüb söyülməsi ilə tamamlanan fiziki təzyiqdən ibarət-dir. Çox zaman şahid oluruq ki, oğlan və qız ata, anasının qadağalarından beziyir, evdən qaçır, xüsusilə qız uşaqları qoşulub qaçırlar. Belə vəziyyət təbii ki, uşaqda qorxu və inamsızlıq hissini qüvvətləndirir, onun ətraf mühiti anla-masında, sosial mühitə uğunlaşmasında ciddi problemlər yaradır. Aydındır ki, valideyn öz övladlarının düşüncələ-rini, narahatlığının səbəbini anlamırsa, bunu düzgün qiy-mətləndirməyi bacarmırsa, çox zaman onun hiss və həyə-canlarına, arzu və istəklərinə, duyğularına və maraqlarına

əhəmiyyət vermirsə, onda qarşılıqlı münasibətlərində çoxsaylı problemlərin meydana çıxması qaçılmaz olacaq. Burada ata-ananın təhsil səviyyəsi də ciddi rol oynayır.

Ailədə uşaqlara hədsiz imkanın yaradılması və bu səbəbdən onlara göstərilən diqqətsizlik gənclik yaşında bir çox problemlərə səbəb olur. Xüsusilə də, imkanlı ailələrdə böyüyüb boya başa çatmış uşaqların çoxusu zərərli vərdişlərə-narkotiklərə, siqaret çəkməyə, alkoqolizmə və s. meyilli olurlar.Valideynləri bu zaman belə sual maraqlandırır; «Onların(uşaqların) hər şeyi var, nəyi çatmır ki, zərərli vərdişlərə yiyələnirlər?Onları bu vərdişlərə yönəldən nədir?» – Bunun cavabı birmənalı olaraq – valideyn sevgisinin, qayğısının əksikliyidir. Bu ailədə valideynlərlə övladların ünsiyyət dairəsi olduqca məhdud olur. Onlar çox nadir hallarda nəyisə birgə açıq şəkildə müzakirə edirlər. Uşağın öz valideynləri ilə ünsiyyət və dialoq qurmaq təcrübəsinin olmaması çox vaxt onun digər insanlarla ünsiyyətini də çətinləşdirir (100,s.25).

Azərbaycan xalq yaradıcılığında öz əksini tapan adətlərin, illər boyu möhkəmlənmiş ailə stereotiplərinin, ümumilikdə milli-mənəvi dəyərlərin, orada öz əksini tapan təlim, tərbiyə psixologiyasına aid ideyaların qorunub saxlanılmasında, təbliğ və təqdimatında, qiymətləndirilməsində, aydın dərk olunmasında, əməli fəaliyyətimizdə istifadə olunmasında ailənin çox böyük rolu vardır. Ailə kiçik bir dövlətdir. Dövlətçiliyə xas olan bütün sosial-iqtisadi, siyasi-elmi problemlər ailədə realizasiya olunur. Bu baxımdan ailənin mənəvi-psixoloji sağlamlığı, təlim-tərbiyəsi, ailə strukturunun sağlam mənəviyyat üzərində qurulması milli qürur və ləyaqətin bərqərar olunmasınaköməklik edən ilk özəklərdəndir. Ailə möhkəm etnogen əsasında qurulanda orada milli tərbiyə də istənilən

səviyyədə olur və bu da cəmiyyətin sosial-psixoloji inkişafına təsir göstərir. Azərbaycan psixoloqları bu istiqamətdə də bir sıra tədqiqatlar aparmış, Azərbaycanlı ailəsində təlim-tərbiyənin, sağlam psixoloji iqlimin yaradılmasının etnik-psixoloji səbəblərini, eyni zamanda ailələrdə baş verən münaqişələrin sosial-iqtisadi köklərini göstərmiş, ailə həyatına hazırlıqda özünü göstərən məsələlərə tərbiyəçilərin, valideynlərin, xüsusilə yeniyetmə və gənclərimizin diqqəti cəlb olunmuşdur (83,s.262).

Məlumdur ki, hər bir xalqın, millətin etnopsixoloji əxlaq normaları və milli hissləri həmin var və bu milli, mənəvi dəyərlər xalqın ədəbiyyatında, ümumən ədəbi-bədii irsində, eləcə də kinosunda,incəsənət əsərlərində, folklor nümunələrində, adət ənənələrində öz əksini tapır. Gənclərimiz folklorumuzda öz əksini tapan mənəvi dəyərlərdən güc alıb, formalaşmalıdırlar. (Böyüksüz evdə xeyir, bərəkət olmaz. Kişisi olmayan ruzisi olmaz). Atalar sözləri "Azərbaycan folkloru", (Bakı.2005, 6 səh). Ayrı-ayrı xalqlara, millətlərə xas olan ədəbi-bədii irsdə, xüsusən folklor materiallarında, eləcə də kino və ya başqa sənət əsərlərində öz əksini tapmış əxlaqi hisslər qarşılaşdırıldıqda etnik-milli hisslərdəki fərqlər aydın surətdə nəzərə çarpır. Bu cəhətdən son illərdə böyük əksəriyyətimizin xüsusi maraqla baxdığımız «SantaBarbara», yaxud «Tropikankalıların sirləri» və s kimi filmlərdə ailə, ər-arvad münasibətləri bizdə təəccüb doğurur. Necə yəni ərli qadın öz ərinə elan etsin ki, mən kimi isə sevirəm, onunla görüşürəm və vaxt gələndə səndən ayrılıb ona gedəcəyəm. Bu qəbildən olan misallar çox gətirmək olar. Onlar yalnız «kino əsəri» kimi qəbul edilə bilməz.Həmin xalqın ailə münasibətlərinin, əxlaqi hisslərinin təzahürüdür. Tələbə milli etnik soykökümüzə yad olsa belə, yad

ünsürlər gənclərimizin mənəviyyatını pozur, onlarda sevgiyə ümidsizlik, laqeydlik yaradır. Gənclərimizin ruhuna yol tapan belə hallara qarşı mübarizə aparmaq hər birimizin borcudur.

Uşaq və yeniyetmələr, gənclər valideynlərin ağılabatan nəsihət və tövsiyyələrini eşitmirlər, onları qəbul etmirlər. Bu zaman həm özü, həm də ata-anası, həm də cəmiyyət üçün böyük problemlər yaradacaq. Gənclər valideyn ruhunda tərbiyə etmək üçün ən gözəl vasitə ona məhəbbət və şəfqət, istək və sevgi göstərməkdir. Əmr və tələblərlə yumşaq və mülayim, nəsihət və yol göstərmək şəklində etmək valideynlərin borcudur. belə olduqda uşaq onların sözlərini eşidib, dediklərini yerinə yetirəcəkdir. Sərt və qəddarcasına rəftar, çox danlamaq isə tez bir zamanda əks nəticələrə gətirib çıxara bilər. Uşaqla gözəl rəftar etdikdə, danlağı azaltdıqda, fiziki cəza tətbiq etmədikdə o, valideynini razı salmağa can atır və buna vərdiş edir. Anadan olandan 7 yaşına qədərki dövründə uşağa diqqət xüsusilə vacibdir. Bu yaş dövründə uşağın gördüyü məhəbbət və qədirbilmənin onun həyatında bütün şaxələrində böyük təsiri var. Valideynlərin ən pis cəhəti odur ki, onlar yaxşılığı ifrat həddə çatdırır.Uşaq müəyyən xoşagəlməz hərəkətlərə əl atsa, valideyn onun qarşısını alıb, zərərli olmasını başa salmalıdır.Yumşaq rəftar, başa salma fayda vermədikdə fiziki yox, mənəvi cəzalandırma dövrü çatır. Mənəvi cəza fiziki cəzadan daha xeyirlidir.Ailədə uşaqların tərbiyəsində təsirli vasitələrdən biri kimi valideynlərin ictimai məzmunlu söhbətləri böyük əhəmiyyətə malikdir. Ata-ananın bir-birilə, evə gələn kənar şəxslərlə, uşaqlarla söhbəti belə bir gerçəyi aşkar etməlidir ki, kollektivdə fəaliyyət göstərən hər bir adam mütləq kollektivin mənafeyi ilə yaşamalı, onun irəli getməsinə,

müvəffəqiyyətinin artmasına çalışmalıdır. Məhz bu məzmunda söhbətləri dəfələrlə eşitdikcə ümümi mənafeyi şəxsi mənafedən üstün tutmaq meyli tədricən hər bir uşağın daxili tələbatına çevrilir. Faktlar göstərir ki, uşaqlar böyüklərlə bir qayda olaraq daha həvəslə işləyirlər. Əlbətdə, burada böyüklərin təcrübəsi və şəxsi nümunəsi başlıca rol oynayır.Ailədə uşağın mənəvi həyatına düzgün istiqamət vermək, habelə onlarda ictimai şüuru inkişaf etdirmək ən zəruri məsələdir.Bunu sosial tərəqqinin inkişaf sürəti tələb edir. Darvin yazır:« Mən əxlaqi hissi və vicdanı insanı heyvandan ayıran ən qüvvətli əlamət hesab edən yazıçıların fikirlərinə ikiəlli qol çəkirəm. Onun hökmranlığı qısa lakin qüdrətli və son dərəcə mənalı bir sözdə- «borcluyam» sözündə ifadə edilmişdir. Bəli, insanı əsla tərəddüd etmədən məcbur edən, uzun və dərin ədalət və borc hissinə əsaslanan düşüncədən sonra insanı hər hansı böyük iş üçün öz həyatını qurban verməyə məcbur edən bu daxili mahiyyət doğrudan da insanın ən ülvi əlamətidir» (102, s.106).

Kiçik yaşlardan başlayaraq oğlan və qızların adət-ənənələrə dönmədən riayət etməsi ruhunda tərbiyəsi işində ağsaqqal və ağbirçəklərin öz həyat gör-götürləri, toy şənlikləri, ad günləri , əşyalara qayğılı münasibət hissi, nəcib və xeyirxah əməllərin, peşə və sənətləri nəsildən-nəslə ötürülməsi, təmiz ad, şan-şərəf, isəmt və namus, şərə nifrət,əliaçıqlıq, qan tökülməsinin və düşmənçiliyin qarşısını almaq və s. bu kimi adət-ənənələrin də mühüm rolu vardır (8, s.11).

Ailə münasibətlərinin gənclərin davranışında tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüəkdə olan nəslin tərbiyəsində valideynlərin istifadə etdikləri tərbiyə üsulları da mühüm rol oynayır. Ailə

münasibətləri uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibtləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s.formalaşır. Bəzi ailələrdə uşaq nadinclik etdikdə, sözə baxmadıqda, dərslərini öyrənmədikdə, xoşagəlməz işlər tutduqda valideyn yerli-yersiz onu döyür.Bu isə uşağın düzgün tərbiyəsinə son dərəcə mənfi təsir göstərir və həmcinin valideyn uşağın gözündə nüfuzdan düşür. Məlumdur ki, fiziki cəzaya əl atan valideyn uşağa təkcə fiziki zədə deyil, həm də psixi zədə yetirir. Psixoloji tədqiqatlar göstərir ki, gənclik dövründə uşaqların mənlik şüuru inkişaf edir, onlar özlərin bir şəxsiyyət kimi yüksək qiymətləndirir, öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşürlər.Bu da o deməkdir ki, artıq fiziki cəza təkcə fiziki cəhətdən deyil, həm də psixi cəhətdən zərərlidir. Buna görə də uşaqları döymək olmaz. Bu onun ləyaqətini alçaltmaq, şəxsiyyətini tapdalamaq deməkdir. Valideyn ilk növbədə, tərbiyənin məqsədini aydın təsəvvür etməlidir. Ailədə tərbiyə işi uşağın mənafelərinə yönəlməli, onun hüquqlarına və şəxsiyyətinə hörmət mühitinə əsaslanmalıdır. Çox vaxt ailədə uşağın qəbahətli hərəkətlərinə görə cəzaların seçilməsində valideynlər arasında fikir ayrılıqları olur. Tərəflərdən biri daha kəskin, digəri isə daha yumşaq, uşaqlarda incikliyə səbəb olmayacaq cəzaya üstünlük verirlər. Tərbiyə üsulu kimi cəza problemi də indi də pedaqoji cəhətdən fikir ayrılığına səbəb olan problemlərdən biridir. Həttda dünyanın elə ölkələri var ki, orada uşaqlara qarşı heç bir cəza tədbiri tətbiq olunmur. Alman psixoloqu İ.B.Hippenreyter valideynlərə uşaqla ünsiyyət zamanı aşağıdakı qaydalara əməl etməyi tövsiyyə edir:

1. Bütövlükdə uşaqdan deyil, onun ayrı-ayrı hərəkətlərindən narazı olguğunuzu bildirin.

2. Nə qədər yolverilməz olsa belə, onun hisslərini deyil, əməllərini məzəmmət edin.

3. Heç vaxt uşaqdan mümkün olmayan və ya yerinə yetirilməsi çətin olan işlər tələb etməyin. Yaxşısı budur, fikir verin, ətrafda nəyi dəyişdirmək mümkündür.

4. Uşağın hərəkətlərindən narazı olduğunuzu tez-tez üzə vurmayın əks halda o,düşünmək imkanından məhrum olar.

5. Uşağın emosional problemlərini öz üzərinizə kötürməyə və onunla yüklənməyə çalışmayın.

6. Uşağa öz mənfi hərəkətlərinin nəticələri ilə üzləşmək imkanı verin. Bu ona öz səhvlərini anlamaqda kömək edər.

7. Uşaq yardım istəmədikdə, onun işlərinə müdaxilə etməyin. Əgər uşaq çətinliklə rastlaşmışsa və sizdən kömək istəyirsə, bunu əsirgəməyin.

8. Əgər uşağın hərəkətləri sizi hövsələdən çıxarırsa, bu barədə ona xəbərdarlıq edin.

9. Artıq bu problem və konfliktlərdən uzaq olmaq üçün öz imkanlarınızın uşağınkından üstün olduğunu göz önünə gətirin.

10. Tədricən, lakin durmadan uşağınızın şəxsi əməllərinə görə məsuliyyətdən uzaq olmağa çalışın. Qoy uşağınızın özü hərəkətlərinə görə məsuliyyət daşıdığını anlasın.

11. Öz hisslərinizi uşaqdan gizlətməyə çalışmayın. Uşağınız haqqında fikir və hisslərinizi bildirməkdə ehtiyatlanmayın. Onun davranışı və hərəkətləri haqqında uzunçuluqdan çəkinin .

Uşağın mənəvi-psixoloji aləmi, ruhu çox zəifdir, həssasdır. Ola bilsin ki, kiçik bir hərəkətlə onun əhvalı pozulsun. Bəzi ata-analar səhv olaraq düşünürlər ki, elə ki, ata-ana oldular onlar övladlarına qarşı hər cür ixtiyara,

hakimiyyətə malikdirlər və onlarla hər cür formada rəftar edə bilərlər. Halbuki, bu zaman çox zərif bir hədd və sərhəd vardır. Bunlar göstərir ki, əgər ata-ana övladlarına hakim olarlarsa onda xeyir və bərəkət bütün ailə üzvlərini öz pərdəsi altına alacaqdır. Valideynin ən mühüm məsuliyyətlərindən biri uşaqda müsbət izzəti-nəfsin formalaşdırmasıdır. Başqa sözlə desək, uşağı elə tərbiyə etmək lazımdır ki, özünə qarşı yaxşı hisslərə malik olsun və özünü dəyərləndirsin. Bu işin ardınca uşağın potensial imkanları və bacarığı çiçəklənir, onun həyata meyli artır. Müsbət izzəti-nəfsi yaratmaq üçün hər şeydən əvvəl uşaqlara anlatmalıyıq ki, onları sevirik. Uşaqların inkişafı üçün məhəbbət zəruridir. Bu cəhətdən uşaq evlərində böyüyən uşaqlar valideyn məhəbbəti görmədikləri üçün biganə olur, hissiyyatsız və özbaşına olur. Ailə üzvləri bu istiqamətdə uşaqların ehtiyaclarını aradan qaldırmaq üçün məhəbbəti təkcə sözlərlə deyil, əməli işləri ilə öz məhəbbətlərini uşaqlara bildirməlidirlər. Bundan başqa uşaqlara hörmət qoymaq, onları təhqir etməkdən, danlamaqdan çəkinmək lazımdır. Uşaqlarla münasib sözlərlə əlaqələr qurmaq, ona qulaq asmaq,sözlərinə diqqət yetirmək valideynin vəzifəsidir. Uşaqlarda məsuliyyət hissinin formalaşdırılmasına diqqət yetirmək lazımdır. Onlara az yeni məharətlərini icra etməyə imkan vermək uşaqların razı qalmasına, yeni təcrübələr qazanmasına səbəb olur və uşaqların öz valideynindən aldığı ən böyük mükafatdır. Bütün bu məsələlər uşağın nəfsə etimadının, izzət nəfsinin,əxlaqının tərbiyəsində əsaslı rol oynayır. Uşaqlara qarşı diqqətsizlik onların inkişafının və təkamülünün əsaslarını məhv edir.

Uşaq, yeniyetmə və gənclərin, yaşlıların, ata və ananın sözü ilə işi arasındakı uyğunsuzluğu asanlıqla seçə

bilir. Bəzən valideynlər uşaqdan doğurçu, səmimi olmağı tələb edirlər, lakin özləri uşağın qarşısında buna əməl etmirlər.Məsələn, ata-ana yalan danışır, hətta bəzən uşağa tapşırırlar ki, soruşan olsa de ki, evdə yoxdur, zəng edən olsa de ki, yatıbdır.Yaxud başqa bir misal: qapı döyülür, qonşu gəlir, valideynlər əl-ayağa düşür, qonşunun gəlişinə sevindiklərini bildirirlər.Elə ki, qonşu gedir bayaqki münasibət dəyişir,qonşunun ardınca qeybətə başlayırlar. Uşaq isə bütün bu mənzərənin şahidi olur.Təbii ki, valideynlərin belə davranışı uşağa öz mənfi təsirini göstərir. Ailənin yaşlı üzvləri arasındakı qarşılıqlı münasibət uşaqlarda böyüyə hörmət və başqalarına qayğı hissi tərbiyəsi üçün birinci məktəbdir (30, s.127).

A.S.Makarenko yazır ki, «Sizin öz davranışınız ən həlledici məsələdir. Elə bilməyin ki, siz uşağı yalnız onunla danışanda və ya öyrədəndə,yaxud ona əmr verəndə tərbiyələnirirsiniz.Siz onu öz həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və özgə adamlar haqqında, dostlar və düşmənlərlə necə rəftar edirsiniz, necə gülürsünüz, qəzeti necə oxuyursunuz – bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır. Uşaq sizin həyatınızın ahəngindən ən kiçik dəyişikliyi görür, yaxud hiss edir, sizin fikrinizin bütün dönüşləri görünməyən yollarla ona çatır, siz bunları görmürsünüz» Əsrlər boyu şərq mütəfəkkirləri ailədə uşaq və yeniyetmələrin, gənclərin davranış qaydalarına, əxlaq tərbiyəsinə qayğı ilə yanaşmağı tövsiyyə etmişlər. Azərbaycanın böyük mütəfəkkir və filosofu, astroloqu N. Tusinin (1201 - 1274) "Əxlaqi-Nasiri" əsərində bu baxımdan zəmanəmizin səslənən xeyli fikirlər öz əksini tapır. Ailə dolandırmaq, ər-arvadın özünə məxsus psixoloji keyfiyyətləri, ailə-övlad münasibətləri

həmin əsərdə çox ətraflı verilir ki, bu günkü gənclərimiz onlardan geniş istifadə edə bilsinlər. Arvadın ən yaxşısı odur ki, ağıllı, dəyanətli, iradəli, həya, ismət, nəzakətdə, üzüyolalıqda, ərinin sözünə baxmaqda, fədakarlıqda, dostluqda, tayı-bərabəri olmayan, qohum-əqrabaları, arasında vicdanlı, hörmətli hesab edilə, tərbiyə verməkdə, səliqə yaratmaqda, pul xərcləməkdə, təsərrüfatı idarə etməkdə, mahirlik göstərə, qayğıkeşliyi, mehribanlığı, xoş xasiyyətli, ərinin könlünü almağa, dərdini danışmağa səbəb olar".(N. Tusi. "Əxlaqi - Nasiri" Bakı.2005. səh. 162. (səh. 279)

Tərbiyə işinin səmərəli təşkilində uşaqların mənəvi cəhətdən sağlam inkişafında metodoloji səciyyə daşıyan dəyərli fikirlər min illərin süzgəcindən keçərək təsdiqini tapmış və əhəmiyyətini saxlamışdır. Əsərdə təqdim olunan bütün fikirlər səbəb-nəticə kontekstində təqdim olunaraq nəzəri və praktik əsaslarla əlaqələndirilir. Tusi uşağın tərbiyəsində idraki qüvvələrdən əvvəl utanmaq, həya əlamətlərinin özünü göstərməsini nəzərə almaq lazımdır. Uşağın həyalı olmasını onun nəcibliyinə sübut kimi dəyərləndirən Tusi tərbiyənin birinci şərti olaraq təbiətini korlaya bilən səbəblərdən qorumağı vacib sayır. Ona görə ki, uşaq nəfsi sadə olar, ətrafdakıların təsirinə tez məruz qalar.Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etməyi lazım bilən Tusi ağıla-şüura, idraka təsir edən başa salmaq yolunu vasitə kimi diqqətə çatdırır. Başa salmaq indi bilmək, anlamaq, tətbiq, təhlil, tərkib və dəyərləndirmə mərhələlərindən keçməyi tələb edir. Təfəkkürə əsaslanan yeni təhlil proqramı Tusinin tərbiyə ilə bağlı ənənədən yeni pedaqoji texnologiyaların köməyi ilə tətbiqi səmərəli nəticələr verər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Bayramov Ə. "Etnik Psixologiyam məsələləri" Bakı, 1996, 205s
2. Quliyev S.M Gənclərin tərbiyəsində aqillərin nəsihət və vəsiyyətləri Bakı, 2011,95.s
3. Ağayev Ş.S. Gənclərin mədəni davranışı, Bakı 1956, 59 səh
4. Avtoreferat 1956, 59 səh
5. Ağayev Ş.S. Uşaqların mədəni davranış və adətlərinin tərbiyəsi, Bakı, 1966, 62 səh
6. M. T. Sidqi. Seçilmiş əsərləri. 1969.
7. Quliyev S.M. Qloballaşma və müasir gənclərin tərbiyə problemləri. Bakı, 2013
8. K. D. Uşniski – Seçilmiş əsərləri. Rus dilində buraxılmış. I kitab. RSFSF.PEA. Nəşriyyatı. M. 1946 səh. 99.103
9. Azərbaycan Folkloru, Bakı, 2005, 375 səh
10. Göyüşov Z. Daxilə pəncərə. Bakı 1978.198 səh
11. Balabəyova İ. Yeniləşmə şəraitində sosial-psixoloji münasibətlərin formalaşması xüsusiyyətləri, Bakı 2007, (nam.dis)
12. Bayramov Ə. Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi, Bakı, 1963, 30 səh
13. Bayramov Ə. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri, Bakı, 1967, 395 səh
14. Bayramov Ə. Kiçik məktəb yaşlı şagirdlərdə əqli keyfiyyətlərin inkişaf dinamikası, Bakı BDU, 1967 (nam. Dis)
15. Bayramov Ə. Gənclik və özünütərbiyə haqqında söhbət. 1969. 80 səh

16. Y. A. Kamenski. Seçilmiş əsərləri. Bakı. 1986.319 s.
17. Bayramov Ə. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri, Bakı, 1985, 140 səh
18. Bayramov Ə. Psixoloji etüdlər, Bakı 1989, 225 səh
19. Bayramov Ə. Psixoloji düşüncələr, 1994, 194 səh
20. Bayramov Ə. Etnik psixologiya məsələləri, 1996, 208 səh
21. Baxışəliyev Ə. T. Azəzrbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti haqqında fikirlər. Bakı, 2007.598 s.
22. Baxışəliyev Ə.T Qurani Kərim də şəxsiyyətin sosial psixoloji fəaliyyəti haqqında fikirlər. "Dillər universitetinin xəbərləri" 2010 № 6
23. Baxışəliyev Ə.T Qurani Kərim də şəxsiyyətin sosial psixoloji fəaliyyəti haqqında fikirlər. "Dillər universitetinin xəbərləri" 2011 № 5
24. Baxışəliyev Ə.T Azərbaycanın mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011, 51 səh
25. Baxışəliyev Ə.T Psixologiya tarixi oçerkləri, Bakı 2013, 60 səh
26. Seyidov M. Azərbaycan mifik təfəkkürü . Bakı Azərnəşr. 1983. 250 səh
27. Zeynallı M. Ağız Ədəbiyyatı. Maarif və mədəniyyət jurnalı 1926 № 3
28. Əliyeva K. Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji problemi Bakı 2008 (dok.dis)
29. Həşimov. Ə Şifahi xalq ədəbiyyatındakı tərbiyəvi fikirlər. Bakı 1979 səh 79
30. Hikmətli sözlər. Bakı, 1961225 s.

31. Azərbaycan tarixi. Bakı.1986. 515 s.
32. Azərbaycan şifahi xalq ədəbiyyatına giriş IV cild. Bakı 1973. 203 səh
33. Atalar sözü və məsəllər I cild. Bakı 1961. 345 səh
34. Əliyev R. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması 1995 225 s
35. Əliyev R. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı 2000, 195 səh
36. Əliyev R. Məktəbə psixoloji xidmətin əsasları, Bakı 2004.
37. Əliyev R. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları, Bakı 2004 (dok dis)
38. Əliyev R.Tərbiyə psixologiyası 2006, 116 səh
39. Əliyev R. Psixologiya tarixi, Bakı, 2006, 382 səh
40. Əliyev R. Etnopsixologiya, qloballaşma və millilik, Bakı, 2007, 215 səh.
41. Əliyev R. Psixologiya, Bakı 2008, 370 səh
42. Əliyev R. Psixologiya, Bakı 2008, 353 səh.
43. Əliyev R. Mentalitet, Bakı 2009, 190 səh.
44. Abbasəli S. İnci xəzinəsi, Bakı 1977, 101 s
45. Əlizadə Ə. Şagirdlərdə təxəyyülün inkişafı, Bakı, 1965, 62 səh
46. Atalar sözü. Bakı 1938
47. Ə. Hüseynzadə, Atalar sözləri, Bakı 1982, 367 səh
48. Yusifov K. Atalar sözü və məsəllər. Bakı 1968
49. İbrahimov İ. Atalar sözü və məsəllər, Bakı, 1961
50. Əlizadə Ə. Xəmsədə yaş və pedaqoji psixologiya məsələləri. Bakı, 2002

51. Nəsrəddin Tusi. Əxlaqi Nasir, 2005, 278 səh.
52. Baxşəliyev Ə.T Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti, Bakı 2008
53. Bayramov Ə.S. Özünütərbiyə haqqında // Azərbaycan məktəbi, 1972, № 10
54. Bayramov.Ə.S Uşaqlarda məsuliyyət hissinin tərbiyəsi, Bakı: Maarif 1962
55. Dadaşova T. Yeniyetməlik dövrünün ziddiyyətləri və onların tərbiyə prosesində nəzərə alınması // Azərbaycan məktəbi, 1975, №6.
56. Davranış etikası. Bakı, 1955
57. Əfəndiyev.T Uşaqlarda yoldaşlıq və dostluq tərbiyəsi,Bakı Azər tədris nəşr, 1962
58. Əliyev H.Ə Müstəqil dövlətimizin gələcəyini bu günün gəncləri qurmalıdır. Bakı, Azərnəşr, 1993
59. Əlizadə Ə.Ə, Abbasov A. Ailə həyatının etika və psixologiya kursuna dair metodik tövsiyələr Azərbaycan məktəbi, 1987
60. Əlizadə Ə.Ə, Ailə həyatının etika və psixologiyası, Bakı Maarif, 1986.
61. Qədirov Ə.Ə. mədəni davranış və onun tərbiyəsi. Bakı 1970
62. Quliyev S.M. Gəncliyin davranış və nəzakət tərbiyəsi. Bakı, 1997
63. Quliyeva M.A. Müasir Gəncliyin əxlaq normaları. Bakı, 2002
64. Tağıyev Ə. Uşaqda mədəni rəftar və nəzakət tərbiyəsi. Bakı, 1956
65. Talıbov Y.K, Sadıqov F.B, Quliyev.S.M Gənclərin mənəvi tərbiyə problemləri, Bakı Ünsiyyət, 1998
66. Yusifzadə A. Mədəni davranış tərbiysəində məktəblə ailənin birgə hərəkətləri. Bakı, 1969

67. Nizami Gəncəvi “Sirlər xəsinəsi”. B. 2004, 262 s.
68. Nizami Gəncəvi “Yeddi gözəl”. B. 2004, 335 səh.
69. Nizami Gəncəvi “Leyli və Məcnun”. B. 2004, 286 səh.
70. Nizami Gəncəvi “İsgəndərnamə”. B. 2004,429 səh.
71. Nizami Gəncəvi “Xosrov və Şirin”. B. 2004, 311 səh.
72. Abbasov Ə. Yeniləşən cəmiyyət, müasir elmi paradiqma və idarəetmə (ümumi-nəzəri sinergetik təhlil). Bakı: Elm, 1998.
73. Dadaşov A. «KİV-də reklam və marketinq problemləri», Bakı : Bakı Univer-siteti nəşriyyatı, 2001
74. «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı // Azərbaycan.-1999.-3 iyul
75. Əliquliyev R.M., Mahmudova R.A. Təhsilin informasiyalaşdırılmasının bəzi konseptualməsələləri // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. Pedaqoji-psixoloji elmlər seriyası, № 9, 2007
76. Hacızadə H. İnformasiya mənbələrinə sərbəst giriş. Məşvərət bülleteni. Bakı, 2001, № 6, s.25-34
77. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mürtəcim,2008, 226 s.
78. M. F. Axundov. Əsərləi. I s.2005, səh 51-52s. 306s
79. Ağayev Ş.Uşaqlarda mədəni davranış və adətlərin tərbiyəsi. Bakı; Azərtədrisnəşr, 1961, 316 s.
80. Azərbaycan Sovet Ensiklopediyası. 10 cildde, I c. Bakı :1976, 592 s.

81. Baxşəliyev Ə.T.Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı: Elm və təhsil, 2011,481 s.
82. Baxşəliyev Ə.T.«Qurani-Kərimdə ailənin sosial-psixoloji xüsusiyyətləri haqqmda», BSU-nun nəşri, Elmi əsərlər,Bakı,2009, №1
83. Bayramov Ə.S.Etnik psixologiya məsələləri .Bakı: Elm və həyrat, 1996, 205 s.
84. Bayramov .Ə.S. Qəribə psixi hadisələr.Bakı: Azəməşr, 1967, 115 s.
85. Bayramov Ə.S.,Əlizadə Ə.Ə. Psixologiya.Bakı: 2006,622 s
86. Bayramov Ə.S Şagirdlərdə əqli keyfıyyətlərin inkişaf xüsusiyyətləri.Bakı: Azərnəşr, 1967,3 51 s.\
87. Bayramov Ə. S. Şəxsiyyətin tərbiyəsinə diqqəti necə artırmalı. Azərbaycan məktəbi. 1989, 9-13s.
88. K.D. Uşinski. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1953.216 s.
89. Eminov A.İ. Şərq ailəsinin sirrləri.Bakı: Sabah ,1992, 152 s.
90. Əfəndiyev T. «Əxlaq necə yaranmışdır» Bakı: Azərnəşr, 1965, 94 s.p
91. Əliyev B.H. Şəxsiyyət probleminə yeni baxış //Elm XXI əsrin astanasııda elmi-praktik konfransın materialları. Bakı: Renessans, 1998,s3.
92. İ. P. Pavlov əsərləri. Rus dilində. IV, moskva 1952, 355s.
93. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı ,2006, 200 s.
94. Əliyev R.İ. Şəxsiyyət və onun formalaş-masmm etno-psixoloji əsasları. Bakı: Araz, 2000,196 s.
95. *Marksis 1. Etika. Bakı. 1986.215 s.*

96. Əlizadə.Ə.Ə. Abbasov.A.N. Ailə həyatının etika və psixologiyasının tədrisinə dair (I hissə). Bakı: Azərb.Resp.M.N-nin nəşri, 1985, 27s

97. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı ,2006, 200 s.

98. R.İ. Şəxsiyyət və onun formalaşmasmm etno-psixoloji əsasları. Bakı: Araz, 2000,196 s.

99. *Etika. Bakı. 1986.215 s.*

100. Əlizadə.Ə.Ə. Abbasov.A.N. Ailə həyatının etika və psixologiyasının tədrisinə dair (I hissə). Bakı: Azərb.Resp.M.N-nin nəşri, 1985, 27s

101. Əlizadə.Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı:Renessans, 2003, 258s.

102. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri.Bakı: Ozan, 1998, 364 s.

103. N. Tusi "Əxlaqi Nasiri", Bakı.2004.365s

104. Əlizadə.Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986,236 s.

105. Əlizadə.Ə.Ə. İstedadlı uşaqlar. Psixopeda-qoji məsələlər. Bakı: 2005,352 s.

106. Əliyeva S.Y. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında valideyn-uşaq münasibət-lərinin rolu. Bakı: Mürtəcim, 2000, 4C s.

107. Əfəndiyev Tələt.Əxlaq necə yaanmışdır. Bakı.1956.729

108. İsgəndər Etibar. Gənc ailə üçün yaddaş. Bakı: 2009, 7 5s.

109. İsmayılov F.K. Ziqmund Freyd. Bakı: Gənclik, 1994, 120 s.

110. İslamda əxlaq. Bakı, 2005. 400 s.

111. Marksist "Etika" Bakı , 1985, 325 s.

112. Baxşəliyev Ə.T. "Ömrün mənalı illəri" (asosial – psixoloji oçerklər). Bakı 2014. 155s

113. Bayramov Ə.S. Gənclərin özünütərbiyəsi haqqında. Bakı, "Gənclik" nəşriyyatı, 1961.

114. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1981.

115. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü inkişafı və müasir vəziyyəti. Bakı, 2007, 515 s.

116. Bayramov Ə.S. Yeniyetmələrin davranışında neqativ təzahürlər və onların aradan qaldırılmasının psixoloji mexanizmləri. // "Azərbaycan məktəbi" jurnalı, 1982, № 4

117. Cabbarova L.M. Psixologiyada tənhalıq problemi. Bakı, 1997.

118. Cabbarova L.M. Təcrid sosial-psixoloji cəzalandırma üsulu kimi // BDU-nun 80 illiyinə həsr olunmuş elmi konfransın materialları, Bakı, 1999.

119. Dadaşova T.Y. Yeniyetməlik dövrünün ziddiyyətləri və onların tərbiyə prosesində nəzərə alınması // "Azərbaycan məktəbi" jurnalı, 1985, № 6

120. Dəmirov M.S. Yeniyetmələrdə hərbi-vətənpər-vərlik hissinin inkişaf xüsusiyyətləri: Psixol.elm.namizədi alimlik dərəcəsi almaq üçün tənqid olunmuş dissertasi-yanın avtoreferatı, Bakı, 2001.

121. Əliyev B.H. Yeniyetmə qruplarının sosial-psixoloji xüsusiyyətləri haqqında // Ümumrespublika elmi konfransının məruzələrinin tezisləri, Bakı, 1996.

122. Əliyev B.H. Ekstremal şəraitdə davranışın bəzi xüsusiyyətləri haqqında // Respublika ali məktəblərarası elmi-metodik konfransın tezisləri, Bakı, 1997.

123. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri. Bakı, Azərnəşr, 1996.

124. Əliyev R. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, 1995.

125. Əliyev Q. Narkomaniya və narkotizmlə mübarizə problemləri. Bakı 2011

126. Həsənov E. Gənclər arasındanarkotizmin qarşısının alınması sahəsində daxili işlər orqanlarının fəliyyəti. Bakı "Səbar" 1993, 203 səh.

127. Həsənov E. Narkotiklərlə bağlı cinayətlər. Bakı "Azərnəşr" 2000, 128 səh.

128. Məmmədov S. Narkotik cinayətkarlıq Bakı, 2005, 296 səh.

129. Məmmədov S. Narkotizmin cəmiyyətə bəzi təzahürləri Bakı, 2004, 200 səh.

130. Zahidov B. Narkotizm və narkobiznes. Bakı 2004 (BDU) 153, səh.

131. Narkotik sərxoşluq vaxtı narkomanın davranışının və xaici görkəminin səciyyəvi cəhətləri. Bakı, "Zaman" 2002. 56 səh.

132. Zahidov Bəhram Narkotizm və narkobiznes mübarizəsinin aktual problemləri. Bakı, 2004 BDU. 603 səh.

133. Ənalə Hüseyn qızı Pəşmsuruş – Narkomanların idrak fəaliyyəti ilə davranışlarının qarşılıqlı təsirinin psixoloji xüsusiyyətləri. Bkı, 2015, 170 s.

134. Həsənov E. Gənclər arasında narkotizmin qarşısının alınması sahəsində daxili işlər orqanlarının fəaliyyəti. Bakı: Sabah, 1993, 203s.

135. Narkotik vasitələr, psixotrop maddələrin və onların prekursorlar. Bakı, Hüquq ədəbiyyatı, 2003, 204 s.

136. Z. B. Görüşov – Əxlaqi sərvətlər. Bakı, 1966. 307 s.

137. Z. B. Görüşov Azərbaycan maarifçilərinin etik görüşləri. Bakı, 1960. 212 s.

138. Z. B. Görüşov Azərbaycan maarifçilərinin əxlaqi görüşləri. Bakı, 1964. 220 s.

139. Ə.T.Baxşəliyev Psixologiya tarixi oçerkləri. Bakı, 2012, 465 s.

140. Tağıyev Əyyub Uşaqlarda mədəni rəftar və nəzakət tərbiyəsi. Bakı, 1956

141. Davranış etikası. Bakı 1955

142. M.A.Quliyeva Müasir gənclərin əxlaq normaları. Bakı, 1969.

143. Quliyev S. M. Gəncliyin davranış və nəzakət tərbiyəsi. Bakı, 1997

144. M.İmamverdiyeva – Suisidal davranışın təşəkkülünün psixoloji təhlili. Bakı, 2002 (Avtoreferat) 20 s.

ƏRƏSTUN BAXŞƏLİYEV
QƏRİBƏ RƏHİMOVA

# "Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji problemləri"

**( psixoloji oçerklər)**

***Çapa imzalanmış 13.09.2019-cu il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 10***
***Sifariş 302, sayı 200***

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***Email: poliqrafiya@mail.ru***